# ATƏT-in 30 illik üz qarası



**Yəqin yarandığı vaxtdan bugünədək Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT – ilkin adı Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi – ATƏM olub – red.) belə uğursuz və qitənin adlı-sanlı təsisatına başucalığı gətirməyən layihəsi olmayıb. Cənubi Qafqazın iki ölkəsi arasında ərazi mübahisəsinin uzunömürlü qarşıdurmaya çevrilməsinin baiskarı məhz ATƏT-in Minsk qrupudur.**

Oxucularımızla bərabər 30 il əvvələ və sonrakı dövrə qısa səyahət etməklə bu bədnam qrupun amorf fəaliyyətinə nəzər salmağa çalışacağıq. Beləliklə, 1994-cü il dekabrın 5–6-da ATƏM-in Budapeştdə keçirilən Zirvə görüşündə Qarabağ münaqişəsinin nizamlanması üzrə həmsədrlik institutu təsis edildi. Minsk qrupunun iclaslarının birgə həmsədrliklə keçiriləcəyi barədə qərar qəbul olundu.

*(ardı 4-cü səhifədə)*


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 270 (30674) 7 dekabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Dünya soydaşlarımızın qayıdış hüququnu dəstəkləyir

*Beynəlxalq hüquq bu məsələyə milli, dini, etnik yanaşmaları rədd edir*

**Ermənistan Qərbi azərbaycanlıların beynəlxalq gündəmə çıxarılmış təməl hüquqlarının bərpası üçün konkret addımlar atmağa məhkumdur. İrəvan hələlik bu problemin mövcudluğunu etiraf etməyə tələsməsə də, gec-tez danışıqlar masasına oturmalı olacaq.**



Bəli, Azərbaycanlıların Qərbi Azərbaycana qayıtması problemi tədricən qlobal humanitar gündəmə daxil olmaqdadır. Otuz ildir işğalçını müdafiə edən, yüz minlərlə soydaşımızın qaçqın və məcburi köçkünlük aqibəti ilə bağlı ağızlarına su alıb susan Ermənistanın himayədarları indi könülsüz, dişini bir-birinə sıxaraq münaqişənin bu səhifəsini də vərəqləməyə məcburdurlar. Həmin səhifə azərbaycanlıların Qərbi Azərbaycandakı öz doğma yurdlarına qayıtmaq hüququndan bəhs edir.

Bu baxımdan, problemin beynəlxalq səviyyədə işıqlandırılmasında danılmaz xidməti olan diplomatiyamızın, eləcə də bu istiqamətdə səmərəli və operativ şəkildə çalışan Qərbi Azərbaycan İcmasının əməyini yüksək qiymətləndirmək lazımdır.

“Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırsa da, qarşı tərəf bundan imtina edib. Ermənistan icma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpası üçün əməli addımlar atmalıdır”. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” II beynəlxalq konfransının iştirakçılarına müraciətində məhz Qayıdış Konsepsiyasının həyata keçiriləcəyini xüsusi vurğulaması təsadüfi deyildi. Göründüyü kimi, Azərbaycan lideri nəinki problemin mövcudluğu barədə məlumat verir, həm də Ermənistana onun həlli yollarını təklif edir – İrəvan Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalıdır ki, başını quma basmasın, problemi humanitar normalara uyğun həll etsin. Bu prinsipin önəmini qeyd edən dövlətimizin başçısı Ermənistanı da bu kontekstdə beynəlxalq təşkilatlarla əməkdaşlığa çağırıb. Ermənistan dağıntı və saxtakarlıqla bağlı vəziyyəti izləmək üçün UNESCO-nun faktaraşdırıcı missiyasının səfərinə icazə verməli, xalqımıza məxsus tarixi-mədəni irsin qorunması sahəsində bu qurumla əməkdaşlıq etməlidir.

*(ardı 5-ci səhifədə)*

## Azərbaycan parlamentarizmi: tarix və varislik

**106 il bundan əvvəl – 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyətə başlamış, dövlətçilik tariximiz milli qanunvericilik orqanının yaradılması ilə daha da zənginləşmişdir.**



Dünyada müasir parlament tarixi 1265-ci ildə fəaliyyətə başlayan İngiltərə parlamenti ilə başlanır. Bununla birgə, qeyd etmək lazımdır ki, parlamentin dövlət hakimiyyətinin müstəqil qoluna çevrilməsi üçün xeyli vaxt lazım olmuşdur. Belə ki, parlament yalnız XIX əsrdə dövlət institutu kimi formalaşmışdır.

Azərbaycanda müasir parlamentarizm təcrübəsi Rusiya imperiyasının Dövlət dumaları ilə bağlı olmuşdur. 1905-ci ildə inqilabın başlamasından sonra Rusiya imperiyasının siyasi sistemində tarixi dəyişiklik baş verdi. Çar II Nikolayın 1905-ci il oktyabrın 17-də verdiyi Manifest parlamentarizmin təşkilində əsas akt oldu. 1905-1917-ci illərdə Rusiyada dörd Dövlət Duması mövcud olmuşdur. Birinci və ikinci Dövlət dumaları vaxtından əvvəl buraxılmışdır. 1907-ci ildə ikinci Dövlət Dumasının (1907, 20 fevral–3 iyun) buraxılması isə dövlət çevrilişi hesab olunur.

*(ardı 6-cı səhifədə)*

# “Qorbaçov Heydər Əliyevdən çəkinirdi”

*Kremldə Heydər Əliyevin köməkçisi işləmiş Camal Camalov o dövrlə bağlı xatirələrini ilk dəfə “Xalq qəzeti”nə danışdı*



**Həyat təsadüflərlə doludur. Müsahibimlə bizim həyatımızın üst-üstə düşən təsadüfləri daha qəribədir. Keçən əsrin səksəninci illərində cəmi bir neçə ay fərqi ilə iki qonşu kənd uşağının birinin Moskvada SSRİ Ali Sovetinin Rəyasət Heyətində, digərinin SSRİ Nazirlər Sovetində işə başlaması indi, doğrudan da, möcüzə kimi səslənir. O vaxta qədər bir-birimizi tanımırdıq, sonralar isə uzaqdan-uzağa xəbər tutmuşduq ki, əslində, çox yaxın məsafədə çalışırıq. Yenə də o vaxtın bir az sərt düzənimi, tanışlıq təşəbbüsünə bəhanəmizin olmamasımı bizi bir müddət uzaq saxladı. Nəhayət, tanış olduq.**

İndiki mobil əlaqələr olmadığından, rəsmi idarəyə (həm də o qədər rəsmi!) zəng etməyə müsbət baxılmadığından nadir hallarda zəngləşirdik.

Əlqərəz, bizim isnişməyimiz sovetlərin süqutuna yaxın oldu.

*(ardı 3-cü səhifədə)*



# Maltada erməni “ağlaşması”

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ATƏT-in Nazirlər Şurasının Maltada keçirilmiş 31-ci iclasındakı çıxışına müxtəlif aspektlərdən yanaşmaq mümkündür. Əvvəlcə bir məqamın üzərində dayanaq. Söhbət ATƏT-in funksiyasından, yəni, təhlükəsizlikdən gedirsə, deməli, Mirzoyan üçün prioritet məhz Ermənistanın üzləşdiyi durum olmalıdır.**

O, Azərbaycanla sülh gündəmi və Türkiyə ilə münasibətlərin normallaşmasından danışır. İlk baxışdan, hər şey çox yaxşı görünür. Amma nazirin fikirlərində problemli cəhətlər var və onlara diqqət yetirəcəyik.

Qeyd edək ki, Ermənistan baş naziri Nikol Paşinyan bir neçə gün əvvəl ölkə parlamentindəki çıxışında “Məzlum millət”, “ordu millət” düsturları kimi qiymətləndirdiyi məsələdən söz açmışdı. Onun dediklərindən belə çıxmışdı ki, ermənilər dünyada məzlum xalq kimi tanınıb. Daha doğrusu, özlərini belə tanıtdırıblar. Mövcud istiqamətdə danışılan yalanlara isə o qədər inanıblar ki, məzlumluğu aradan qaldırmağın yolunu ordu millətinə çevrilməkdə görüblər.

Paşinyan dolayısı ilə hər iki düsturun mənasızlığını açıqlamış və mövcud ritorikadan uzaq durulmasının vacibliyini əsaslandırmağa çalışmışdı. Məsələn, baş nazir demişdi ki, Ermənistana güclü ordunun lazım olduğunu bildirərkən həmin ordunun kimə qarşı döyüşəcəyi məsələsi də nəzərdən keçirilməlidir.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycanın neft hasilatı kvotası dəyişməyəcək



**Azərbaycanın energetika naziri Pərviz Şahbazov Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin onlayn formatda keçirilən 38-ci iclasında iştirak edib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, iclasda “OPEC plus” ölkələri neft bazarındakı cari vəziyyəti müzakirə edərək 2026-cı ilin sonunadək hasilat göstəricilərini 39,7 milyon barel həcmində müəyyən ediblər. Bu razılaşmanı Azərbaycan da dəstəkləyib. Ölkəmizin gündəlik 551 min barel həcmində olan mövcud xam neft hasilatı kvotası isə bu dövrdə sabit saxlanılacaq.

*(ardı 7-ci səhifədə)*

# “Gürcü Arzusu” radikalların arzusunu puç edir



**Gürcüstan hökumətinin Avropa İttifaqına üzvlüklə bağlı danışıqlardan imtina etməsi ilə bağlı etiraz aksiyaları özünün məntiqi sonluğuna yaxınlaşır.**

Doğrudur, Qərbdən maliyyəşən radikal müxalifət düşərgəsi və QHT nümayəndələri “qələbənin yaxınlıqda” olması barədə nağıl uydururlar. Konstitusiyanın keşiyində dayanan iqtidar da etiraz dalğasının tezliklə sönəcəyini bildirir.

*(ardı 9-cu səhifədə)*

# Avropa İttifaqı Şurasının Prezidenti Zati-aliləri cənab Antonio Koştaya

**Hörmətli cənab Prezident!**

Avropa İttifaqı Şurasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələri geniş gündəliyə malikdir və enerji, o cümlədən yaşıl enerji, nəqliyyat, ticarət və digər sahələri əhatə edir. Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın mühüm rolu danılmazdır.

İnanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi dialoqun, iqtisadi-ticari əməkdaşlığın və mədəni mübadilələrin qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da inkişaf etməsi, konstruktiv tərəfdaşlığımızın möhkəmlənməsi üçün birgə səylər göstərəcəyik.

Sizə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 dekabr 2024-cü il**

# Avropa Komissiyasının Prezidenti Zati-aliləri xanım Ursula fon der Lyayenə

**Hörmətli xanım Prezident!**

Avropa Komissiyasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan ilə Avropa İttifaqı arasında iqtisadi-ticari, nəqliyyat-kommunikasiya, təhlükəsizlik, xüsusilə də strateji xarakter daşıyan və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynayan enerji sahəsində səmərəli tərəfdaşlıq əlaqələri mövcuddur.

Əminəm ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın qarşılıqlı hörmət və bərabər hüquqlar əsasında hərtərəfli inkişafı istiqamətində bundan sonra birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, Avropa Komissiyasının yeni tərkibdə qarşıdakı fəaliyyətinə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 dekabr 2024-cü il**

# Finlandiya Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Stubba

**Hörmətli cənab Prezident!**

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Finlandiya arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik. COP29-da iştirak etmək üçün Azərbaycana səfərinizi və Sizinlə keçirdiyimiz görüşü xoş təəssüratlarla xatırlayıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 dekabr 2024-cü il**

# Azərbaycanın mina problemi III Avropa Konfransında




**Dekabrın 6-da xarici işlər naziri Ceyhun Bayramov Maltanın paytaxtı Valetta şəhərində Azərbaycan tədqiqatları üzrə III Avropa Konfransında çıxış edib.**

Nazir Azərbaycanın COP29-a sədrliyi, ölkəmizin enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar istiqamətləri üzrə təşəbbüsləri, habelə postmünaqişə dövründə bölgədə vəziyyət barədə danışıb. Onlarla təşəbbüs və əhəmiyyətli tədbirlərlə yanaşı, COP29 çərçivəsində əvvəlki iqlim maliyyəsi hədəfini 3 dəfə üstələyərək 300 milyard dollara çatdıran Bakı Maliyyə Məqsədinin qəbulu, Paris sazişinin əsas hissəsi olan 6-cı maddə üzrə danışıqların yekunlaşdırılması, İtki və Zərər Fondunun növbəti ildən fəaliyyətə başlamasının təmin olunmasının sədrliyimizin ən əhəmiyyətli uğurları sırasında olduğu qeyd edilib. İqlim dəyişmələri ilə mübarizə sahəsində ölkəmizin beynəlxalq tərəfdaş və təşkilatlarla birgə irəli sürdüyü 9 təşəbbüsdən danışan nazir bu təşəbbüslərə geniş maraq olduğunu, çoxsaylı ölkələrin təşəbbüslərə qoşulduğunu diqqətə çatdırıb.

Bununla yanaşı, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi çərçivəsində elan olunan qlobal təşəbbüslərin iqlim dəyişikliyinin müxtəlif aspektləri, o cümlədən diqqətdən kənarda qalan problemlərə vurğu edilməsi baxımından əhəmiyyəti bildirilib.

Ölkəmizə qarşı əsassız iddia və "neftqaz ölkəsi" bəhanəsi altında aparılan sistematik qarayaxma kampaniyasına baxmayaraq, COP29-un uğurla həyata keçirildiyi və iqlim dəyişikliyi ilə mübarizə səylərinə vacib töhfə olduğu qeyd edilib.

C.Bayramov, həmçinin ölkəmizin bərpaolunan enerjisi potensiali, işğaldan azad olunmuş ərazilərdə bu istiqamətdə görülmüş işlər barədə ətraflı məlumat verib.

Orta Dəhlizin inkişafından, Azərbaycan vasitəsilə keçən əmtəələrin həcminin artımından danışan nazir nəqliyyat və kommunikasiyalar sahəsində imkanlardan istifadənin vacibliyini qeyd edib.

Nazir ATƏT Nazirlər Şurası çərçivəsində aparılmış müzakirələr, təşkilat çərçivəsində mövcud problemlər və perspektivlərdən söhbət açıb.

C.Bayramov Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumat verib. Sülh müqaviləsinin layihəsi, həmçinin delimitasiya prosesi üzrə əldə olunan irəliləyişlərə baxmayaraq, Ermənistan Konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının davam etdirilməsinin sülh gündəliyinə hədə törətdiyi bildirilib.

Sonra nazir tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

*

Həmin gün xarici işlər nazirinin müavini Elnur Məmmədov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Coşua Hakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesinin perspektivləri müzakirə olunub.

Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi əməkdaşlıq münasibətlərinin əhəmiyyəti və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub. Azərbaycanın cari ilin noyabr ayında ev sahibliyi etdiyi COP29 çərçivəsində Azərbaycan-ABŞ əməkdaşlığı yüksək qiymətləndirilib.

**XQ**

# "İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin 139-cu kitabı

**"Əlbəttə, biz istərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın. Bu, müəyyən dezinformasiya sayəsində obyektiv deyilsə, eybi yoxdur. Ancaq bu, məqsədyönlü şəkildə Azərbaycanı nüfuzdan salmağa yönəlibsə, biz sual veririk ki, bu nədən baş verir, bu niyə belə olmalıdır? Dediyim kimi, bizim bununla bağlı edə biləcəyimiz o qədər də çox deyil. Bu gün Qarabağda apardığımız işlər, ola bilsin ki, bu vəziyyəti dəyişə bilər. Ancaq vaxt keçdikcə siyasi dairələrdə - Qərbdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır".**




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 139-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı iyulun 20-də "Yalan məlumatların ifşası: dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Forumunda "Berliner Zeitung" qəzetinin nümayəndəsinin sualına cavab verərkən söyləyib.

Qeyd edək ki, çoxsaylı suallara məntiqi və məzmunlu cavab verən Azərbaycan Prezidenti, həmçinin Türk Dövlətləri Təşkilatı ilə bağlı fikirlərini bir daha diqqətə çatdırıb: "Əminəm ki, bu təşkilatın çox böyük gələcəyi var. Təşkilatı daha yüksək pilləyə qaldırmaq üçün ortaq səylər lazımdır. Coğrafiyamız çox böyükdür, təbii sərvətlər, nəqliyyat yolları, gənc və artan əhali - bütün bunları mən öz çıxışımda söylədim. Yəni, bütün bu amillər təşkilatımızın potensialını əyani şəkildə göstərir. Biz birliyi daha da gücləndirməklə Türk Dövlətləri Təşkilatını dünya miqyasında güc mərkəzinə çevirməliyik. Çünki bu gün bir neçə beynəlxalq təşkilat var. Bəziləri böhran içində, bəziləri tənəzzüldədir. Türk Dövlətləri Təşkilatı isə yüksəlişdədir. Bu yüksəliş rahat olmalıdır və buna ortaq səylərlə nail olacağıq". Forumun materialları ilə yeni kitabda tanış olmaq mümkündür.

Çoxcildliyin 139-cu kitabında toplanmış materiallar 2024-cü ilin iyul-sentyabr aylarını əhatə edir.

Yeni kitaba Azərbaycan Prezidentinin Pakistana dövlət səfərinin, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfərinin materialları, Oksfordda "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısının açılış plenar sessiyasında iştirakı haqqında informasiya, Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda keçirilmiş dəyirmi masada çıxışının mətni daxil edilib.

Nəşrdə Prezident İlham Əliyevin Qazaxıstana səfəri, Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikası dövlət başçılarının birgə görüşündə çıxışının mətni, Özbəkistana dövlət səfəri, Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın 1-ci iclasında iştirakı, sənədlərin imzalanması mərasimi haqqında informasiyalar, Azərbaycan və Özbəkistan liderlərinin mətbuata bəyanatlarla çıxışlarının mətnləri də verilib.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfərinin materialları, "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışının mətni ilə də tanış ola bilər.

Çoxcildliyin bu kitabına Prezident İlham Əliyevin Azərbaycana dövlət səfərinə gəlmiş Rusiya Prezidenti Vladimir Putin ilə görüşünə, imzalanmış sənədlərin mübadiləsinə, liderlərin mətbuata bəyanatlarla çıxışlarına dair materiallar da daxil edilib.

Yeni kitabda dövlətimizin başçısının XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanan Azərbaycan idmançıları və onların məşqçiləri ilə görüşünə dair məlumat da yer alıb.

Prezident İlham Əliyev sentyabrın 2-də Kəlbəcər rayonunda səfərdə olub, Xudavəng monastır kompleksini ziyarət edib. Dövlətimizin başçısı, həmçinin Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin, inzibati binanın, rayonunun İstisu qəsəbəsinin təməllərini qoyub, "İstisu" mineral su zavodunun açılışında iştirak edib, infrastruktur obyektlərində aparılan tikinti işləri ilə tanış olub. Bütün bunlar haqqında materiallar yeni kitabda toplanıb.

"Azərnəşr" tərəfindən buraxılan 139-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

***AZƏRTAC***

# Əli Əsədovun Fuat Oktay ilə görüşü



**Dekabrın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayla görüşüb.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

**XQ**

# Baş prokurorun Sumqayıtda qəbulu



**Dekabrın 6-da Baş prokuror Kamran Əliyev Sumqayıt Şəhər Prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Qubadlı rayonu və digər bölgələrdən olan vətəndaşların müraciətini dinləyib.**

Qəbulda iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Vətəndaşların qəbulundan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə tanış olub.

**XQ**



# Zaur Mikayılov cənub bölgəsində

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dekabrın 6-da Cəlilabad Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin inzibati binasında Cəlilabad, Biləsuvar, Cəbrayıl və digər rayonlardan olan vətəndaşları qəbul edib.***

Müraciətlər əsasən suvarma suyuna olan tələbatın ödənilməsi, kanalların beton üzlüyə alınması, suvarma suyunun limitinin artırılması, yeni subartezian quyularının qazılması, içməli su təchizatı, kanalizasiya sistemlərinin yenidən qurulması və digər məsələlərlə bağlı olub.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

**XQ**

# Fövqəladə hallar naziri Xaçmaz və Şabranda sakinləri dinləyib



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov dekabrın 6-da Xaçmaz şəhərində, nazirliyin Şimal Regional Mərkəzinin binasında Xaçmaz və Şabran rayonlarının sakinləri ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, əvvəlcə nazir Kəmaləddin Heydərov xalqımızın ümummilli lideri Heydər Əliyevin Regional Mərkəzin həyətində ucaldılmış büstünü ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Xaçmaz və Şabran sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq struktur bölmə və qurumlarının rəhbərləri də vətəndaşları qəbul edib.

Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə Prezidentə minnətdarlıq ediblər.

**XQ**

İlk dəfə XQ-də

# “Qorbaçov Heydər Əliyevdən çəkinirdi”

(əvvəli 1-ci səhifədə)

Moskvada yaşayan həmyerlilərimizin hamısı görkəmli həmyerlimiz Heydər Əliyevin dövlətin ali pilləsində – Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi təmsil olunması ilə fəxr edir və onun da özünə azərbaycanlı köməkçi götürməsinə sevinirdilər. Amma rəsmi iş cədvəli o qədər gərgin idi ki, Heydər Əliyevi xəbərlərdə, ekranlarda, səfər zamanı görsək də köməkçisini heç yerdə görmürdük.

SSRİ dövləti tarixə çevrildikdən sonra o məqamdakı həmyerlilərin işi də “göyə çəkildi”. Hər ikimiz sıravi həyata döndük, münasibətlərimiz də yaxınlaşmağa başladı. Sonra doxsanıncı illərin məşəqqətləri, torpaqlarımızın işğalı, 20 Yanvar faciəsi, helikopter faciəsi və daha bir çox hadisələr bizi həmyerlilərin yığıncaqlarında rastlaşdırırdı. O vaxt Camala xatirələrini danışmağı, müsahibə və ya başqa şəkildə çap etməyi təklif edirdim. Təbiətcə çox təvazökar olan həmyerlim hər dəfə bir bəhanə tapıb bu söhbəti təxirə salırdı. Nəhayət, bu yaxınlarda onun Heydər Əliyevlə işlədiyi dövrlə bağlı xatirələrinin bir qisminin çəkildiyi videoçarxı izlədim. Zəngləşdik. Köhnə xahişimi təkrarladım və görüşə razılıq aldım. Söhbətimiz bir neçə qəzet səhifəsini dolduracaq qədər maraqlı faktlarla, həyat epizodları ilə dolu oldu. Həmin xatirələri oxucuların ixtiyarına veririk.

**– İlk dəfə mətbuat üçün söhbətləşən müsahib kimi görüşürük və Sizin Moskvaya haradan və necə gəldiyiniz haqqında məlumata ehtiyac var...**









– Azərbaycanda doğulub böyümüşəm. Orada institut bitirmişəm. İki il Culfada əsgərlik etmişəm. Qulluğun sonunda tank rotasının komandiri idim. Əsgərlikdə məni partiyaya qəbul ediblər. İnstitutdan sonra təyinatımı SSRİ Yüngül Sənaye Nazirliyinin Moskva ətrafındakı müəssisələrindən birinə verdilər. Əmək fəaliyyətinə Klin şəhərində başladım. 1982-ci ildə rəhmətlik Ənvər Hüseynov (Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinin rəhbəri – C.S.) məni daimi nümayəndəliyə işə dəvət etdi. Baş referent işləyirdim. Təbii ki, Heydər Əliyev haqqında eşitmişdim, amma onunla şəxsən görüşməmişdim. 1982-ci il dekabrın 22-də məni ilk dəfə söhbət üçün Heydər Əliyevin yanına çağırdılar. Görüşə gələndə həyəcanlanmırdım – desəm, yalan olar. Cox həyəcanlı idim. Təsəvvür edin, ilk dəfə Kremlə gələsən, özü də Heydər Əliyevin qəbuluna. Söhbət zamanı tərcümeyi-halımı danışdım. Ailəmizdə doqquz uşaq olduğunu dedim. Onda ilk dəfə Əliyevin sifətində xəfif təbəssüm hiss etdim və bu gülümsəmə məni daxilən rahatlandırdı. Çox səmimi deyirəm, onun gülümsəməsi, təbəssümü də qeyri-adi idi. Heç bir siyasətçidə elə təbəssüm görməmişdim. Bunu, demək olar, SSRİ-nin o vaxtkı bütün rəhbərlərini yaxından müşahidə etmiş adam kimi deyirəm.

Ertəsi gün dekabrın 23-də Kremldə Heydər Əliyevin yanında katib kimi işə başladım. Yeri gəlmişkən deyim ki, Heydər Əliyev Siyasi Büro üzvü seçildikdən və Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra Kremldə məhz 1982-ci il dekabrın 7-də işə başlamışdı. Əvvəlcədən gündəlik işlərlə bərabər fəaliyyətimin əsası məktubları oxuyub xülasələr hazırlamaqdı. Ali Sovetdə işlədiyinizə görə Siz də bilirsiniz, Sovet İttifaqının hər yerindən ildə üç mindən çox məktub gəlirdi. Hər məktubdan cəmi beş-altı sətirlik xülasə çıxarıb məruzə edir, onun göstərişi ilə müvafiq ünvanlara – nazirliklərə, dövlət komitələrinə göndərirdim.

**– İş gününüz necə başlayır, nə qədər davam edirdi?**

– Səhər saat səkkizə iyirmi dəqiqə qalmış mən işdə olurdum. Axşam işdən gedərkən otaqları möhürləyirdim, açarları muhafizəçilərə verirdim. Səhər əvvəlcə mən qapını açırdım, sonra xadimə otaqda təmizlik işləri görür, daha sonra rabitə işçisi telefonları təmizləyib yoxlayırdı. Bəzən gecə saat ikiyə, üçə qədər işdə olurdum. Heydər Əliyev işə başlayandan az sonra Nazirlər Sovetinin iş cədvəlində xeyli dəyişikliklər etdi. Adətən, həftənin iş günlərində saat altıdan sonra işdə heç kim qalmırdı, beşinci gün isə lap saat beşdən çoxu işdən gedirdi. Nazirlər Soveti Sədrinin Birinci müavini iş yerindədir, şöbə müdirləri yox. Sədrin bir köməkçisi vardı –Vlasov. O, balıq tutmağa gedəndə geyindiyi libasını heç evə aparmırdı. Cümə günü saat beşdə işdən çıxıb bir də bazar ertəsi gəlirdi. Heydər Əliyev az sonra şənbə və bazar günləri müşavirələr keçirməyə başladı. Yavaş-yavaş bu günlərdə bir canlanma baş verdi. Hüquq şöbəsinin müdiri Qriqori Mişustin bir dəfə yarızarafat-yarıciddi dedi ki, Heydər Əliyeviç, Siz aparat əməkdaşlarının Konstitusiya hüquqlarını pozursunuz. Onlar həftədə 40 saat işləməli olduqları halda Siz şənbə, bazar günləri də iş təyin edirsiniz. Əliyev bu iradı təbəssümlə qarşıladı və Mişustin də, başqaları da qısa müddətdə yeni iş qaydalarına öyrəşdilər. Çünki Heydər Əliyev heç kəsi özündən çox işləməyə məcbur etmirdi.

Çalışdığım müddətdə çox müşahidələrim oldu. Yeri gəldikcə xatırlamağa çalışacağam. Məsələn, Heydər Əliyev bütün əlamətdar günlərdə, bayramlarda çoxlu miqdarda təbrik məktubları imzalayırdı. Azərbaycanda birgə çalışdığı adamların, demək olar, heç birini – rayon, şəhər, respublika rəhbərlərini, görkəmli xadimləri unutmadan təbrik edirdi. Halbuki, o, Siyasi Büronun üzvü idi və yerli rəhbərlərin onu təbrik etməsi lazım idi.

**– Evə gec getməyinizə baxmayaraq, ertəsi günü yenə erkən işə başlayırdınız, eləmi?**

– Bəli. Hələ Stalinin vaxtından belə qayda qoyulmuşdu ki, MK katibləri, Nazirlər Soveti Sədrinin müavinləri səhər, günorta, axşam Kremldə qidalanırdılar. Doqquzuncu idarənin xüsusi bufeti bir gün əvvəl verilən sifariş əsasında onlar üçün yemək hazırlayırdı. Heydər Əliyev çox az yeyirdi. Səhərlər şirin çayla “tvoroq”la kifayətlənirdi. Yeməkləri əvvəlcə Brejnevə xidmət edən aşpazlar hazırlayırdılar.

İşdə Heydər Əliyev çox tələbkar idi. Birinci müavin təyin edildikdən sonra İttifaqın səhiyyə, mədəniyyət, nəqliyyatla bağlı məsələləri ona həvalə edilmişdi. Bütün sahələrin öhdəsindən gəlirdi. Fenomen yaddaşa malik idi. İş masasının üstündə şüşənin altında onun nəzarəti altında olan 63 nazirin, dövlət komitəsi və baş idarə rəhbərlərinin telefonları vardı. Ayda bir dəfə, bəzən daha tez-tez o siyahını yeniləyir, azad edilmiş nazirlərin adlarını yeni təyin olunanlarla dəyişir, siyahını həmişə səliqəli vəziyyətdə saxlayırdım.

## Siyasi qısqanclıq

Söz vaxtına çəkər, – deyiblər. İndi Suriyada baş verən hadisələr 40 il bundan əvvəl o ölkə ilə bağlı əhvalatı yadıma saldı. 1984-cü ildə Heydər Əliyevin Suriyaya səfəri oldu. O vaxt orada Prezident Hafiz Əsəd idi. 1983-cü ilin sonlarında, o, ciddi xəstələnmişdi və dövlətə rəhbərliyi müvəqqəti olaraq qardaşı Rifat Əsədə həvalə etmişdi. Xəstəlikdən sonra Hafiz Əsəd yenidən hakimiyyətə qayıtmaq istəyəndə qardaşı onu rəhbərliyə buraxmaq istəmirdi. Ələvilər Rifatı müdafiə edirdilər və ölkə vətəndaş müharibəsinin astanasında idi. Belə gərgin vaxtda Heydər Əliyev nümayəndə heyətinin başçısı kimi Suriyaya səfər etdi. Nümayəndə heyətinə Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsinin sədri Mirzə İbrahimov, komitənin sədr müavini Aleksandr Zasoxov, SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru Yevgeni Primakov daxil idi. Səfərin birinci günü Heydər Əliyevlə Hafiz Əsədin təkbətək görüşü səkkiz saat davam etdi. Nümayəndə heyətinin həmin axşam geri qayıtması nəzərdə tutulmuşdu. Qayıtmaq təxirə salındı. Gərgin söhbətdən sonra gecə SSRİ-nin Suriyadakı səfiri Hafiz Əsədin qardaşının israrla Əliyevlə görüşmək istədiyini bildirdi. Ertəsi gün Heydər Əliyev Rifatı qəbul etdi və onun vitse-prezident vəzifəsinə təyin olunacağı barədə razılığa gəldilər. Bir həftə sonra Rifat təxminən 70 nəfərlik nümayəndə heyəti ilə SSRİ-yə səfər etdi. Onu ölkə siyasi rəhbərliyinin üzvü kimi ən yüksək səfiyyədə qəbul etdilər və Rifat ömürlük qonaq kimi SSRİ-də qaldı, Suriyaya qayıtmadı. Beləliklə Heydər Əliyevin məharətli diplomatik səyi nəticəsində Suriyada vətəndaş müharibəsinin qarşısı alındı və Hafiz Əsəd ömrünün sonuna qədər Suriyanın prezidenti oldu. Məncə, elə bu gün də Suriyadakı hərc-mərcliyə son qoymaq üçün Heydər Əliyev kimi siyasətçiyə ehtiyac var. Yenə ələvilər Bəşər Əsədi müdafiə edirlər, başqa vətəndaşlar öz aralarında vuruşurlar. Bunun nə ilə nəticələnəcəyini təxmin etmək çətindir. 40 il bundan əvvəlki vəziyyət yenidən təkrarlanır.

İndi bir məqama fikir verin. Səhv etmirəmsə, 1987-ci ilin aprel ayında Hafiz Əsəd SSRİ-yə səfər etdi. Mixail Qorbaçov Heydər Əliyevi onunla görüşlərə və danışıqlara dəvət etmədi. Qorbaçov elə hərəkətlər edirdi ki, indiyə qədər də izah etmək mümkün deyil. Əslində Heydər Əliyev çox böyük fəlakətin qarşısını alıb vəziyyəti nizama salmışdı. Onu görüşə dəvət etməməyin nə anlamı vardı? Belə hadisələr az deyildi. 1983-cü il oktyabrın sonu, noyabrın əvvəllərində Heydər Əliyev nümayəndə heyətinin başçısı kimi Vyetnama səfər etmişdi. Nikolay Rıjkov Mərkəzi Komitənin katibi idi və o da nümayəndə heyətinin tərkibində idi. Bu səfər ona görə yadımda qalıb ki, onlar Daşkənd üzərindən uçmuşdular və Daşkənd Hava Limanında onları Özbəkistan KP MK-nın birinci katibi Şərəf Rəşidov qarşılamışdı. Nümayəndə heyəti geri qayıdanda Şərəf Rəşidov vəfat etmişdi və bu dəfə heyəti Usmanxocayev qarşılamışdı. Heydər Əliyev dönüş qrafikində dəyişiklik edərək Rəşidovun evinə gedib ailəsinə başsağlığı vermişdi. Əliyevlə Rəşidovun arasında çox yaxın münasibət vardı.

1985-ci ilin iyununda Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Le Zuan nümayəndə heyəti ilə Moskvaya gəldi. Yenə onunla rəsmi görüşlərə Qorbaçov Əliyevi dəvət etmədi. Eyni münasibəti Qorbaçov Anqolanın başçısı Joze Eduardu duş Santuşun SSRİ-yə səfəri zamanı nümayiş etdirdi. Onun səfərindən bir müddət əvvəl Heydər Əliyev Anqolada səfərdə olmuşdu. Hətta nümayəndə heyətində olanlar maraqlı epizodu danışıb gülürdülər. Rəsmi hissədə tərcüməçi vasitəsilə portuqal dilində danışıqlar gedərkən Heydər Əliyev Santuşa deyir ki, sən axı bizim AZİ-ni (Neft-Kimya İnstitutunu) bitirmisən, Bakıda Tatyana ilə evlənmisən, rus dilini gözəl bilirsən, biz niyə portuqal dilində danışırıq. Sonra söhbət rusca davam edir. Görüşdən bir müddət sonra Santuş Moskvaya gələndə Heydər Əliyevi yenə rəsmi görüşlərə daxil etmirdilər.

1986-cı ilin iyulunda qardaş Türkiyənin Baş naziri Turqut Özal Moskvaya gələndə də Qorbaçov Əliyevin görüşməsinə mane oldu.

**– Sizcə, bunun səbəbi nə idi? Qorbaçov Heydər Əliyevin siyasi nüfuzundan, zəkasından çəkinirdi?**



– Bəli, onda Ulu öndərə qarşı bir siyasi qısqanclıq vardı.

Bu qısqanclıqlar, 1983-cü ildə Ulyanovskda 173 adamın ölümü ilə nəticələnən körpü qəzası (1983-cü il iyunun 5-də Volqa çayında Ulyanovsk rayonunda SSRİ çay nəqliyyatı tarixində ən böyük qəzalardan biri baş vermişdi, Rostov-Don şəhərindən Moskva istiqamətinə hərəkət edən “Aleksandr Suvorov” səyahət gəmisi naməlum səbəbdən istiqaməti dəyişib tam sürətlə Volqa çayı üzərində altından böyük gəmilərin keçə bilmədiyi körpüyə çırpılmışdı. Bu zaman iki kilometrlik körpüdən taxta-şalban, taxıl və kömür yüklü qatar keçirdi və güclü zərbə nəticəsində relsdən çıxan vaqonların yükü sağ qalan turistlərin üzərinə tökülmüşdü. Rəsmi məlumata görə, 173, qeyri-rəsmi şayiələrə görə daha çox insan həlak olmuşdu. Gəmi heyətinin bu səhvinin səbəbləri açılmamış qaldı.– C.S.).

1985-ci ilin aprelində Zərifə xanımın vəfatı, 1986-cı ilin avqustunda 422 adamın həlak olduğu “Admiral Naximov” gəmisinin qəzası və 1987-ci ilin mayında Hafiz Əsəd gələrkən onun görüşlərə daxil edilməməsi həm fiziki, həm də psixoloji cəhətdən Heydər Əliyevə ağır təsir etmişdi. Bütün bunlara ona görə sinə gərə bilirdi ki, çox güclü adam idi. Həm dövlət xadimi kimi, siyasi xadim kimi, həm təsərrüfatçı kimi çox böyük adam idi. Məndə bir jurnal var. 60 ildən çox Kremldə işləmiş Mixail Smirtyukovun müsahibələri toplanıb orada. Onun son müsahibəsində dediyi cümlə sərlövhəyə çıxarılıb: “Mən ömrümdə Rıjkov qədər zəif Baş nazir görməmişəm”. Məncə, Qorbaçovun bədbəxtliyi onda idi ki, yanında özündən güclü adam görmək istəmirdi. Heydər Əliyev isə ondan çox güclü idi. Bəla bu idi ki, rəhbərlikdə olanların çoxu səriştəsiz adamlar idi. Əgər ABŞ Prezidenti Reyqan Qorbaçovun şıq geyimindən, İsveçrə saatından danışırdısa, digər prezident ata Buş onun haqqında deyirdi ki, bəli, tərbiyəli, dilavər insandı, amma iqtisadiyyat sahəsində tamamilə kütdür. Sonralar öz dediklərini başqa cür yozmağa çalışsalar da Qorbaşov da, Liqaçov da Əliyevə qarşı üzdə saxlamağa çalışdıqları kini gizlədə bilmirdilər...

(ardı var)

Söhbəti qələmə aldı:
Cəfər SADIQ

Moskva

# ATƏT-in 30 illik üz qarası

## *Minsk qrupu həmsədrlərinin ermənipərəst fəaliyyətinin özgə adı yoxdur*



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılması ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir. Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərmişdir.**

***(Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri İan Borqla görüşdə dediklərindən).***

**(əvvəli 1-ci səhifədə)**

Məlum prosesin həmsədrlik institutu təsis olunanda ona əvvəlcə Finlandiya və Rusiya, daha sonra – 1995-1996-cı illərdə İsveç və Rusiya başçılıq ediblər.1997-ci il yanvarın 1-dən isə ATƏT-in Minsk prosesinə həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq etməyə başlayıblar.

Deməli, Macarıstan paytaxtında keçirilən görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olunub. Quruma üzv dövlətlərin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən edərək, Minsk Konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırıblar. Görüşdə, həmçinin münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində qərar qəbul olunub.

### Münaqişənin pozucu “nizamlayıcıları”

Tədbir iştirakçıları ATƏM-in Minsk qrupu ilə əməkdaşlıqda Rusiyanın vasitəçilik səyləri nəticəsində 1994-cü il mayın 12-də razılaşdırılmış atəşkəsi münaqişə tərəflərinin təsdiqlədiklərini alqışlayıblar. Azərbaycan bu saxta alqış sədalarını hələ uzun müddət eşitməli olacaqdı. 28 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrlərindən ədalətli mövqe, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət, konkret addımlar gözlədik. Bunların heç birinin olmaması bir yana, Ermənistana BMT-nin məlum 4 qətnaməsinin yerinə yetirməsi ilə bağlı azacıq da olsa beynəlxalq təzyiq göstərilmədi. Əvəzində həmsədrlər Ermənistanın işğalçılıq siyasətinə pərdə tutdular. ATƏT-in Minsk qrupu bu illər ərzində münaqişənin hərbi yolla həllini inkar etdi, o zamankı status-kvonu Azərbaycana qəbul etdirməyə və münaqişəni siyasi yollarla nizamlamağa uğursuz cəhdlər göstərdi. Bu minvalla Azərbaycanın gözündə tamamilə etimadını itirən qurumun ermənipərəst fəaliyyəti problemin dinc danışıqlar yolu ilə deyil, məhz hərbi əməliyyatlarla həlli variantını gündəmə gətirdi.

Amma buna qədər Azərbaycan həmsədrlərin diplomatik nağılları ilə müşayiət olunan marafonu keçməli idi. 1995-ci il avqustun 28-də ATƏT-in fəaliyyətdə olan sədrinin qurumun Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi vəzifəsi təsis olundu. 1996-cı ilin iyulundan bu vəzifəni polşalı səfir Anjey Kaspşik tutur. O, 24 il Bakıya, İrəvana və Xankəndinə “marşal reydləri” edən səhra komandiri kimi yaddaşlarda qalacaq.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə (ABŞ, Rusiya, Fransa) gəlincə, onlar nəinki beynəlxalq hüququn həyata keçirilməsinə, Ermənistanın silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən çıxmasına töhfə vermədilər, əksinə, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasına, eyni zamanda ədalətin zəfər çalmasına mane oldular.

### Ədalətin ümid testi

Azərbaycan bütün bunları yaşamalı oldu. Qonşunun hərbi təcavüzü, ərazilərinin 20 faizinin işğalı ilə üzləşən ölkəmiz ümidini beynəlxalq hüquq çərçivəsində ədalətli yanaşmaya, beynəlxalq qurumun vasitəçiliyinə bağlamışdı. Sonra anladıq ki, ümidin ünvanını səhv seçmişik. ABŞ Konqresinin “Azadlığa dəstək aktı”na qəbul etdiyi ədalətsiz 907 saylı düzəliş suyun haradan bulandırıldığını bizə açıq göstərdi. Bundan başqa, qanunun aliliyi prinsipini əlində bayrağa çevirmiş “azad və demokratik” ABŞ Qarabağ separatçılarına hər il maliyyə yardımı ayıran ölkə oldu.

“Dünyanın aparıcı dövlətlərinin – ABŞ, Fransa və Rusiyanın həmsədr olduqları ATƏT-in Minsk qrupuna ümidlər, doğrudan da, böyük idi. Amma bir müddətdən sonra Azərbaycan başa düşdü ki, bu “güclərin” bir araya gəlməsi tamamilə başqa məqsədə xidmət edir”. Bunu XQ-yə açıqlamasında **Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov**



bildirdi. Onun sözlərinə görə, qrupa cəlb olunan “üçlüy”ün əsas məqsədi Qarabağ münaqişəsini dondurulmuş vəziyyətə saxlamaq olub: “Bu vəziyyətdən özləri bəhrələnməyi düşünürdülər. Maraqlıdır ki, bir sıra qlobal mövzularda fərqli yanaşmalara malik həmsədr dövlətlərin mövqeləri Qarabağ məsələsində üst-üstə düşürdü. Azərbaycan buna tam əmin olandan sonra belə qərar gəldi ki, problemin həlli yalnız onun öz üzərinə düşür. Vədə yetişdi və beynəlxalq hüquqa və normalara uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi. Bəs, bundan sonra nə baş verdi? Həmsədr ölkələr Azərbaycanın yaratdığı yeni reallıqdan təşvişə düşdülər. Onların bu reallığa qərəzli yanaşması, anti–Azərbaycan bəyanatları, qəbul etdikləri qətnamələri məhz təşvişin nəticəsi idi”.

ATƏT-in Minsk qrupunun formal olaraq yoxa çıxdığını söyləyən F.Sadıxov amma onun “de-yure” hələ də mövcudluğuna diqqəti yönəltdi: “Bakı bu qrupun ləğv edilməsi təklifini çoxdan irəli sürüb. Bu təklifi İrəvanın da diqqətinə çatdırmışıq. Fəqət, görünür, Ermənistan bu təsisatdan hələ bəhrələnmək istəyir. Çünki, bu qrupda Fransa, ABŞ kimi onu dəstəkləyən, başını sığallayan ölkələr var. Yəqin bu səbəbdən rəsmi İrəvan nəyəsə ümid bəsləyir. Düşünürəm ki, bizim bu istiqamətdə atacağımız diplomatik addımlarımız daha güclü və hücum xarakterli olmalıdır. Son nəticədə Minsk qrupunun kitabının birdəfəlik bağlanmasına nail olmalıyıq. Avropanın bu təsisatının hüquqi müstəvidə qalması nəinki bölgədə təhlükəsizliyin təmin edilməsində işə yarayır, əksinə, bu posesə maneçilik törədir. Ən böyük problem də bundan ibarətdir. Azərbaycan həmin həmsədr dövlətlərə sübut etdi ki, artıq onların yardımına ehtiyac qalmayıb və fəaliyyətlərinin davamı faydasızdır”.

### Azərbaycan yalnız özünə güvəndi

Bəli, bu gün ölkəmiz öz gücünə arxalanır. Azərbaycan Cənubi Qafqazın iqtisadi cəhətdən ən qüdrətli ölkəsinə çevrilib, regionun ən yüksək döyüş qabiliyyətinə malik ordusuna malikdir. Ötən 30 ildə Bakı böyük diplomatik uğurlara imzasını atdı. Xalq–Ordu–Hakimiyyət vəhdəti 44 günlük müharibədə, ardınca 23 saatlıq antiterror tədbirlərində Azərbaycanın ərazi bütövlüyünü və suverenlyini bərpa etdi. Biz dünya güclərinin müqaviməti qarşısında milli maraqlarımızı müdafiə etməyin mümkün və zəruri olduğunu hamıya nümayiş etdirdik.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** ATƏT-in keçirdiyi toplantıların heç birinin Qarabağ münaqişəsinin həlli yönündə zərrə qədər də faydası olmadığını dedi: “Bu qurumun qəbul etdiyi müxtəlif qərar



və qətnamələr problemin həllini sürətləndirməyib, əksinə, irəliyə yeriməsinin qarşısına sədlər çəkib. Elə 1996-cı ildə Lissabon Sammitində qəbul olunmuş bəyanatda Ermənistanın işğal etdiyi ərazilərdən çəkilməsi tələbi qoyulmuşdu. Amma o bəyanatın rəsmi İrəvana heç bir təsiri olmadı. Minsk qrupuna təyin olunmuş üç həmsədr bölgəyə turist səfərləri ilə yadda qaldı. Üstəlik, onlar ATƏT-dən kifayət qədər yüksək maaş alırdılar. Misal üçün, 23 il ərzində ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik problemin ölü nöqtədən tərpənməsinə qətiyyən səy göstərmədi. Gəlirdi, yeyib-içib geri qayıdırdı. Hətta onun fəaliyyətindən narazı olan Polşa Xarici İşlər Nazirliyi Kaspşiki geri çağıra bilmirdi. Çünki, o, ATƏT-in kadrı idi, oradan maaş alırdı. İkinci Qarabağ müharibəsindən sonra da həmsədrlər və sədrin şəxsi nümayəndəsi bölgəyə səfərlərini davam etdimək niyyətində idilər. Doğrudur, onların Bakıya gəlmələrinin bir səmərəsi yox idi. Həm də Azərbaycan hakimiyyəti ən yüksək səviyyədə həmsədrlərə layiq olduqları yeri göstərmişdi. Ona görə onlar İrəvana tez-tez baş çəkirdilər. Orada nəyi müzakirə etdikləri anlaşılmırdı.

Hazırda Maltada ATƏT Xarici İşlər Nazirləri Şurasının 31-ci toplantısı keçirilir. Azərbaycan da görüşdə təmsil olunur. Bakının quruma qarşı irəli sürdüyü əsas tələblərdən biri Minsk qrupunun fəaliyyətinin dayandırılmasıdır. Fəaliyyəti dondurulmuş bu qrupa hələ də büdcə ayrılmasını başa düşmək çətindir. Çünki onun otuz ilə yaxın məşğul olması ilə bağlı imitasiyasını yaratdığı Qarabağ münaqişəsi artıq mövcud deyil. Bu problemi Azərbaycan öz gücü ilə həll edib”.

* * *

2020-ci ilin noyabrında 44 günlük müharibə başa çatdıqdan sonra Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dən olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşiki qəbul edərkən bu qurumun 23 ilə yaxın dövr ərzində fayda vermədiyini açıq şəkildə vurğuladı. Bu, həmsədrlərlə, bir növ, vida görüşü idi. Artıq Bakı və İrəvan aralarındakı problemləri müzakirə və həll etmək iqtidarındadırsa, onda Minsk qrupu daxil olmaqla, beynəlxalq vasitəçilərə ehtiyac qalmır. İkitərəfli danışıqlar formatında anlaşma olduğu halda ATƏT-in Minsk qrupunun özünü yenidən meydana atmaq cəhdi “yuyulmamış çömçə” effektindən başqa heç nə deyil. İndi bu qurumun adını eşidəndə keçmiş qaçqın və köçkün soydaşlarımız dilxor olur, yaralı keçmişin xatirələri ürəklərini ağrıdır. Bəli, Minsk qrupu özündə müharibə, işğal, haqsızlıq və ikiüzlülüklə bağlı pis emosiyaları daşıyır. O, Azərbaycan ictimaiyyəti üçün yalan və saxtakarlıq simvoludur. Əslində, bu üzqarasından qurtulmaq ATƏT-in özünün maraqlarına cavab verir.

Azərbaycan Qafqazın problemlərinin “Qafqaz evi”nin sakinləri tərəfindən həll olunmasının vacibliyini dəfələlə irəli sürüb. Bakının gündəmə gətirdiyi ikitərəfli danışıqlar formatından rəsmi İrəvan da məmnun görünür. Bu isə ATƏT-in Minsk qrupu adlı təsisata maliyyə vəsaiti ayırmağa, fəaliyyətdə olan sədrin şəxsi nümayəndəsi Anjey Kaspşikə əməkhaqqı ödəməyə zərurətin qalmadığına dəlalət edir. Bakı ATƏT-in Minsk qrupunun kitabını özü üçün birdəfəlik bağlayıb. İrəvan da bundan sonra o kitabda özü üçün qiraətə yararlı bir şey tapa bilməyəcək. Ona görə səhifələri kiflənmiş, virus mənbəyinə çevrilmiş günahlarla dolu o kitabı nə qədər tez zibil qutusuna atsa, faydasını da tez görər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Maltada erməni “ağlaşması”

**(əvvəli 1-ci səhifədə)**

Yəni, bu, o deməkdir ki, güclü ordu ölkənin və xalqın problemlərini həll etməyəcək. Deməli, “ordu milləti”nə çevrilməyə təhrik edən məzlumluğa “yox” deyilməlidir.

A.Mirzoyanın “Malta manifesti”ndən gəlinən nəticə isə budur ki, rəsmi İrəvan yenə məzlumluq ritorikasına köklənib. Erməni XİN rəhbəri bildirib ki, il ərzində Ermənistan ATƏT-in ontoloji çağırışlarla üzləşməsini təmin etmək, xüsusən, iştirakçı dövlətlər arasında etimad və əməkdaşlıq yaratmaq səylərinin təşviqi, erkən xəbərdarlıq və münaqişələrin qarşısının alınması vasitələrinin sürətli tətbiqinə çağırmaq üçün bütün səyləri göstərib: “Təəssüf ki, hamımız həm kollektiv, həm də fərdi şəkildə öz səylərimizdə uğursuzluğa düçar olduq”.

Ardınca isə Mirzoyan deyib ki, Ermənistan uzun müddətdir ATƏT-in bütün məsuliyyət zonasında öz prinsiplərinin tam tətbiqini, güc yolu ilə bağlı ilkin xəbərdarlıq əlamətlərinin mövcudluğunu, çevik və qətiyyətli hərəkətlərə çağrılmasını müdafiə etsə də, təşkilatın münaqişələrin qarşısının alınması mexanizmləri və alətləri hərəkətsiz qalmaqda davam edir: “Lakin tənqidimiz yalnız o kontekstdə qəbul edilməlidir ki, biz başqa heç bir şəraiti nəzərə almadan, öz mandatlarına, öhdəliklərinə və prinsiplərinə ciddi şəkildə əməl edən effektiv təhlükəsizlik təşkilatına malik olmaq istəyirik”.

Göründüyü kimi, Mirzoyan ATƏT-in tədbirində ağlamaqla məşğuldur. Məlumdur ki, Ermənistanın qlobal təhlükəsizliklə heç bir əlaqəsi yoxdur. Yəni, ölkə o statusda deyil ki, məsələdən söz açsın. Onun yalnız öz qayğısına qalması lazımdır. Ancaq Mirzoyanın nəzərində çarə tapmağın yolu ağlaşma qurmaqdan keçir. Birbaşa açıqlamasa da, nazirin nə demək istədiyi bəllidir və “təhlükəsizlik səylərinin uğursuzluğa düçar olması” məntiqi ATƏT-in Azərbaycana qarşı heç bir tədbir görməməsinin, daha doğrusu, görə bilməməsinin subliminal mesajıdır. Başqa sözlə desək, Mirzoyan qurumu effektivsizlikdə qınayır. Sən demə, Ermənistan güc tətbiqinin mövcudluğuna dair xəbərdarlıqlar edibmiş, təşkilat buna məhəl qoymayıbmış. Yenə hədəfin Azərbaycan olduğu gün kimi aydındır.

Baxın, erməni nazir “bu gün bütün dünyanın üzləşdiyi çağırışlar bizi sülh və sabitliklə bağlı məsələlərdə ayıq-sayıq olmağa məcbur edir” dedikdən sonra Ermənistanın bütün bunları nəzərə alaraq, Azərbaycanla münasibətlərin tam nizamlanmasına yönəlmiş danışıqlardakı konstruktiv iştirakçılığının davamlılığını diqqətə çatdırır. Deməli, “sözünün mustafasını” açıqlayır və bir daha ayının min oyununun bir armudun başında olduğu ortaya çıxır.

Əlbəttə, ikitərəfli danışıqların sərhədlərin demarkasiyası qaydalarının müəyyənləşməsi seqmenti müsbət haldır. Amma Mirzoyanın burada əsas kimi 1991-ci il Alma-Ata Bəyannaməsinin qəbul edildiyini bildirərək, sənədi ehkamlaşdırması yolverilməzdir. Çünki bəyannamənin əsas kimi götürülməsi hələ heç də o demək deyil ki, sərhədin bütün tərəflərinin müəyyənləşməsində ondan istifadə şərtdir. Başqa sözlə desək, Mirzoyanın “bu sənəd prosesin səmərəli davam etdirilməsinə zəmin yaradacaq və bununla da regionda sabitliyin bərqərar olmasına mühüm töhfə verəcək” fikri mənasızdır. Həm də ona görə ki, o, demarkasiya işlərinin cəmi 12 kilometrlik ərazidə aparıldığını vurğulayır. 12 kilometrlik ərazidə sərhəd xətti dəqiqləşib, ancaq hay cəmiyyətində isteriya formalaşıb. Gör, başqa hissələrdə iş aparılsa, Ermənistandakı revanşist və şovinist kəsim hansı oyunu çıxarar? Belə olan təqdirdə, erməni iqtidarı bir sənədə köklənməkdənsə, gərək iradə nümayiş etdirib demarkasiyaya qarşı çıxan mənfi meyillərə cəbhə açsın? Açırmı? Əlbəttə ki, yox!



Həm axı sülhün yalnız sərhədlərin delimitasiyası və demarkasiyası məntiqi yoxdur. İstər Mirzoyan, istərsə də digər erməni rəsmiləri bu məqamı ciddi şəkildə nəzərə almalıdırlar. Onlar düşünməlidirlər ki, Ermənistan otuz ilə yaxın müddətdə hazırda barəsində söz açılan Alma-Ata Bəyannaməsini heçə sayıb, Azərbaycanın torpaqlarını işğal altında saxlayıb. Belə olan halda, Paşinyanın “Real Ermənistan” nağılı da əhəmiyyətini itirməkdədir. Axı Qarabağ avantürası reallığın nəzərə alınmamasından qaynaqlanmışdı. Ermənistan hakimiyyəti bunun hansısa cəzasının olmayacağını düşünürsə, yanlış yoldadır. Cəza ölkəmizin şərtlərini qəbul etməkdir. Azərbaycan isə sülhün başlıca şərti kimi Ermənistan konstitusiyasının dəyişdirilməsində, ümumən, onun dövlət sənədlərindən qonşu ölkələrə, o cümlədən, özünə qarşı ərazi iddialarının çıxarılmasında israrlıdır. Rəsmi İrəvan buna gedirmi? Böyük ölçüdə, xeyr! Deməli, sülh üçün təminat da vermir.

Bəli, məhz buna görə Mirzoyanın ATƏT tribunasından Ermənistanın sülh sazişini imzalamaq və Cənubi Qafqazda düşmənçilik səhifəsini bağlamaq barədə danışmasında heç bir gerçək mahiyyət yoxdur. Üstəlik, erməni iqtidarı və onun xaricdəki havadarları anti-Azərbaycan ritorikasını bütün beynəlxalq tribunalara daşımaqdan qalmırlar. Əlbəttə, paralel şəkildə erməni avantürasının özünə də siyasi sərmayə yatırırlar. Mirzoyan da Maltada bu barədə söz açdı və “Dünyanın kəsişməsi” təşəbbüsü üzərində dayandı. O təşəbbüs ki, Azərbaycanın Zəngəzur dəhlizi ideyasına, yəni Naxçıvana yolun “Azərbaycandan – Azərbaycana yol” məntiqinə ziddir.

Qərbin Ermənistanın siyasi gündəminə sırıdığı “Dünyanın kəsişməsi” region ölkələri arasında etimadı artırmaq, bütövlükdə, etimad mühitini gücləndirmək və daha səmərəli qarşılıqlı əməkdaşlığı stimullaşdırmaq üçün potensial vəd etmir. Əksinə, durumu mürəkkəbləşdirir. Çünki Ermənistanı mühüm kommunikasiya habının başlıca fiquru qismində göstərir. Bu göstəricidə ölkə Cənubi Qafqazdakı qlobal rəqabətin episentri kimi çıxış edir, region dövlətlərinin və regiona tarixən bağlı tərəflərin “damokl qılıncı”na çevrilir. Rəsmi İrəvan hazırda mövcud istiqamətdə əlindən gələni etməkdə, Qərbin forpostu kimi davranmaqdadır ki, gələcəkdə bölgədəki hər şey ondan asılı duruma düşsün.

Əvvəldə də bildirdik ki, Ermənistan hakimiyyəti ölkənin təhlükəsizliyinin konkret nədən asılı olduğunun yaxşı fərqindədir. Zamanında, dəqiq desək, 1996-cı ildə hayların birinci prezidenti Levon Ter-Petrosyan da vurğulamışdı ki, Azərbaycan və Türkiyə ilə münasibətlər normallaşmayınca, Ermənistanın müstəqil dövlət kimi mövcudiyyəti sual altındadır. Üzərindən otuz ilə yaxın zaman keçməsinə baxmayaraq, ölkənin qarşısında duran başlıca təhlükəsizlik çağırışı məhz L.Ter-Petrosyanın dilə gətirdikləridir. Azərbaycanla bağlı durumdan söz açdıq. Mirzoyanın ATƏT-in tribunasında çıxışı zamanı toxunduğu Türkiyə – Ermənistan münasibətlərinə gəldikdə, məsələnin xeyli dərəcədə Ermənistanın Azərbaycanla münasibətlərindən asılılığını yada salmalıyıq.

Erməni iqtidarı isə Ankara – İrəvan əlaqələrinə ayrıca yanaşma xətti götürür ki, bu, son dərəcə yanlışdır. İstər Mirzoyan, istərsə də başqa erməni rəsmiləri fundamental siyasi-regional postulatın nədən ibarət olduğunu nəzərə almalı, Türkiyə – Ermənistan əlaqələri baxımından hansısa fərqli rakus uydurmağa və onu beynəlxalq ictimai rəyə daşımağa çalışmamalıdırlar. Bilməlidirlər ki, bu cür fəaliyyət son dərəcə ziyanlıdır, səmimiyyətdən uzaqdır və ən başlıcası etimad quruculuğu tədbirlərinə zərbədir. Digər tərəfdən, yaxşı olar ki, rəsmi İrəvan Qərbin bəzi dairələrinin anti-Türkiyə ritorikasının alətinə çevrilməyə də qol çırmamasın, yeri gəldi-gəlmədi Türkiyənin adını çəkməklə onun da konstruktivlikdən uzaqlığına dair subliminal mesajlar verməkdən çəkinsin.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Dünya soydaşlarımızın qayıdış hüququnu dəstəkləyir

(əvvəli 1-ci səhifədə)

Bu çağırış təkcə Ermənistana deyil, fransız emissarlarının idarə etdiyi, onların “xidmətləri” sayəsində türkofobiya və islamofobiya silahına çevrilmiş UNESCO-nun özünə ünvanlanıb. Son otuz ildə erməni işğalçıları tərəfindən Azərbaycanın tarix və mədəniyyət abidələrinin dağıdılması ilə bağlı UNESCO-nun necə susduğunu xatırlatmağımız kifayətdir. Qərbi Azərbaycan İcması üzvlərinin öz doğma torpaqlarına qayıtmaq hüquqlarını təmin etmək üçün beynəlxalq hüquq normalarına uyğun olaraq dünya ictimaiyyətinin sülh təşəbbüslərini dəstəkləməsi son dərəcə vacibdir.

Bu məqamda oxuculara maraqlı xatırlatma: Beynəlxalq ictimaiyyət artıq Qərbi azərbaycanlıların probleminə diqqət yetirməyə başlayıb. Bu faktı BMT-də İrqi Ayrı-seçkiliyin Aradan Qaldırılması üzrə Komitənin 114-cü sessiyası çərçivəsində bu yaxınlarda baş vermiş insident də təsdiqləyib. Ermənistanın dövri hesabatını diqqətə çatdıran məruzəçi Yonq Siq Yuen bu ölkədə irqçi təşkilatları və həmin təşkilatlarda iştirakı cinayət hesab edən qanunvericiliyin olmamasından narahatlığını bildirib. O, son vaxtlar Ermənistanda etnik nifrət zəminində baş verən cinayətlərdən danışıb. Komitənin üzvü Çunq Çinsunq isə rəsmi İrəvanın hesabatında Azərbaycanla bağlı şübhəli iddiaların yer almasından çaşdığını deyib. Bu da feyk-informasiyaya söykənən hay saxtakarlığının BMT-nin komitəsi səviyyəsində ifşası.

*

Konfransda çıxış edən Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərli son vaxtlar bir sıra xarici ölkələrin parlamentlərində və digər formatlarda Qarabağdan könüllü köçüb getmiş ermənilərin qayıdışı məsələsindən ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışıldığını nəzərə çatdırdı. Onun fikrincə, Qərbi Azərbaycana qayıdışa dair fəaliyyət özlüyündə haqq-ədalət məsələsi olmaqla yanaşı, hayların bu cür qeyri-sağlam cəhdlərinin qarşısını almaq üçün də əhəmiyyət kəsb edir.

Dünya artıq gözlərini və qulaqlarını reallığın üzünə bağlamamalıdır. Konfransda



iştirak edən xarici qonaqların vurğuladığı əsas tezislərdən biri bu idi. “BMT, Avropa Şurası və digər beynəlxalq təsisatlar Qərbi azərbaycanlıların səsini dünyaya eşitdirməlidirlər”. Bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım Qərbi Azərbaycan İcmasının təşkil etdiyi beynəlxalq konfrans çərçivəsində “Ədalət, insan təhlükəsizliyi və əmlakın geri qaytarılması” mövzusunda keçirilən panel sessiyada deyib.

Çıxışında bu məsələyə toxunan Türkiyənin NATO Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri, sabiq xarici işlər naziri, deputat Mövlud Çavuşoğlu qayıdışın torpaq deyil, insan haqları məsələsi olduğunu bildirdi: “Ermənistanın ərazi bütövlüyünə tam hörmətlə yanaşılsa da, rəsmi İrəvan səmimi müraciətlərə hələ də cavab vermir. Ermənistanın Qarabağı işğal etməsi böyük ağrılara səbəb olub. Bir milyondan çox azərbaycanlı yurd-yuvasından məcburi çıxarılıb, onların doğma torpaqlarına qayıtması təmin olunmalıdır”.

*

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **politoloq Yeganə Hacıyeva** bu məsələnin aktuallığını şərtləndirən amillərdən danışdı: “Təxminən ilyarımdır ki, biz separatçıların təhriki ilə Qarabağı tərk etmiş ermənilərin geri dönüşü ilə bağlı İrəvanın müxtəlif təşəbbüslərini müşahidə edirik. Bu zaman onlar fundamental insan



hüquqlarının qorunması, yaşamaq haqqının tanınması kimi mülahizələrdən çıxış edirlər. Guya, Qarabağ erməniləri doğulduğu və yaşadığı “dədə-baba” torpaqlarına qayıtmalıdır. Bəli, hər bir insanın anadan olduğu və ata-babasının dəfn olunduğu yerə qayıtmaq hüququ var. Azərbaycan bu məsələdə beynəlxalq hüququn müəyyən etdiyi insan haqları prinsiplərini dəstəkləyir. Digər bir məqam ondan ibarətdir ki, Ermənistan hakimiyyəti, xaricdəki erməni diasporu etnik ermənilərin Qarabağa qayıdışını tələb edən bəyanatlar yayanda, məsələni əllərində siyasi bayrağa çevirəndə heç Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarını yada salmırlar. Yəni, onlar bütün bu “təşəbbüsləri” birtərəfli qaydada aparırlar. Amma beynəlxalq hüquq bu təməl haqlara milli, dini, etnik yanaşmanı tanımır. Açıq demək lazımdır ki, ermənilər məhz xristian olduqlarına görə onların geri qayıdışını dəstəkləyən qüvvələr soydaşlarımızın hazırda Ermənistan adlanan Qərbi Azərbaycana qayıdış haqqını görməzdən gəlirlər. Bu isə məhz milli, dini mənsubiyyətə söykənən yanlış və qərəzli yanaşmadır”.

Y.Hacıyeva hesab edir ki, istər beynəlxalq hüquq, istərsə də bəşəri prinsiplər nöqteyi-nəzərindən məsələyə selektiv yanaşma qəbul edilmədiyi üçün beynəlxalq mexanizmin tətbiqinin bir cinahı da haqqı tapdanan soydaşlarımızla bağlı olmalıdır: “Yəni, bu proses paralel şəkildə getməlidir. Bu zaman beynəlxalq hüququn və ədalətin təmin edilməsi, ümumilikdə, regional təhlükəsizlik üçün də sağlam zəmin formalaşdırır. Məlum konfransa müraciətində Azərbaycan Prezidenti Ermənistanı məsələyə məhz bu cür sağlam mövqedən yanaşmağa çağırdı. Bəli, Qərbi azərbaycanlıların haqqının təmin edilməsinə beynəlxalq ictimaiyyət də öz töhfəsini verməlidir”.

Azərbaycan Prezidenti İlham Əliyev tədbir iştirakçılarına müraciətində xalqımızın zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdıran konfransın yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəyinə əminliyini ifadə edib.

Bakı bu məsələdə də İrəvanı dialoqa dəvət edir. Amma təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış şovinizm, nifrət hissi, mifik “böyük Ermənistan” xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında arzuedilən sülhün əldə olunmasını əngəlləyir.

*

Dünən öz işini başa çatdıran “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda II Beynəlxalq Konfransın yekun sənədi qəbul edilib. Sənəddə deyilir ki, aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 200-dən artıq iştirakçı Ermənistandan məcburən çıxarılmış azərbaycanlıların qayıdış məsələsini və qlobal miqyasda məcburi köçkünlük problemini müzakirə etdilər. İştirakçılar vurğuladılar ki, qayıdış hüququ beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunmuş və təməl insan hüququ kimi tanınır. Onlar qayıdış hüququnun əsasları arasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt, Pinheiro Prinsipləri və beynəlxalq adət hüququnu qeyd etdilər.

Konfrans iştirakçıları qayıdış hüququnu regional sülh və ədalətin əsas prinsipi kimi qəbul etməkdə qərarlı olduqlarını təsdiqlədilər. Onlar Qərbi azərbaycanlıların sülh, təhlükəsizlik və ləyaqətlə geri dönüşünün yalnız siyasət prioriteti deyil, həm də insan hüquqları və ləyaqətin təmin edilməsinə kollektiv qətiyyətin sınağı olduğunu vurğuladılar. Çıxışçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq hüququn aliliyinin təmin olunması, qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, azad olunmuş ərazilərin bərpasında liderliyini və ədalət və barışıq istiqamətindəki səylərini yüksək qiymətləndirdilər. Onlar, həmçinin Qərbi Azərbaycan İcmasının insan hüquqları və beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə təhlükəsiz və ləyaqətli qayıdış səylərinə dəstək ifadə etdilər.

Yekun sənəd bu sözlərlə bitir: “Bu xülasə konfrans zamanı qaldırılmış əsas məqamları əks etdirir və Ermənistandan məcburi köçürülmüş azərbaycanlılar üçün ədalətin, eləcə də bölgədə sülh, təhlükəsizlik və barışığın təşviq edilməsinə xidmət edir".

***İ.HƏSƏNQALA***
***XQ***

---

# Diplomat, yoxsa casus?!

**Şərqlə Qərbin kəsişməsində, mühüm geosiyasi mövqedə, eləcə də tarixən formalaşmış əhəmiyyətli nəqliyyat yollarının üzərində yerləşən Azərbaycanın dünyada rolu, önəmi və nüfuzu gündən-günə artır. Eyni zamanda, ölkəmiz iqtisadi cəhətdən də qüdrətli dövlətə çevrilib. Paytaxtımızda tez-tez keçirilən mötəbər beynəlxalq tədbirlər dövlətimizin nüfuzunun yüksəlməsinin daha bir göstəricisidir.**

Noyabrın 11-22-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un uğurla keçirilməsi də ölkəmizin siyasi nüfuzunun yüksəlməsinə daha bir töhfə oldu. Yeri gəlmişkən, qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilər də bu cür tədbirlərin ünvanına çevrilib. Birmənalı şəkildə demək mümkündür ki, Azərbaycan son illərdə regional miqyasdan çıxaraq qlobal aktora çevrilib.

Lakin bu uğurları gözü götürməyən, ölkəmizə qısqanclıqla yanaşan qüvvələr də iş başındadırlar. Onlar daxildə qarışıqlıq salmaq cəhdlərindən bir an da olsun əl çəkmirlər. Hər dəfə uğursuzluğa düçar olmalarına, necə deyərlər, oxlarının daşa dəyməsinə baxmayaraq, onlar yenə də öz əməllərindən əl çəkmir, bədxah fəaliyyətlərini davam etdirirlər. Müstəqillik dövründə, xüsusilə 2000-ci illərdən etibarən xarici qüvvələr dəfələrlə Azərbaycanda “narıncı inqilab” etməyə cəhd ediblər. Təəssüf ki, daxildəki bir qrup insan onların oyunlarında alətə çevrilib.

Heç kəsə sirr deyil ki, bəzi Qərb ölkələrinin Azərbaycandakı səfirlikləri öz dövlətlərinin müvafiq qurumlarından aldıqları təlimata uyğun olaraq daxildə qarışıqlıq salmaq işində mühüm rol oynayırlar. Söhbətin hansı ölkələrdən getdiyi də oxucular üçün sirr olmamalıdır. Avropa İttifaqına üzv olan bəzi ölkələrin, ABŞ-nin səfirlikləri rəsmi tədbirlərdə tərəfdaşlıqdan, əməkdaşlıqdan dəm vursalar da, gizli şəkildə radikal müxalifətə, bəzi ictimai-siyasi fəallara, müxtəlif QHT rəhbərlərinə, hüquq müdafiəçiləri və vəkillərə təlimatlar verirlər. Onların təlimatına, ayırdıqları qrantlara uyğun olaraq, həmin qüvvələr daxildə nifaq salmaqla məşğuldurlar.

Eyni zamanda, bəzi Qərb ölkələrinin səfirlikləri zaman-zaman ölkəmizə diplomat adı altında xüsusi xidmət orqanları əməkdaşlarını da göndərirlər. Yeri gəlmişkən, qeyd edək ki, bununla da onlar “soyuq müharibə” dövründə formalaşmış məlum ənənədən əl çəkmək niyyətində olmadıqlarını ortaya qoyurlar. Həmin dövrdə casuslar “diplomatik örtük” altında gizlənirdilər. Ancaq bir neçə həftədən sonra SSRİ-nin dağılmasının 33-cü ilinin tamam olmasına, “soyuq müharibə”nin başa çatmasına baxmayaraq, Qərbin xüsusi xidmət orqanlarının iş üslubunun dəyişmədiyi aydın olur. Bu iş üslubunun “üstünlüyü” ondadır ki, diplomatik orqan əməkdaşının casusluqla məşğul olduğunu ifşa edən tərəfin əlində konkret sübutlar olsa belə, o, ən pis halda “persona non qrata” (arzuolunmaz şəxs–S.H.) elan olunur və ölkədən çıxarılır. Yəni, diplomatik immunitet müvafiq ölkənin xeyrinə casusluqla məşğul olan şəxsin həbsinə imkan vermir. “Diplomatik örtüyü” olmayan kəşfiyyatçının isə güzəşt şansı yoxdur. Buna görə də Qərb dövlətləri diplomat adı altında ölkələrə xüsusi xidmət orqanları əməkdaşlarını yerləşdirirlər.

Qeyd etdiyimiz kimi, Azərbaycan da müxtəlif dövlətlərin ciddi şəkildə maraq dairəsinə daxildir. Bu məqamda 2023-cü il dekabrın 4-də casusluqda şübhəli bilinən Fransa vətəndaşı Martin Rayanın həbsini xatırlatmaq yerinə düşər. Azərbaycan tərəfi onun Fransanın Bakıdakı səfirliyində işləyən fransız Xarici Kəşfiyyat Xidməti – DGSE-nin əməkdaşları ilə əlaqədə olduğunu müəyyən edib. Dekabrın 26-da Fransa səfiri Ann Buayon Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb və ona “Fransa diplomatik missiyasının iki əməkdaşı”na Azərbaycan hökuməti tərəfindən “persona non qrata” elan edilməsi barədə məlumat verilib. Həmin şəxslərə 48 saat ərzində Azərbaycan ərazisini tərk etmələri barədə göstəriş verilib və Fransa səfirinə Xarici İşlər Nazirliyindən müvafiq nota verilib.

ABŞ səfirliyi də bu baxımdan istisna deyil. Onların “casus vasitələri” onilliklər ərzində dəyişmir. Bura radikal müxalifətin fəaliyyətini kurasiya etmək, “humanitar məsələlər və yardım”, “regionlarda gənclər üçün təlimlər və onların aktivləşdirilməsi”, “feministlər” və sair daxildir. Qeyd etdiyimiz kimi, ABŞ səfirliyinin bu istiqamətdəki səyləri 2003-cü ildən etibarən hər zaman boşa çıxıb. Ancaq bu, Azərbaycanda vəziyyəti, belə demək mümkünsə, daxildən sarsıtmaq cəhdlərindən əl çəkmək demək deyil. Birləşmiş Ştatların səfirliyi də bu “aksiyada” fəal rol oynayır.

Bu istiqamətdə caliber.az saytında yerləşdirilmiş material diqqəti cəlb edir. Bildirilir ki, redaksiyaya məlumatlı mənbələrdən daxil olan mötəbər informasiyaya görə, ABŞ səfirliyində Azərbaycan müxalifətinin və özünü müstəqil adlandıran medianın fəaliyyətinə diplomatik nümayəndəliyin siyasi istiqamətinə cavabdeh olan əməkdaş **Diana Braun** nəzarət edir. O, faktiki olaraq, bu qüvvələrin kuratorudur. Braun 1973-cü ildə Ukraynada anadan olub. Daha sonra ABŞ-a miqrasiya edib və orada vətəndaşlıq alıb. Onun haqqında açıq mənbələrdən aşağıdakı məlumatlar məlumdur: Braun 2013-2015-ci illərdə Narkotik maddələrin beynəlxalq dövriyyəsinə qarşı mübarizə və hüquq-mühafizə



fəaliyyəti bürosunda, 2016-2018-ci illərdə Varşavadakı ABŞ səfirliyində, 2018-2019-cu illərdə ABŞ-nin Əfqanıstandakı səfirliyində, 2019-2020-ci illərdə Vaşinqtonda Çoxtərəfli əlaqələr ofisində iqtisadi mütəxəssis, 2022-2023-cü illərdə “Google” şirkətində, 2023-2024-cü illərdə isə Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri Bürosunda işləyib. 2024-cü ildən ABŞ-nin Bakıdakı səfirliyində siyasi məsləhətçidir. İngilis dilindən əlavə Azərbaycan, fars, polyak, rus və Ukrayna dillərini sərbəst bilir. Braunun maraq dairəsinə Rusiya, Ukrayna, Cənubi və Şərqi Avropa, Yaxın Şərq kimi ölkə və regionlar daxildir.

Doğrudur, sayt prokuror rolunda çıxış etmir və Braunu Amerika kəşfiyyat xidmətlərində işləməkdə ittiham etməyə və ona “casus” damğası vurmağa tələsmir. Hərçənd, bəzi məlumatlara görə, onun Federal Təhqiqatlar Bürosunda (FBI) 8 illik iş təcrübəsinin olduğu qeyd edilir. Eyni zamanda, bildirilir ki, rəsmi vəzifəsi “ABŞ səfirliyinin siyasi müşaviri” olan Braun Azərbaycanın müxalif media resurslarının və vətəndaş cəmiyyəti üzvlərinin maliyyələşdirilməsi prosesində fəal iştirak edir. Onun işlədiyi şəxslər arasında bir müddət əvvəl barəsində həbs qətimkan tədbiri seçilmiş aktivist Rüfət Səfərov da var. Bu səbəbdən bir sıra Qərb səfirlikləri və beynəlxalq təşkilatlar dərhal Səfərovun müdafiəsinə qalxıblar. Yeri gəlmişkən, məhz D.Braun ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenlə görüş üçün Səfərovun seçilməsinin təşəbbüskarı olub. Bundan sonra aktivist yeni “müxalifət lideri” kimi tanıdılmalı idi. Ancaq məlum olduğu kimi, Səfərov məişət zəminində baş vermiş insidentə görə həbs edildi və onun okeanın o tayına getmək istəyi uğursuzluğa düçar oldu.

Eyni zamanda, D.Braun fəalların köməyi ilə Azərbaycanın müxtəlif məmurları haqqında mənfi məlumatlar toplamaqla məşğuldur. Güman etmək olar ki, bu cür fəaliyyətlər məqsədsiz deyil. Məqsəd bu məlumatların Vaşinqtona faydalı olan müəyyən qərarların qəbul edilməsinə təsir göstərmək naminə bayağı şantaj, habelə ictimai rezonans yaratmaq, ölkədə müxalif əhval-ruhiyyəni qızışdırmaq üçün səfirliyin nəzarətində olan mediaya ötürülməsi ola bilər.

Onu da bildirək ki, dekabrın 4-də ABŞ, Böyük Britaniya, İsveçrə və Avropa İttifaqının Azərbaycandakı səfirlikləri onlarla əməkdaşlıq edən yerli hüquq müdafiəçiləri, mətbuat nümayəndələri, hüquqşünaslar və ictimai fəalların iştirakı ilə qəbul təşkil ediblər. BMT Baş Assambleyasının 1948-ci il dekabrın 10-da Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul etməsi münasibətilə 1950-ci ildən başlayaraq hər il dekabrın 10-u qeyd edilən Beynəlxalq İnsan Hüquqları Günü təşkil olunan qəbulda ABŞ səfiri Mark Libbi də çıxış edib. O, “fundamental azadlıqlarından istifadə etdiklərinə görə” həbs olunanların hamısının azadlığa buraxılmasına çağırış edib.

Elə həmin günün axşamı Azərbaycan Xarici İşlər Nazirliyi açıqlama yayaraq, səslənən bəyanatları qətiyyətlə rədd etdiyini bildirib. “ABŞ, Böyük Britaniya, İsveçrə və Avropa İttifaqı səfirlərinin Azərbaycanda “jurnalistlər” və “siyasi fəallar”ın saxlanılması ilə bağlı iddialarını qətiyyətlə rədd edirik. Bu bəyanatlar Azərbaycan məhkəmə sisteminin müstəqilliyinə açıq şəkildə zərbə vurmaq cəhdidir” – deyə XİN bildirib. Vurğulanıb ki, istintaqın gedişinə və məhkəmə prosesinə müdaxilə hüquqi dövlətin təməl prinsipi olan qanunun aliliyi ilə ziddiyyət təşkil edir.

Bu tədbirdən bir gün öncə – dekabrın 3-də isə səfir Libbi səhhətinə görə diplomatik xidmətdən istefa verdiyini elan edib. Yaxşı olardı ki, o, Azərbaycanı tərk edərkən əməkdaşı D.Braunu özü ilə birgə vətəninə aparsın. Çünki Azərbaycan dövləti onunla maraqlansa, xanım Braunun hərəkətlərinin “Diplomatik əlaqələr haqqında” 1961-ci il Vyana Konvensiyasının müddəalarına uyğunluğu ilə bağlı məntiqi sual yaranacaq. “Persona non-qrata” elan edilməkdənsə, könüllü şəkildə getmək daha yaxşıdır. Əgər xanım Braun buna baxmayaraq Azərbaycanda qalmaq qərarına gəlsə və gördüyü işləri davam etdirsə, o zaman onun fəaliyyətinə ölkədən xaricedilmə ilə son qoyula bilər.

**Bu istiqamətdə fikirlərini öyrəndiyimiz politoloq İlyas Hüseynov** bildirdi ki, adətən, Qərbin müxtəlif dövlətlər daxilində öz planlarını reallaşdırmaq cəhdləri hər bir vasitə ilə həyata keçirilir. Qərb bəzi ölkələrdə silahlı qrupları dəstəkləyir, bəzi ölkələrə qarşı informasiya müharibəsi aparır, bəzən də səfirliklərdən baza kimi istifadə edir: “Aydındır ki, bu, milli təhlükə-



sizliyin sarsıdılması, dövlətin təməl sütunlarının laxladılması üçün fəaliyyətdir. Biz bu hibrid texnologiyaları və dövlətin daxili işlərinə qarşımaq cəhdlərini aydın şəkildə görürük. Buna qədər də müvafiq dövlət orqanları Fransanın xüsusi xidmət orqanlarına bağlı ayrı-ayrı şəxsləri ifşa edib, onlar “persona non qrata” elan olunub. Səfir XİN-ə dəvət edilib, ona etiraz notası verilib. Ötən il bu vaxt baş verənlər Fransa dövlətinin məkrli niyyətinin ifşası kimi yadda qalmışdı. Daha sonra biz gördük ki, Azərbaycanın uğurlu təhlükəsizlik zirehinin formalaşması və Fransa kəşfiyyatının ölkəmizlə bağlı fəaliyyətinin ifşası Parisdə böyük istefalara gətirib çıxardı. Yəni, bu, Azərbaycan xüsusi xidmət orqanlarının uğurlu cavabı və ölkəmizin təhlükəsizliyinin keşiyində dayanan şəxslərin peşəkarlığının nəticəsi idi”.

Politoloq qeyd etdi ki, eyni zamanda, ABŞ də müxtəlif şəxslər vasitəsilə ölkəmizdə bəzi qüvvələrin maliyyələşdirilməsini öhdəsinə götürür, ayrı-ayrı bank hesabları açılır, xaricdəki bank hesabları bu prosesə cəlb olunur. Ölkəmizdə ayrı-ayrı şəxslərə xüsusi dəstək göstərilir, onlara imtiyazlar, vizalar verilir, səfərləri təşkil olunur. Çirkin məqsədlər bu yolla icra olunmaqdadır: “Diana Braun barədə olan məlumatlar dəqiq formada, dövlətin müvafiq qurumları tərəfindən ifşaedici faktlarla ortaya qoyularsa, hesab edirəm ki, bu ABŞ-nin nəinki regionda, bütün dünyada nüfuzuna mənfi təsir göstərəcək. Lakin Vaşinqton bu fəaliyyətini heç gizlətmir də. Belə hallar yaxın keçmişdə dəfələrlə baş verib. Gürcüstan, Ukrayna, Moldova ərazisində həyata keçirilmiş bu cür pozucu və destruktiv planları hər kəsə bəllidir. Onlar dəfələrlə ifşa olunublar. Ardınca isə müxtəlif şəxslər yarımçıq planların icrasına davam ediblər”.

Müsahibimiz onu da bildirdi ki, D.Braun barədə mediada əksini tapan faktlar əsassız deyil. Yaxşı olardı ki, Vaşinqtonun yeni administrasiyası Bakı ilə səmimi əməkdaşlığa can atsın. Ölkəmizin regionda sülh quruculuğu istiqamətində irəli sürdüyü təşəbbüsləri, dünyada ekoloji tarazlığın qeydinə qalmasını qiymətləndirsin. Pozuculuğa isə adekvat cavab veriləcək.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan parlamentarizmi: tarix və varislik

(əvvəli 1-ci səhifədə)

Üçüncü və dördüncü Dövlət dumaları isə beş il fəaliyyət göstərmişdir. Dövlət dumalarına seçki sistemi hər vasitə ilə müsəlmanların onun işində təmsil olunmasını məhdudlaşdırmağa çalışırdı.

Azərbaycan deputatları Dövlət dumalarının işində fəal iştirak edirdilər. Birinci Dövlət Dumasında Yelizavetpol (Gəncə) quberniyasından olan deputat İsmayıl bəy Ziyadxanovun birinci çıxışını indi də həyəcansız oxumaq olmur. Ziyadxanov çıxışında demişdir: “Artıq bizim üçün də hərəkət etmək vaxtı çatmış və bundan sonra susmamağı qərara almışıq. Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal olunmuşdur. Bu əsr ərzində biz müsəlmanlar əsir kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq. Sözün əsl mənasında yüz il ərzində biz hökumətin şiddətli hücumlarına və böhtanlarına məruz qalmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansına nəzər salsanız, hamısında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi olacaqsınız...”

Azərbaycanın parlamentarizm tarixindən bəhs edərkən bəzən unudulan bir fakta da diqqət yetirmək lazımdır. Burada Müvəqqəti hökumət dövründə (1917, 2 (15 mart)-26 oktyabr (7 noyabr) Müəssislər Məclisinə seçkilər (1917, noyabr) nəzərdə tutulur. Bu seçkilər Azərbaycanda da ictimai-siyasi prosesləri gücləndirdi. Azərbaycanın milli siyasi partiyaları bu seçkilərdə iştirak etməklə böyük siyasi təcrübə qazandılar. Müəssislər Məclisinin ilk iclası 1918-ci ilin yanvarında keçirildi. Lakin bu ilk və son iclas oldu və çevriliş nəticəsində hakimiyyəti ələ alan bolşeviklər tərəfindən ləğv edildi.

Müəssislər Məclisinə seçkilər nəticəsində əldə edilən yerlərin sayı sonralar Zaqafqaziya (Cənubi Qafqaz) Seyminin (1918, 23 fevral – 26 may) formalaşmasında mühüm rol oynadı.

Seym Cənubi Qafqaz dövlətçiliyinin tarixində mühüm yer tutur. Məhz Seym tərəfindən 1918-ci il aprelin 22-də Zaqafqaziya Demokratik Federativ Respublikasının yaranmasını elan etdi. 1918-ci il mayın 26-da Gürcüstanın müstəqilliyini elan etməsi və Seymdən çıxması ilə Zaqafqaziya Seymi dağıldı. Mayın 27-də isə Azərbaycan Milli Şurası yaradıldı. Rusiyanın Müəssislər Məclisinə seçilmiş deputatları Zaqafqaziya Seyminin, Seymin müsəlman fraksiyasının üzvləri isə Azərbaycan Milli Şurasının formalaşmasında əsas rol oynadılar. Azərbaycan Milli Şurası mayın 28-də Azərbaycanın dövlət müstəqilliyini elan etdi. İstiqlaliyyət Bəyannaməsinin altıncı maddəsində deyilirdi ki, “Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurai Milli və Şurai-Milliyə qarşı məsul hökuməti-müvəqqəti durur”. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin siyasi strukturu parlamentli respublika kimi müəyyən edilirdi.





İstiqlal Bəyannaməsinə əsasən, Azərbaycan Milli Şurasının fəaliyyəti dövründə birinci və ikinci hökumət onun tərəfindən təsdiq edildi, dövlət həyatının müxtəlif sahələrinə aid mühüm qərar qəbul edildi. Bununla birgə, istiqlaliyyətin elan edilməsinin ertəsi günü, 1918-ci il mayın 29-da Azərbaycanın tarixi şəhəri İrəvanın ermənilərə verilməsi haqqında faciəli qərar onun tarixi roluna ciddi zərbə vurdu. Bu qərara uyğun olaraq, İrəvan şəhəri Ermənistanın paytaxtına çevrildi, orada yaşayan azərbaycanlıların etnik təmizləməyə və deportasiyaya məruz qalmasına şərait yarandı. Bu acı təcrübə, təəssüf ki, sonrakı tarixi şəraitdə də davam etdirildi. Azərbaycanın Zəngəzur bölgəsinin qərb hissəsi və digər tarixi torpaqlar da ermənilərə verildi.

Milli Şura Gəncədə yaranmış siyasi böhrandan sonra iyunun 17-də fəaliyyətini dayandırdı və beş aydan sonra, noyabrın 16-da yenidən bərpa etdi.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentin Milli Şura formatından klassik parlamentə keçilməsinə ciddi önəm verirdi. Buna görə də 1918-ci il noyabrın 19-da M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın iclası keçirildi və parlamentin yaradılması haqqında qanun qəbul olundu. Parlamentin formalaşdırılmasında əsas kriteriya kimi əhalinin sayı götürüldü. Əhalinin sayına uyğun olaraq, müsəlmanlar 80, ermənilər 21, ruslar 10, digər xalqlar isə 9 deputat verməli idi. Beləliklə, parlamentin 120 nəfər üzvü olmalı idi.

Parlamentin çağırılması üzrə təşkilati tədbirlər başa çatdıqdan sonra, noyabrın 29-da “Bütün Azərbaycan əhalisinə!” müraciətnaməsi (Azərbaycan və rus dillərində) elan edildi. Müraciətdə deyilirdi ki, “Vətəndaşlar! Müharibə və inqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurai – Millisi iqtizai-zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurai-Millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus məxsus olan Şurai-Millinin milli bir şəkildən çıxarıb da dövləti bir şəkilə salmaq oldu...”

Parlamentin ilk iclası, onun stenoqrafik hesabatından göründüyü kimi, 1918-ci il dekabrın 7-də saat 13:25 dəqiqədə Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə tərəfindən açıldı. Rəsulzadə öz nitqinin əvvəlində parlamentin bütün Azərbaycanı təmsil etməsinə, yəni onun legitimliyinə diqqəti xüsusi cəlb edərək demişdir: “Bu gün əqəliyyət təşkil edən millətlərin nümayəndələri ilə qəzaların yeni nümayəndələri dəvət olunmaq üzrə iştə bu məclis təşkil etmişdir. Bu məclis ümumi seçki üsulu ilə toplanaraq Azərbaycan Məclisi-Müəssisanı toplanıncaya qədər məmləkətimizin sahibi olacaq. Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan bu məclis Vətənimizi tamamilə təmsil edə bilər”.

Parlamentin elə ilk iclasında Əlimərdan bəy Topçubaşov onun sədri seçildi. Parlament fəaliyyətə başlayanda Topçubaşovun İstanbulda olması, sonra isə Azərbaycan nümayəndə heyətinin sədri kimi Paris Sülh Konfransında iştirak etməsi ilə əlaqədar olaraq o, parlamentin işində iştirak edə bilmədi. İllər keçdikdən sonra, tam əminliklə demək olar ki, Topçubaşov parlamentin sədri kimi onun işində iştirak edə bilsəydi, nəinki parlamentin, hətta Cümhuriyyətin tarixi yeni nailiyyətlərə şahid ola bilərdi. Parlamentin fəaliyyətinin böyük dövründə onun işinə sədrin birinci müavini seçilən doktor Həsən bəy Ağayev rəhbərlik etmişdir.

Parlamentin fəaliyyətə başlaması Azərbaycanın ictimai-siyasi həyatının mühüm tarixi hadisəsi kimi böyük coşqu ilə qeyd edildi. Bundan sonra parlamentin gərgin fəaliyyəti başlamışdır. Bu fəaliyyətin miqyası haqqında müəyyən təsəvvürə malik olmaq üçün parlamentə dair bəzi statistik göstəricilərə nəzər salmaq lazımdır. Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-də keçirilmiş son iclasınadək 145 iclası keçirilmişdir. Parlamentin tərkibində on bir komissiya fəaliyyət göstərmişdir. Hökumət, parlament fraksiyaları və komissiyaları tərəfindən 270-dən çox qanun layihəsi müzakirəyə çıxarılmış, onlardan 230-a yaxını qəbul edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti o dövr üçün aktual olan bütün vacib məsələlər üzrə qanunlar qəbul etmişdir. Onların içərisində dövlət quruculuğu, ordu, mədəniyyət, elm və təhsil, qaçqınların vəziyyətinin yaxşılaşdırılması və s. sahələrə aid qanunlar (qadınlara seçki hüququnun verilməsi haqqında, mətbuat haqqında, yüz nəfər azərbaycanlı gəncin təhsil almaq üçün xaricə göndərilməsi haqqında qanunlar və s.) mühüm yer tuturdu. Bu qanunların xeyli hissəsi qəbul edildikdən sonra yerinə yetirilmiş, öz dövrünü başa çatdırmışdır. Bununla birgə onların içərisində elə qanunlar da var ki, qəbul edilməsi və həyata keçirilməsi nəticəsində sonrakı tarixi dövrlərdə də davam etməklə parlamentə əbədi abidə rolunu oynadı. Bunların içərisində Bakı Dövlət Universitetinin açılmasını xüsusi qeyd etmək olar. Bakı Dövlət Universitetinin ilk rektoru V.İ.Razumovski xatirələrində yazırdı: “Azərbaycan öz maarif ocağını yaratdı, türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni məşəl yandı.”

Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb beynəlxalq şəraitdə və daxili siyasi gərginlikdə fəaliyyət göstərirdi. Sovet Rusiyasının aqressiv siyasəti və hərbi müdaxilə təhlükəsi getdikcə artırdı. Xüsusi “Bakı əməliyyatı” hazırlanmışdı. 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə Sovet Rusiyasının XI Qırmızı ordusu dövlətin sərhədlərini keçdi. Parlament aprelin 27-də son iclasını keçirdi. İclas saat 20:45-dən 23:25-dək davam etdi. İclasın sonunda yeddi maddədən ibarət qərar qəbul edildi və hakimiyyət müəyyən şərtlər daxilində kommunistlərə verildi. Bu şərtlərin heç biri, demək olar ki, yerinə yetirilmədi.

Azərbaycanda sovet hakimiyyəti quruldu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə parlamentin də həyata keçirilməsini nəzərdə tutduğu tarixi qanunlar qəbul edilməsi mümkün olmadı. Belə ki, 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı tərəfindən Azərbaycan de-fakto tanınmışdı. Parlament bunu nəzərə alaraq, Azərbaycan nümayəndə heyətinin buraxılması və Qərbi Avropa ölkələrində (İngiltərə, Fransa və s.) və ABŞ-də diplomatik nümayəndələr açmaq haqqında qanun qəbul etmişdir, lakin bu qanun yerinə yetirilməmiş qaldı.

Sovet hakimiyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti zamanı əldə edilmiş parlament təcrübəsindən imtina edildi. Tarixdə heç bir ənənəsi olmayan sovet parlamentarizminin formalaşdırılmasına başlandı. Əvvəlcə parlament rolunu sovetlər qurultayları həyata keçirməyə başladı, sonra isə Ali Sovet yaradıldı.

Azərbaycanda yeni, müstəqillik dövrünün tələblərinə uyğun parlamentarizmin yaradılmasını yalnız ulu öndər Heydər Əliyev həyata keçirə bildi. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Milli Məclisinə mojaritar və proporsional sistemlə seçki keçirildi və müstəqillik dövrünün ilk parlamenti formalaşdırıldı. II çağırış Milli Məclisə seçkilər 2000-ci ilin noyabrında oldu. Hər iki parlamentin fəaliyyəti dövründə qanunvericilik sahəsində mühüm yeniliklərə imza atıldı. İnsan hüquqları, sosial-iqtisadi həyat, elm və təhsil, mədəniyyət və digər sahələrə dair əhəmiyyətli qanunlar qəbul edildi. Bununla bərabər, Azərbaycan parlamentinin seçilməsi və fəaliyyətinin daha da demokratikləşdirilməsi istiqamətində işlər davam etdirildi. 2002-ci il avqustun 24-də keçirilən referendum əsasında yalnız proporsional seçki saxlanıldı.

Azərbaycan parlamentarizminin inkişafı sahəsində ulu öndər Heydər Əliyevin xətti Prezident İlham Əliyevin dövründə daha da zənginləşdirildi. Konstitusiyaya uyğun olaraq, Milli Məclisin hər beş ildən bir olmaqla III-VI çağırışları (2005–2020-ci illər) keçirildi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tarixi Qələbə nəticəsində Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və 19-20 sentyabr 2023-cü il tarixli lokal anti-terror əməliyyatı nəticəsində suverenliyin tam bərpası dövlət idarəçiliyində də yeniliklərə yol açdı. 2024-cü il fevralın 7-də yeni prezident seçkiləri keçirildi və İlham Əliyev inamlı qələbə qazandı.

Prezident seçkilərindən sonra Azərbaycanın bütün ərazisində ilk dəfə sentyabrın 1-də VII çağırış Milli Məclisə də seçkilər keçirildi. Uğurla başa çatan seçkilərdən sonra, sentyabrın 23-də Milli Məclisin ilk iclası oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parlamentin açılışında tarixi nitq ilə çıxış etdi. Prezident nitqinin əvvəlində ölkədə keçirilən prezident və parlament seçkilərinin əhəmiyyətini xüsusi qeyd edərək demişdir: “Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu”. Prezident parlamentdə dövlətin qarşısında duran vəzifələri hərtərəfli şəkildə təhlil edərək yeni dövr üçün proqramı müəyyən etdi.

Azərbaycan dövləti və xalqı öz tarixi keçmişinə həmişə yüksək dəyər vermiş, varislik ənənəsini davam etdirmişdir. 1918-ci ildə əsası qoyulmuş Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin tarixi də bu sırada mühüm yer tutur. Ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi haqqında tarixi sərəncamında qeyd olunduğu kimi “1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır”.

**Vasif HƏSƏNOV,**
**Dövlət İdarəçilik Akademiyasının müəllimi**

# Soydaşlarımızın qayıdış hüququna ədalətli təminat

## *Beynəlxalq konfransın yekun sənədi qəbul edilib*

**Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda keçirilən II beynəlxalq konfransın yekun sənədi qəbul edilib.**




Sənəddə konfransda aparılmış müzakirələrin xülasəsi verilir. Konfransın yekun sessiyasında sənədi Polşadan olan iştirakçı, Avrasiya Araşdırmaları Mərkəzinin aparıcı tədqiqatçısı Jakub Voytsex Koreyba oxuyub.

Yekun sənəddə deyilir: “Aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 200-dən artıq iştirakçı “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin olunması” mövzusunda ikinci beynəlxalq konfransda toplaşaraq Ermənistandan məcburən çıxarılmış azərbaycanlıların qayıdış məsələsini və qlobal miqyasda məcburi köçkünlük problemini müzakirə etdilər.

İştirakçılar qeyd etdilər ki, köçkünlük insan hüquqlarının ən ciddi pozuntularından biridir və azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi hələ də həll olunmamış böyük bir ədalətsizlikdir. İştirakçılar vurğuladılar ki, qayıdış hüququ beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunub və təməl insan hüququ kimi tanınır. Onlar qayıdış hüququnun əsasları arasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt, Pinheiro Prinsipləri və beynəlxalq adət hüququnu qeyd etdilər.

İştirakçılar Ermənistanın zorla çıxarılmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri dönməsinə icazə verməkdən imtina etməsindən ciddi narahatlıq ifadə etdilər. Onlar Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) prokurorunu Ermənistanın azərbaycanlıların qayıdışına imkan verməməklə beynəlxalq hüquq və Roma Statutu çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmasını araşdırmağa çağırdılar.

İştirakçılar qayıdış prosesində mülkiyyət hüquqlarının bərpasının vacibliyini vurğuladılar. Onlar Ermənistan hökumətini müsadirə edilmiş və ya zorla ələ keçirilmiş əmlakların geri qaytarılması, məcburi köçkünlük zamanı dəymiş itkilərə görə kompensasiya ödənilməsi və zərərlərin əhatəli şəkildə həll olunması üçün zəruri addım atmağa çağırdılar. Qeyd etdilər ki, kompensasiya köçkünlərin maddi və emosional itkilərini qarşılamaq üçün mühümdür, lakin kompensasiya, ata-baba torpaqlarına qayıdış hüququnun əvəzi kimi və ya onu inkar etmək üçün istifadə edilə bilməz.

İştirakçılar Ermənistanın azərbaycanlıların mədəni irsinin, o cümlədən məscidlərin, qəbiristanlıqların və tarixi abidələrin sistemli şəkildə məhv olunmasından narahatlıq ifadə etdilər. Onlar bunu azərbaycanlı kimliyini silmək cəhdi kimi qiymətləndirərək bu mədəni irsin vəziyyətinin qiymətləndirilməsi, qorunması və bərpası üçün UNESCO-nun və digər beynəlxalq təşkilatların cəlb olunmasına çağırdılar. İştirakçılar mədəni irsin qorunmasının barışıq və anlayış üçün əhəmiyyətini vurğuladılar.

İştirakçılar xatırlatdılar ki, azərbaycanlılar postsovet məkanında etnik münaqişələrin ilk qurbanları olmuş və beynəlxalq ictimaiyyətin yetərsiz reaksiyası digər münaqişələrin yaranmasına gətirib çıxarmışdır. Onlar vurğuladılar ki, Qərbi azərbaycanlıların təhlükəsiz qayıdış hüquqlarının tam bərpası dünyada münaqişələrin həlli üçün müsbət nümunə ola bilər.

İştirakçılar vurğuladılar ki, ədalət barışıq və daimi sülh üçün zərurətdir. İştirakçılar Ermənistanı azərbaycanlılara qarşı cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin şöhrətləndirilməsinə son qoymağa, nifaqı davam etdirən strukturları ləğv etməyə və Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoqa başlamağa çağırdılar. Onlar bildirdilər ki, barışıq üçün Ermənistanın tarixi ədalətsizlikləri aradan qaldırması, birgəyaşayış və inam üçün şərait yaratması vacibdir.

İştirakçılar geri dönəcək Qərbi azərbaycanlıların təhlükəsiz şəkildə qayıtması və qayıdış prosesinin hərtərəfli planlaşdırılması və resursla təmin edilməsi üçün BMT-ni və dünya dövlətlərini diplomatik səylər göstərməyə çağırdılar. İştirakçılar qayıdanların reinteqrasiyası sahəsində gözlənilən çətinlikləri qeyd etdilər və Qərbi azərbaycanlılar qayıdacaq yerlərdə infrastrukturların bərpası, onlara humanitar yardım göstərilməsi və uzunmüddətli inkişaf proqramlarının həyata keçirilməsi üçün əlaqələndirilmiş səylərin vacibliyini vurğuladılar.

Onlar Ermənistan hökumətini regional sülhə mane olan siyasətini və konstitusiya müddəalarını aradan qaldırmağa və iqtisadi və sosial əməkdaşlıq imkanlarını qəbul etməyə çağırdılar. Onlar Ermənistanın öz öhdəliklərinə uyğun olaraq kommunikasiyaları açmasının Cənubi Qafqazda ümumi rifaha və sabitliyə yardım edəcəyini bildirdilər.

İştirakçılar qayıdış hüququnu regional sülh və ədalətin əsas prinsipi kimi qəbul etməkdə qərarlı olduqlarını təsdiqlədilər. Onlar Qərbi azərbaycanlıların sülh, təhlükəsizlik və ləyaqətlə geri dönüşünün yalnız siyasət prioriteti deyil, həm də insan hüquqları və ləyaqətin təmin edilməsinə kollektiv qətiyyətin sınağı olduğunu vurğuladılar.

İştirakçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq hüququn aliliyinin təmin olunması, qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, azad edilmiş ərazilərin bərpasında liderliyini və ədalət və barışıq istiqamətindəki səylərini yüksək qiymətləndirdilər. Onlar, həmçinin Qərbi Azərbaycan İcmasının insan hüquqları və beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə, təhlükəsiz və ləyaqətli qayıdış səylərinə dəstək ifadə etdilər.

Bu xülasə konfrans zamanı qaldırılmış əsas məqamları əks etdirir və Ermənistandan məcburi köçürülmüş azərbaycanlılar üçün ədalətin, eləcə də bölgədə sülhün, təhlükəsizliyin və barışığın təşviqinə xidmət göstərir”.

## Əmlak sığortası vətəndaşı ziyandan qoruyur

**Qış mövsümündə havanın soyuması ilə əlaqədar qaz və elektrik enerjisindən izafi istifadə yanğın risklərini artırır. Qaz sızmaları, elektrik naqillərinin normadan artıq yüklənməsi və qeyri-standart istilik cihazlarından istifadə mənzillərdə və binalarda təhlükəli vəziyyət yarada bilər.**




Baş verən yanğın və digər hadisələr nəticəsində daşınmaz əmlaka dəymiş zərər və maddi itkilər daşınmaz əmlak sığortasının əhəmiyyətini bir daha gündəmə gətirir. Bu barədə İcbari Sığorta Bürosu açıqlama yayıb.

Bildirilib ki, ölkəmizdə daşınmaz əmlakın icbari sığortası əmlakın yanğın və digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədilə tətbiq edilir. "İcbari sığorta haqqında" Qanuna əsasən, Bakı şəhərində yerləşən daşınmaz əmlak üzrə sığorta haqqı 50 manat, sığorta məbləği 25 min manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində yerləşən daşınmaz əmlak üzrə sığorta haqqı 40 manat, sığorta məbləği 20 min manat, digər yaşayış məntəqələrində yerləşən daşınmaz əmlak üzrə sığorta haqqı 30 manat, sığorta məbləği isə 15 min manat təşkil edir.

İcbari Sığorta Bürosunun məlumatına görə, 2024-cü ilin 9 ayında Azərbaycanda daşınmaz əmlakın icbari sığortası üzrə 640 hadisəyə görə sığorta şirkətləri 1 milyon 870 min manat ödəniş edib.

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı olaraq bildiririk ki, yanğın və təbii fəlakətlər gözlənilməz anlarda əmlakınızı təhlükə altına sala bilər. Bu təhlükələrin yarada biləcəyi maddi itkilərdən qorunmaq üçün əmlakın sığortalanması vacibdir. Gələcəyinizi təhlükəsiz etmək üçün əmlakınızı sığortalayın və gözlənilməz hadisələr zamanı özünüzü güvəndə hiss edin", – deyə məlumatda qeyd olunur.

# Azərbaycanın neft hasilatı kvotası dəyişməyəcək



(əvvəli 1-ci səhifədə)

Bununla yanaşı, Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qazaxıstan, Əlcəzair və Omanın 2023-cü ilin aprel və noyabr aylarında elan edilmiş könüllü öhdəliklərinin də davam etdirilməsi razılaşdırılıb. Beləliklə, 8 ölkə tərəfindən 2023-cü ilin aprel ayında elan edilmiş gündəlik 1,65 milyon barel əlavə könüllü öhdəliklər 2026-cı ilin dekabr və 2023-cü ilin noyabr aylarında elan edilmiş gündəlik 2,2 milyon barel əlavə könüllü ixtisarlar isə 2025-ci ilin martın sonuna qədər qüvvədə qalacaq. Bu ölkələrin 2,2 milyon brellik ixtisarları 2026-cı ilin sentyabrın sonuna qədər aylıq olaraq mərhələli şəkildə ləğv ediləcək.

İclasda iştirakçı ölkələrin hasilatının üç müstəqil mənbə tərəfindən qiymətləndirilməsi müddətinin 2026-cı ilin noyabr ayının əvvəlinə qədər, eləcə də kompensasiyalar üzrə son tarixin həmin ilin iyun ayının sonunadək uzadılması barədə də razılıq əldə edilib.

Energetika naziri Pərviz Şahbazov "OPEC plus" formatında tənzimləmə mexanizminin qlobal neft bazarında sabitliyin qorunub saxlanmasında mühüm rolundan, xüsusilə Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun sədrliyi ilə bu əməkdaşlığın töhfələrindən bəhs edib. Bu təşəbbüsə "Əməkdaşlıq Bəyannaməsi"nin digər ölkələri də qoşulub və bu məqam iclasın yekun sənədində də əks olunub.

İclasda Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin 39-cu görüşünün vaxtı da müəyyənləşdirilib. Nazirlərin ümumi razılığına əsasən, həmin görüş 2025-ci il mayın 25-nə təyin edilib.

Yeri gəlmişkən, energetika naziri Pərviz Şahbazov "OPEC plus" ölkələri nazirlərinin iclasından dərhal sonra "X" sosial şəbəkə hesabında paylaşım edib. 2026-cı ilin sonunadək 39,7 milyon barel həcmində gündəlik xam neft hasil edilməsi ilə bağlı razılaşmanın əldə olunduğunu xatırladan nazir bildirib: "Bu müddətdə Azərbaycanın hasilat kvotası dəyişməz qalacaq. Lakin 8 ölkə 2023-cü ilin aprel ayında elan edilmiş gündəlik 1,65 milyon barel əlavə könüllü öhdəliklərini 2026-cı ilin dekabr və 2023-cü ilin noyabrında elan edilmiş gündəlik 2,2 milyon barel əlavə könüllü ixtisarlarını isə 2025-ci ilin martın sonuna qədər davam etdirəcəklər. Bu ölkələrin 2,2 milyon barellik ixtisarları 2026-cı ilin sentyabrın sonuna qədər aylıq olaraq mərhələli şəkildə ləğv ediləcək".

Nazir paylaşımında "OPEC plus"un bu razılaşmalarının qlobal neft bazarının dayanıqlığının təmin edilməsi və neft sənayesinin davamlı inkişafına dəstək verilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Dekabrın 5-də "OPEC plus" çərçivəsində keçirilən nazirlərin görüşündə çox maraqlı, həm də zamanında yerinə düşən bir qərar verildi. Hər şeydən əvvəl, qeyd etmək istəyirəm ki, bu görüşdə əvvəllər hasilatın azaldılması ilə bağlı verilmiş qərarın ləğv ediləcəyi və dünya iqtisadiyyatının indiki inkişaf tempinə uyğun olaraq hasilatın artırılması ilə bağlı yeni qərarın qəbulu gözlənilirdi. Çünki faktiki olaraq 2016-cı ildən etibarən "OPEC plus" çərçivəsində daim hasilatın artırılmasının qarşısında sədlər çəkilir. Bunun da nəticəsində neft istehsalçıları bazarda özləri üçün məqbul sayılan qiymətləri əldə edirlər.

Hazırda dünyada baş verən hadisələr, o cümlədən okeanın o tayından gələn sədalar və ABŞ-də hakimiyyətin dəyişməsi ilə bazara daha çox neft həcmlərinin təqdim edilməsi təhlükəsi nəzərə alınaraq 2025-ci il aprelin 1-dək bunun daha yumşaq formada tənzimlənməsi ilə bağlı qərar qəbul olundu. "OPEC plus" ölkələri, o cümlədən Azərbaycan hələ bununla da kifayətlənməyərək 2006-cı il oktyabrın 1-nə qədər prosesin, yəni hasilatın tədricən artırılması məsələsinin gündəmdə saxlanması ilə bağlı ümumi razılığa gəldilər.

Nəticə etibarilə bu, neft bazarında öz təsirini göstərir. Belə ki, noyabr ayının 8-dən birjalarda "Brent" markalı neft 71-73 dollar aralığında ticarət edilir. Qeyd etmək istəyirəm ki, neft qiymətləri indiyədək heç vaxt, təqribən, bir ay müddətində belə kiçik bir diapazonda sabitləşməmişdi. Adətən, 5 dollar bahalaşma və ya əksinə, 6 dollaradək ucuzlaşma baş verirdi. Artıq bazar buna öyrəşib. Bu baxımdan da "OPEC plus" çərçivəsində verilən qərar bu gün birjalarda özünü hansısa bir həyəcanlı formada özünü göstərməlidir. Amma yenə də qeyd etdiyimiz müddətdə "Brent" markalı neft 72,12 dollara ticarət edilir. Bu isə bazarlarda qiymət sabitliyini bir daha təsdiq edir.

## KOBİA 79 layihəyə 1,4 milyon manat ayırıb



**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) hər il keçirdiyi qrant müsabiqələri çərçivəsində startaplara və sahibkarların innovasiya, texnologiya və rəqəmsallaşma sahəsində olan layihələrinə maliyyə dəstəyi göstərir. İndiyədək reallaşdırılan qrant müsabiqələri nəticəsində startap və sahibkarların, ümumilikdə, 79 layihəsinin icrasına 1,4 milyon manat maliyyə vəsaiti ayrılıb.**

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən I Caspian İnnovation Forumda çıxışı zamanı daha sonra deyib: "Sahibkarlıq subyektlərinin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili və rəqabət qabiliyyətinin artırılması baxımından elmi yeniliklərin biznesə inteqrasiyası xüsusi önəm kəsb edir. İnnovativ biznes və startap ekosisteminin təkmilləşdirilməsi və inkişaf etdirilməsi əsas prioritet hədəflərindən biridir".

O.Məmmədovun sözlərinə görə, rəqəmsallaşma sahəsində sahibkarların layihələrinin maliyyələşdirilməsi rəqəmsal iqtisadiyyatın inkişafında və innovativ biznes modellərinin həyata keçirilməsində mühüm rol oynayır. Bu prosesi KOBİA bir sıra mexanizmlər və resurslar vasitəsilə gerçəkləşdirir. İndiyədək 182 KOB subyekti "Startap" şəhadətnaməsi alıb.

## Çay: idxal da olunur, ixrac da edilir

**Dövlət Statistika Komitəsinin hesabatına əsasən, bu ilin yanvar–oktyabr aylarında Azərbaycanda 10 min 379 ton çay (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 734 ton və ya 7,6 faiz çox) istehsal olunub.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, hesabat dövründə respublikaya 64 milyon 282 min ABŞ dolları dəyərində 12 min 259 ton çay (əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 5 milyon 835 min dollar və ya 10 faiz, həcm baxımından isə 1037 ton və ya 9,2 faiz çox) gətirilib və ölkənin ümumi idxalının 0,39 faizini təşkil edib.

Eyni zamanda, bu ilin 10 ayında Azərbaycandan 5 milyon 484 min dollar dəyərində 622 ton çay (ötən ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 144 min dollar və ya 2,7 faiz, həcm baxımından isə 36 ton və ya 6,1 faiz çox) ixraca yönəldilib və bu, respublikanın ümumi ixracının 0,02 faizini təşkil edib.

# Naxçıvan Sənaye Parkı regionu yeni inkişaf yoluna çıxaracaq

**Bu gün sənaye sektoru ölkə iqtisadiyyatında mühüm istiqamətlərdən birini təşkil edir. Təsadüfi deyil ki, hazırda milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri də məhz sənaye sektorunun payına düşür. Xüsusilə, ölkəmizdə mühüm prioritet kimi qəbul edilmiş qeyri-neft sektorunun inkişaf etdirilməsi milli sənayedə şaxələndirməni təmin edir, əhali məşğulluğunda məmnunluq yaradır. Bu sahədə diqqət çəkən əsas amillərdən biri də aparılan sənayeləşmə siyasətində qabaqcıl dünya təcrübəsinə istinad olunmasıdır. Ölkəmizdə son illərdə yaradılan sənaye parkları şəbəkəsi də bunu bir daha təsdiq edir.**



Sahibkarlar üçün əlverişliyi təmin edən, investisiya maraqlarını stimullaşdıran bu cür sənaye parkları, sözün əsl mənasında, işləmək istəyənlər üçün əsl fürsət hesab edilir. Çünki sənaye parkları üçün infrastruktur təminatı bir qayda olaraq dövlət vəsaiti hesabına yaradılır, həmçinin sənaye parklarının rezidentləri qeydiyyata alındığı gündən etibarən 10 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, eləcə də gömrük rüsumundan azad olunurlar.

Bununla yanaşı, sənaye parklarında rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir. İş adamları da yaradılan şəraitdən faydalanaraq yeni istehsal sahələrinin yaradılmasına sərmayələr yönəldirlər. Bu baxımdan Prezident İlham Əliyevin Naxçıvan Sənaye Parkının yaradılması haqqında 5 dekabr 2024-cü il tarixli Fərmanı da bu və digər əhəmiyyətli tərəfləri ilə sdiqqət çəkir.

Qeyd edək ki, muxtar respublikanın zəngin faydalı qazıntı yataqları burada bir çox sənaye müəssisələrinin fəaliyyəti üçün mühüm xammal bazasıdır. Təsadüfi deyil ki, hələ sovetlər birliyi dönəmindən muxtar diyarda şüşə qablar, radioelektronika, travertin, xalçaçılıq, alt trikotaj və bir digər sahələr üzrə böyük sənaye müəssisələri fəaliyyət göstərib. Həm aqrar, həm də sənaye istiqamətləri üzrə mövcud potensial muxtar respublikanın yerli istehsalında mühüm rol oynayıb.

Müasir dövrdə isə mövcud potensialdan səmərəli istifadə üçün bir çox rentabelli yollar var ki, onlardan biri də məhz yeni sənaye parklarının yaradılmasıdır. Bu mənada ölkə başçısının muxtar respublika ilə bağlı növbəti fərmanı təqdirolunasıdır. Digər tərəfdən nəzərə alaq ki, ölkəmizdə müasir sənaye parklarının infrastrukturu, burada sahibkarların fəaliyyəti üçün dəstəyönümlü tədbirlərin həyata keçirilməsi kifayət qədər investisiya cəlbediciliyi yaradır ki, bu da iş adamları üçün yeni fürsətlər yaradır. Artıq fərmanda da qeyd olunduğu kimi qısa müddətdə Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili üçün qısa müddətdə ərazinin yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə 2024-cü il dövlət büdcəsindən 500 min manat vəsait də ayrılıb.

Vurğulamaq lazımdır ki, muxtar respublika ərazisində yeni sənaye parkının yaradılması üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda 310 hektar torpaq sahəsinin seçilməsi də mühüm əhəmiyyət daşıyır. Belə ki, sənaye fəaliyyəti üçün Naxçıvan şəhərindən kənarda, eyni zamanda gediş-gəliş üçün yaxın məsafədə yerləşən ərazi, paralel olaraq Naxçıvanın Türkiyə vasitəsi ilə Qərbə, xüsusilə gələcəkdə Zəngəzur dəhlizi vasitəsi ilə müxtəlif istiqamətlərdə yük daşımalarına öz müsbət təsirini göstərəcək.

Məsələnin digər əhəmiyyətli tərəfi odur ki, Naxçıvan Sənaye Parkının yaradılması yaxın gələcəkdə muxtar respublikada əhali məşğulluğunun təmin olunmasında böyük rol oynayacaq. Gələcəkdə müxtəlif sahələr üzrə yaradılacaq sənaye rezidensiyaları burada kadr potensialının formalaşmasına təsir edəcək ki, bu da öz növbəsində yerli mütəxəssislərin yetişdirilməsinə töhfə verəcək. Bir sözlə, ölkə başçısının bu fərmanı Naxçıvanın sosial-iqtisadi inkişafının gələcək hədəflərinə yönəlmiş növbəti addım olmaqla, regionun çiçəklənməsinə öz müsbət təsirini göstərəcək.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Naxçıvan**

## Kredit kartlarından istifadə artıb

*Bu il aparılan əməliyyatların həcmi 7 milyard manatı ötüb*

**Cari ilin 10 ayında Azərbaycanda kredit kartları ilə aparılan əməliyyatların həcmi 7 milyard 96 milyon manat təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyard 117 milyon manat və ya 42,5 faiz artım deməkdir.**



Hesabat dövründə kredit kartları ilə aparılan əməliyyatların 3 milyard 841 milyon manatı elektron ticarət vasitəsi ilə, 1 milyard 757 milyon manatı POS-terminallar vasitəsi ilə, 1 milyard 211 milyon manatı bankomatlar vasitəsi ilə, 276 milyon manatı isə ölkə xarici əməliyyatlar vasitəsi ilə həyata keçirilib.

Xatırladaq ki, 2024-cü il noyabr ayının 1-nə ölkədə kredit kartlarının sayı 2 milyon 227 min təşkil edib.

# Kimya məhsulu satışından 84,2 milyon dollar gəlir

**2024-cü ilin yanvar–oktyabr aylarında ölkəmizdən xaricə 84 milyon 241 min ABŞ dolları dəyərində 402 min 11 ton üzvi kimyəvi birləşmələr ixrac edilib. Bu barədə məlumat Dövlət Gömrük Komitəsinin hesabatında yer alıb.**

Bildirilib ki, bu növ məhsulların ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 9 milyon 777 min ABŞ dolları, həcm baxımından isə 7 min 170 ton çoxdur. Bu da illik müqayisədə müvafiq olaraq 13,13 faiz və 1,8 faiz artım deməkdir. Ümumilikdə isə, cari ilin 10 ayında xarici bazarlara göndərilmiş üzvi kimyəvi birləşmələr ölkənin ümumi ixracının 0,37 faizini təşkil edib.

Xatırladaq ki, ötən ilin yanvar-oktyabr aylarında Azərbaycan 74 milyon 464 min ABŞ dolları dəyərində 396 min 5 ton üzvi kimyəvi birləşmələr ixrac edib.



**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Mavi səmada "yaşıl" hədəflər

*Aviasiya qlobal emissiyaların 2-3 faizini təşkil etsə də, iqlim savaşında önəmli sahədir*

**Macarıstanın "Wizz Air" aviaşirkətinin korporativ və ekoloji, sosial və idarəetmə direktoru Yvonne Moynihan Azərbaycan mediasına müsahibəsində bildirib ki, karbon emissiyalarını azaltmaq üçün ən çətin sektorlardan biri olan aviasiya bu müzakirələrin diqqət mərkəzində olmalıdır: "Davamlı Aviasiya Yanacağının və digər yeniliklərin iqlim strategiyalarına inteqrasiyası xüsusilə vacib məsələdir. Bununla belə, sənayemiz üçün yüksək keyfiyyətli aviasiya yanacağının daha əlçatan olması və yüksək qiymət məsələsinin həlli diqqət mərkəzində saxlanılmalıdır".**

Y.Moynihan qeyd edib ki, COP29 konfransının gedişində siyasətçilər, aviasiya yanacaq istehsalçıları, Beynəlxalq Mülki Aviasiya Təşkilatı və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası kimi təşkilatların nümayəndələri ilə aparılan əhəmiyyətli müzakirələrdə keyfiyyətli aviasiya yanacağı istehsalının sürətləndirilməsi, innovativ yanacaq texnologiyalarının genişləndirilməsi və xalis sıfır aviasiyaya keçidi asanlaşdıracaq tənzimləyici çərçivələrin yaradılması məsələlərinin həlli zəruriliyi önə çəkilib. Eyni zamanda, bütün aviasiya sənayesinin karbon kreditlərinə və davamlı enerji həllərinə çıxışı barədə fikir və mülahizələr səsləndirilib.

COP29-un dialoq üçün əla platforma olduğunu diqqətə çatdıran Y. Moynihan əlavə edib ki, qlobal səylərin aviasiya sektorunda tələb olunan dəyişiklik tempinə uyğunlaşdırılmasında bəzi boşluqlar var: "Qlobal keyfiyyətli aviasiya yanacağı reyestri kimi şəffaflığı təmin edəcək və karbon kreditlərinə çıxışı asanlaşdıracaq təşəbbüslər bizi həvəsləndirir. Lakin neft subsidiyalarının mədən yanacaqlarından bərpa olunan enerjiyə yönəldilməsi kimi daha qətiyyətli siyasi tədbirlər lazımdır.




Ümid edirik ki, bu müzakirələr konkret nəticələrə gətirib çıxaracaq. Biz irəliləyişə nail olmaq üçün siyasətçilər və sənaye liderləri ilə əməkdaşlığa sadiqik".

## BMT-nin karbon krediti qaydaları

**Qlobal iqlim dəyişiklikləri ilə mübarizədə planetimiz üçün irəliyə doğru ilk addım məhz Bakıda – COP29 konfransında atıldı, tərəflərin razılaşması ilə dünya ölkələrinin karbon krediti bazarı üçün BMT-nin yeni qaydaları qəbul edildi. Bu, ölkələrin iqlimlə bağlı öhdəlikləri yerinə yetirmələrində önəmli vasitəyə çevrildi.**

İqlim sahəsinin tanınmış ekspertləri hesab edirlər ki, bu, daha köklü, mübadilə etmək niyyətində olan BMT tərəfindən dəstəklənən standartlarla keyfiyyətli karbon kreditləri mübadiləsi sahəsində karbon bazarına yeni yol açacaq. Eyni zamanda, COP29 çərçivəsində əldə edilimiş ilk razılaşma iqlim dəyişikliyi sahəsində davamlı fəaliyyətə böyük töhfələr verəcək.



Yeri gəlmişkən, COP29-un bağlanış plenar iclasında karbon krediti qaydaları ilə bağlı geniş müzakirə aparılaraq Paris Sazişinin 6-cı maddəsi tam təsdiq edildi. Bu, yüksək inteqrasiya olunan karbon bazarları üzrə danışıqların 10 ildən sonra uğurla başa çatması demək idi. COP29 Sədrliyinin əsas prioritetlərindən biri Paris Sazişi Tərəflərin intensiv ikitərəfli texniki və siyasi danışıqları vasitəsilə, nəhayət, tam təsdiqini tapdı. Bununla da illərlə davam edən adıçəkilən strateji sənədin reallaşdırılmasına yol açıldı.

İqtisadçı-ekspert Samir Heydərovun sözlərinə görə, Paris Sazişinin 6-cı maddəsində iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının gerçəkləşdirilməsi nəzərdə tutulur. Bu transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının həyata keçirilməsi nəticəsində xərclərin ildə 250 milyard dollara qədər azalcağı gözlənilir.

COP29 Sədrliyi Tərəfləri bu vəsaiti daha böyük iqlim ambisiyalarına yenidən investisiya yatırmağa təşviq edir. Gələn ilin fevral ayında təqdim ediləcəyi planlaşdırılan növbəti nəsil etibarlı və şəffaf karbon bazarlarının yaradılması dünyanın 1,5 dərəcə hədəfinə çatmaqda mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, iqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınması kimi məsələləri əhatə edir. Ekspertlərin fikrincə, bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir. Eyni zamanda, həmin maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsini şərtləndirir.

# AYİB ölkəmizin iqlim təşəbbüslərini dəstəkləyir

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Qafqaz üzrə regional direktoru Alkis Vrienios Drakinos təmsil etdiyi qurumun "yaşıl" maliyyələşməyə olan öhdəliyini artırdığını və hazırda portfelinin 50 faizindən çox hissəsinin iqlim məqsədlərinə uyğun layihələrlə bağlı olduğunu bildirib. O daha sonra AYİB-in artıq "yaşıl" bank kimi tanındığını və bunun sübut edən bir sıra nailiyyətlərin mövcudluğunu vurğulayıb.**

AYİB-in nümayəndəsi bu maliyyə qurumunun hələ bir neçə il əvvəl Paris Sazişi çərçivəsində bankın "yaşıllaşması" ilə bağlı üzərinə öhdəlik götürdüyünü və bu istiqamətdə artıq səyləri artırdığını, 2022 və 2023-cü illərdən etibarən sözügedən sahədə mühüm uğurlar qazandığını da diqqətə çatdırıb.

A.Drakinos qeyd edib ki, AYİB iqlim dəyişikliyi ilə bağlı layihələrə investisiyaları artırmaq məqsədilə digər çoxtərəfli inkişaf bankları ilə əməkdaşlığa başlayıb və bu məqsədlə hər il iqlim layihələrinə 2030-cu ilə qədər 120 milyard avro isərmayə qoymaq öhdəliyi götürüb.



Xatırladaq ki, Azərbaycanın bu bankla əməkdaşlığa başlaması 1992-ci illərə təsadüf edir. Beynəlxalq maliyyə qurumunun ölkəmizdəki nümayəndəliyi isə 1993-cü ildən fəaliyyət göstərir. Bank ilə dövlətimiz arasında əməkdaşlıq 2019–2024-cü illəri əhatə edən ölkə üzrə strategiya sənədi ilə tənzimlənir. Həmin strategiyaya əsasən, AYİB üçün bir sıra prioritet məsələlər var. Bunlar rəqabət qabiliyyətliliyə və yaxşı idarəçiliyə dəstək vasitəsilə iqtisadi şaxələndirmənin təşviqi, maliyyə bazarlarının inkişaf etdirilməsi ilə dözümlülüyün artırılması, "yaşıl" iqtisadiyyata keçidə, eləcə də regional rabitəliliyə dəstəkdir.

AYİB davamlı olaraq "yaşıl" inkişafın, davamlılığın və innovasiyanın təşviqinə sadiqlik nümayiş etdirir. Bu, iqlim dəyişikliyi ilə mübarizədə, özəl maliyyənin səfərbər olunmasında və fəaliyyət göstərdiyi bütün regionlarda sistemli dəyişikliyin gerçəkləşdirilməsində özünü qabarıq büruzə verir. Beynəlxalq maliyyə qurumu biznesinin azı yarısını "yaşıllaşmaya" yönəltməyi qarşıya önəmli vəzifə kimi qoyur. Ötən il bankın "yaşıl" maliyyələşdirməsinin 6,5 milyard avroya çatması, dünyada iqlimin maliyyələşdirilməsində liderlik səviyyəsinə yüksəlməsi də bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, AYİB-in apardığı tədqiqatlar Azərbaycanda ekoloji cəhəfdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğunu təsdiq edib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti ilə Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də yekunlaşıb. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Maliyyə qurumunun ölkəmizin bərpaolunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı fəaliyyətindən danışarkən bankın hazırda respublikamızın şərqində 240 meqavatt gücündə külək enerjisi stansiyasının tikintisini maliyyələşdirdiyi daha çox diqqət çəkir. Bu, külək enerjisi sahəsində ölkədə ilk təşəbbüs olmaqla Qafqazda bu cür ən böyük layihədir. Stansiya istismara verildikdən sonra ildə 893 qiqavatt-saatadək xalis elektrik enerjisinin hasil olunacağı gözlənilir. Ölkəmiz tərəfindən AYİB-in fəaliyyətində xüsusi yer tutan "Xəzər–Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi" layihəsi də yüksək dəyərləndirilir.

## Londonda COP29 və Xəzər müzakirələri

**Londonda "Xəzər Enerji Təhlükəsizliyi və COP29-dan sonra" mövzusunda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə keçirilən konfransda çıxış edən adıçəkilən mərkəzin direktoru Əfqan Nifti Xəzər regionunun enerji təhlükəsizliyi və "yaşıl" enerji keçidində artan əhəmiyyətindən danışıb. O, regionda, xüsusilə son bir ildə diplomatik səylərin və əməkdaşlığın yüksək səviyyəyə çatdığını bildirib. Ə. Nifti daha sonra COP29-un Xəzər regionu üçün xüsusi önəm daşıdığını əlavə edib.**



Britaniyanın Xarici İşlər Nazirliyi ilə Enerji Təhlükəsizliyi və Sıfır Emissiya Departamentinin birgə yaratdığı Beynəlxalq Enerji Bölməsinin direktor müavini Sofi Vestleyk Xəzər regionunun enerji təhlükəsizliyi və "yaşıl" enerji potensialına diqqət çəkib. S.Vestleyk, eyni zamanda, Xəzər regionunun Avropa üçün enerji təhlükəsizliyi və diversifikasiya baxımından strateji tərəfdaş olduğunu bildirərək, COP29-da Azərbaycanın Sədrliyi ilə əldə olunan razılaşmanı yüksək qiymətləndirib.

Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov COP29-un bölgədə keçirilməsini tarixi hadisə adlandırıb və respublikamızın bu prosesdəki liderliyini yüksək dəyərləndirib. Həmçinin Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl" enerji üzrə üçtərəfli tərəfdaşlığın qurulmasının xüsusi əhimiyyət daşıdığını qeyd edib. Elin Süleymanov COP29-da əldə edilən Bakı maliyyə hədəfini uğur adlandırıb.

Türkiyənin Britaniyadakı səfiri Osman Koray Ertaş Türkiyənin 2053-cü ilə qədər iqlim hədəflərindən danışaraq "yaşı"l keçid və enerji təhlükəsizliyi arasında balansın qorunmasının əhəmiyyətinə toxunub. Qazaxıstanın bu ölkədəki səfiri Maqjan İlyasov BMT-nin 29-cu iqlim konfransının Xəzər regionu üçün çox vacib bir platforma olduğunu və bölgə ölkələrini daha güclü əməkdaşlığa təşviq etdiyini bildirib. Özbəkistanın Böyük Britaniyadakı səfiri Rövşən Usmanov isə COP29-da Azərbaycanın təşkilatçılığını yüksək qiymətləndirib və iqlim konfransının . regiondakı ölkələrin problemlərini və çağırışlarını müzakirə etmək baxımından yüksək səviyyəli platforma olduğunu deyib.

# Paris Sazişinin 6-cı maddəsi ekoloji savaşın uğurudur

**Yaponiya Ətraf Mühit Nazirliyinin Qlobal Ətraf Mühit Bürosunun nümayəndəsi Akiko Maruo ölkəsinin Azərbaycanla iqlim şəffaflığı sahəsində əməkdaşlığı daha da inkişaf etdirməyi planlaşdırdığını bildirib və COP29 tərəflərini 1,5 dərəcə hədəfinə uyğun olan və ən son elmi məlumatlara əsaslanan bütün istixana qazlarını, sektorları ümumiqtisadi emissiyaların azaltmaq məqsədinə sadiq qalmağa çağırıb.**

A.Maruo vurğulayıb ki, COP29 çərçivəsində Yaponiya ölkəmizlə birlikdə Qlobal İqlim Şəffaflığı üzrə Bakı Platformasının tədbirini təşkil edib. Yaponiya iqlim təşəbbüslərinin həyata keçirilməsində şəffaflığın təmini üçün Azərbaycanla bu istiqamətdə əməkdaşlığı davam etdirəcəyini nəzərdə tutub.

O xatırladıb ki, Yaponiyanın ətraf mühit naziri Asao Keyitiro COP29 zamanı Bakıda bir çox ölkələrin nümayəndələri ilə ikitərəfli görüşlər keçirərək onları Milli İqlim Planlarının ambisiyalarını artırmağa çağırıb: "Biz COP29-un yekun plenar iclasında Paris Sazişinin 6-cı maddəsinin tam təsdiqlənməsindən məmnunuq. Bundan əlavə, Azərbaycan da daxil olmaqla 29 tərəfdaş ölkədə iqlim dəyişikliyinin qarşısının alınması layihələrinin təşviqi məqsədilə bazar alətlərindən istifadə edən Birgə Kreditləşdirmə Mexanizmimiz var".




## Qazaxıstanın COP29-a maliyyə töhfəsi

**Qazaxıstanın ekologiya və təbii sərvətlər naziri Erlan Nısanbayev Azərbaycan mediasına müsahibəsində ölkəsinin Bakıda keçirilən BMT-nin 29-cu iqlim sessiyası çərçivəsində 4,5 milyard dollarlıq 20-dən çox sənəd imzaladığını bildirib. E.Nısanbayev həmin sənədlər arasında İslam İnkişaf Bankı ilə "İqlimə davamlı su ehtiyatlarının inkişafı", çinli tərəfdaşlarla bərpa olunan enerji mənbələri ilə bağlı layihələrin, həmçinin hidrometeorologiya, eləcə də su təhlükəsizliyinə aid iri investisiya sazişlərinin yer aldığını qeyd edib.**

Nazir vurğulayıb ki, COP29-da Qazaxıstan bir sıra çoxtərəfli təşəbbüslər irəli sürüb ki, bunlardan biri də səhralaşmanın və torpaqların deqradasiyasının qarşısının alınması üçün səylərin əlaqələndirilməsinə yönəlmiş karbon əkinçiliyi təşəbbüsü olub. Bu təşəbbüsü artıq Gürcüstan, Özbəkistan və Tacikistan dəstəkləyib. Onun gerçəkləşdirilməsinə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının fəal şəkildə cəlb edilməsi nəzərdə tutulub.

# Bakı konfransının qərarları Azərbaycanın diplomatik qələbəsidir



**Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasıda (COP29) qəbul edilən yekun sənəd Azərbaycanın diplomatik qələbəsidir. Bu fikri Rusiyanın iqtisadi inkişaf naziri Maksim Reşetnikov mətbuata müsahibəsində səsləndirib.**

Rusiyalı nazir deyib ki, konfrans iştirakçıları inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirilməsi üzrə yeni hədəf razılaşdırıblar. COP29-da qəbul olunmuş qərara əsasən, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər iqlim dəyişikliyi ilə mübarizə fəaliyyətinə hər il azı 300 milyard dollar ayrılmasını təmin etməli olduğunu xatırladan M. Reşetnikovun sözlərinə görə, Bakıda inkişaf etməkdə olan ölkələr üçün yeni iqlim maliyyələşdirmə hədəfinin razılaşdırılması üzrə müzakirələr son dərəcə gərgin olub: "Fikir ayrılıqlarına baxmayaraq, konfransın bütün iştirakçı ölkələri yekun sənədi razılaşdırıblar. Burada Azərbaycanın sədrliyinin əsas rolunu və onların komandasının danışıqlardakı ustalığını xüsusi qeyd etmək istərdim. Bu, şübhəsiz ki, onların diplomatik qələbəsidir".

Rusiyalı nazir karbon vahidlərinin beynəlxalq ticarəti üzrə qaydaların təsdiqlənməsini COP29-un nailiyyətləri sırasında mühüm yer tutduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, əldə edilən razılaşmalarda ölkələrin yaradılan karbon bazarları infrastrukturuna bərabər hüquqlu çıxış prinsipinin təsbit edilməsi vacibdir. M. Reşetnikov, həmçinin deyib ki, Rusiyanın layihələri və karbon vahidləri siyasi motivli məhdudiyyətlərlə üzləşməməlidir.

COP29-da qalıq yanacaqlardan imtina məsələsi və bu mövzuda danışıqların gedişatını şərh edən M.Reşetnikov bildirib ki, Rusiya ondan istifadədən imtina etməyi planlaşdırmır: "Biz heç nədən imtina etmirik. Ötən il qlobal karbon neytralllığına nail olmaq üçün balanslaşdırılmış tədbirlər toplusu formalaşdırmaq mümkün oldu. Buraya, həm də bərpaolunan enerji mənbələrinin, elektrik nəqliyyatının, atom energetikasının inkişafı, enerji səmərəliliyinin artırılması daxildir".

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# “Azad mətbuat”ın azadlığı neçəyədir?

## Yaxud Avropada senzura niyə güclənir?

**Artıq 3 ilə yaxındır ki, Brüssel “senzura” sözündən yayınaraq cidd-cəhdlə əsas internet platformalarını və sosial şəbəkələri “mülayim yazılara” sövq etməyə başlayıb. Avqustun ortalarında Polşanın həftəlik nəşri “Do Rzeczy”nin başılovlu haray saldığını xatırlayın: “Aİ Brüssel üçün siyasi baxımdan arzuolunmaz materiallara total senzura tətbiq edir!” Nəşr yazır ki, Aİ ölkələri, o cümlədən Polşa internetdə total senzuranın tətbiqini gözləməlidir. Çünki Aİ-də Rəqəmsal Xidmətlər Qanunu (“Digital Services Act” – DSA) qəbul edilib və onun əsas məqsədi siyasi cəhətdən arzuolunmaz mətni senzura etməkdir.**



Bu, senzura hiyləgərcəsinə “nifrətə qarşı mübarizə” adlanırdı. Yaxşı fikirləşiblər, deyilmi? Nəşr buna aydınlıq gətirərək yazır: “Əgər bunun Bretonla Maskın qarşılıqlı hücumlarının böyük korporasiyalarla Aİ arasında qarşıdurma olduğunu düşünürsünüzsə, səhv edirsiniz. Bu, hər birimiz üçün söz azadlığı uğrunda mübarizənin başlanğıcıdır”.

“Rəqəmsal xidmətlər bazarı haqqında qanun” ilə paralel olaraq “Rəqəmsal Xidmətlər `Aktı” (DMA) da bu il martın 6-da Aİ-də qüvvəyə minib. DMA altı internet texnologiya nəhənginin fəaliyyətini tənzimləyən və Avropa internet provayderlərini rəqiblərdən qoruyan dünyanın ən geniş qaydalarını təqdim edib. Aydındır ki, DMA-nın hədəfində 5 Amerika şirkəti – “Alphabet”, “Amazon”, “Apple”, “Meta”, “Microsoft” və 1 Çin “Çina ByteDance” var idi. DSA bir tərəfdən böyük rəqəmsal platformalar üçün qeyri-qanuni və ya zərərli kontentlərlə mübarizəyə açıq-aşkar etinasızlığa görə məsuliyyət həddini müəyyənləşdirir, digər tərəfdən də istifadəçilərin söz azadlığı və şəxsi məlumatlarının mühafizəsi ilə bağlı təməl hüquqlarını qorumaq üçün məsuliyyətin də gücləndirilməsini nəzərdə tutur. Lakin Birləşmiş Ştatların Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi (CSIS) Transatlantik tərəfdaşlarına qarşı narazılığını bildirdi, çünki məhz “şəbəkə”nin faktiki monopolistinə çevrilmiş Amerika şirkətləri Brüsselin məhdudiyyətləri altına düşürdü.

Avropa Komissiyası əsas məqsədinin AB-dəki rəqəmsal xidmətlər bazarında Amerikanın rəqəmsal “komandanlar”ının təsirini məhdudlaşdırmaq olduğunu gizlətmir. Avropa Komissiyasının icraçı vitse-prezidenti Marqret Vestager deyib: “Biz hərəkətə keçməli olduğumuz bir məqama gəlib çatmışıq. Bu, rəqəmsal şirkətlərin, xüsusən də ən nəhəng rəqəmsal “qapıçılar”ın (“qeytkiperlərin”-İ.R.) gücünün azadlığımızı, imkanlarımızı və hətta demokratiyamızı təhdid etdiyi bir andır...Ona görə də dünyanın ən böyük “qeytkiper”ləri üçün hər şey dəyişməlidir.”

Əlbəttə, bu, mübahisəsiz belədir: sizin həyətinizdə başqa “süpürgəçilər”in üzünüzə belə baxmadan trilyonlarla avronu ciblərinə süpürmələri, əlbəttə, adama ağır gəlir. Elə bu da, Brüsseli DSA və DMA vasitəsilə 500 milyon avropalı istehlakçıya internet və rəqəmsal xidmətlər satan Amerikanın texnologiya nəhənglərinin biznes modellərini nəzarət altına almağa məcbur etdi.

**Soruşacaqsınız ki, yaxşı, bəs bu, Aİ-də mətbuat azadlığını necə təhdid edir?**

Hər şey çox sadədir. DSA-nın komponentlərindən biri Avropa Komissiyasının qara siyahıya salacağı bəzi informasiya növlərinə qadağalar və ya məhdudiyyətlər mexanizmini tətbiq etməyi tələb edən “qeytkiperlər”in davranışının monitorinqi üçün alət yaratmağa yönəlib.

Artıq bir il qabaq, hələ Brüsselin yeniliklərin tətbiqinə başlamasından əvvəl belə bir sual ortaya çıxdı: DSA yalnız qeyri-qanuni kontenti hədəf alacaq, yaxud “demokratik dəyərlərə hörməti sarsıdan” hər hansı məlumatı qadağan edəcək?” Hətta o zaman aydın idi ki, Avropa Komissiyası “qeyri-qanuni, zərərli kontentlərə və ya demokratik prinsip və dəyərlər”in məzmununun müəyyənləşdirilməsinə yanaşmada “öz zövqünə uyğun” hərəkət edəcək.

Xatırlayırsınızsa, avqustun ortalarında, İlon Maskın Donald Trampla müsahibəsindən bir qədər əvvəl Aİ komissarı Tierri Breton artıq “X” platformasının sahibinə barmaq silkələyərək “nifrət dili”nə münasibətdə onu Avropa normaları ilə hədələyirdi. Onun “bir sıra alətlərdən” istifadə etmək hədəsini ehtiva edən məktubu artıq Aİ-də senzuranın mövcudluğunu nəzərdə tuturdu. Məhz bu məktub Polşa ədliyyə nazirinin keçmiş müavini, “Suveren Polşa” partiyasından olan deputat Sebastyan Kaletanın “Polşada tezliklə senzuranın meydana çıxacağını” bəyan etməsinə səbəb oldu.

Aİ-də senzuranın açıq bəyan edilməsi “Brüssel Rəqəmsal Xidmətlər Aktının qüvvəyə minməsi ilə polyakları gözləyən azadlıqlara qoyulan məhdudiyyətlərin yalnız ilk qaranquşlarıdır”. Bu, hazırda Aİ-də rəqəmsal xidmət təminatçılarının fəaliyyətini tənzimləməyə yönəlmiş bu qurumun əsas qanunvericilik aktlarından biridir. Sebastian Kaleta deyir: “Bu gün Aİ və Polşada qurulmuş siyasi sistemi nəzərə alsaq, təəssüf ki, biz internetdə total senzuranın tətbiqini görmüş olacağıq”.

İlk dəfə deyil ki, polyaklar ilə Brüssellin qanunları üz-üzə qalarkən hansının daha vacib olması məsələsi ortaya çıxır. Amma deputat, şübhəsiz, haqlıdır: “Nəhəng Avropa sənədlərində uşaq pornoqrafiyası və ya terrorizmlə mübarizə kimi “nəcib istəklər” solçu siyasi təlimatlarla qarışdırılır. Qeyri-müəyyən “nifrətin qızışdırılması” anlayışı digər məqsədlərlə bərabər, hətta onlardan daha yüksəkdə durur”.

Üstəlik, bu anlayış istənilən vaxt Berlaymondan olan məmurları sevindirəcək yeni məzmunla “zənginləşdirilə” bilər. Əgər əsas məqsəd siyasi cəhətdən mənfi kontenti senzura etmək idisə, bu qaydaların işlənib hazırlanmasında prioritetin nədən ibarət olmasının heç bir əhəmiyyəti yox idi. Praktikada DSA sosial media şirkətlərini “qanunsuz kontenti” silməyə məcbur edir. Amma qanunun özü kontentdə “nifrət dili”ndən başqa nəyin qanunsuz olduğunu müəyyən etmir. İndi Aİ-yə üzv dövlətlər kontentin qeyri-qanuni sayılacağı və ən əsası onun silinməsi üçün göstərişlər verəcək çərçivəni müəyyən edə bilər.

Polşanın ədliyyə naziri Adam Bodnar artıq “nifrət dili” ilə mübarizə üçün qanun təqdim edəcəyinə söz verib və əlavə edib ki, “bu qanuna uyğun olaraq, hər hansı bir solçu ehkam ilə, məsələn, cinsiyyətin dəyişdirilməsi, abort və s. ilə razı deyilsə, bu, nifrəti qızışdırmaq anlamına gələcək. Bu cür hərəkətlər cinayət cəzası ilə nəticələnəcək və prokurorluğun bu cür etibarsız kontentin internetdən çıxarılması barədə göstərişi olacaq”.

**Sizə daha nə lazımdır?**

Aİ-nin media məkanında bundan sonra daha nə baş verəcəyini təxmin etmək çətin deyil. Brüsselin tətbiq etdiyi “nifrət dili”nə qadağa Aİ-də mövcud hökumətə uyğun olmayan hər hansı fikri ayrıldığını “qanuni” şəkildə məhv etməyə imkan verir. Əlbəttə, bu cür yanaşma, təbii ki, “avtoritar rejimləri daha da ilhamlandıracaq”. Amma bu, təkcə Polşaya aid deyil. Qərbin anlamına görə, ifadə və mətbuat azadlığının məhdudlaşdırılması “ən ali məqsədə - xarici düşmənlər üzərində qələbəyə” nail olmaq zərurətindən irəli gəlir. Aİ senzura ilə müxalifəti nə qədər sıxışdırmağa çalışsa belə, Avropa paytaxtlarını bir o qədər özünə qarşı çevirəcəyini və separatçı əhval-ruhiyyəni gücləndirəcəyini Varşavada və Brüsseldə ya anlamır, ya da hələ bundan qorxmurlar.

Düz 1 il əvvəl Avropa Komissiyası Avropa Parlamenti ilə Şura arasında komissiya tərəfindən hələ 2022-ci ilin sentyabrında təklif edilən media azadlığı haqqında Avropa qanunu ilə bağlı əldə edilmiş siyasi razılaşmanı alqışlayanda Berlemon bəyan etmişdi ki, “yeni qaydalar KİV-in redaksiya müstəqilliyini, plüralizmini daha yaxşı qoruyacaq, şəffaflığı və ədalətliliyi təmin edəcək və yeni media üzrə Avropa Şurası vasitəsilə KİV orqanlarının əməkdaşlığını yaxşılaşdıracaq. Bura, jurnalistlərin öz fəaliyyətlərini sərbəst və təhlükəsiz şəkildə yerinə yetirmələri üçün geniş görünməmiş təminatlar daxil idi. Bu yeni qaydalar toplusu həm də Aİ-nin daxili bazarında dövlət və özəl KİV-in, heç bir təzyiq olmadan, media müstəvisində rəqəmsal transformasiyasını nəzərə almaqla, transsərhəd fəaliyyətini daha asan təmin edəcək”. Bu şifahi hiyləgər ifadələr təkcə media, mətbuat və internetdəki informasiya mənbələri üzərində total nəzarətin ən primitiv mexanizmini ört-basdır etmək üçün ortaya çıxmayıb. Bu qanunların qanadları altında Aİ siyasəti ilə razılaşmadıqlarını bəyan etmək cəsarətinə malik olan daxili və xarici şəbəkə istifadəçiləri var.

Üzv dövlətlərdən media xidməti təminatçılarının azadlığına hörmətlə yanaşmağı tələb etmək, jurnalist mənbələrinin qorunmasını təkmilləşdirmək və hətta yaradılmış media kontentlərin böyük onlayn platformalar (Rəqəmsal Xidmətlər Aktı ilə müəyyən edilmiş) tərəfindən icazəsiz silinməsinə təminatlar vermək “redaktor müstəqilliyini qorumaq” – əslində, praktikada deyilənlərin tam əksini ehtiva edir: **İnternetdə total nəzarətin təşkili.**

Brüssel üslubunda mətbuat azadlığının qiyməti budur. Bəs onda Brüssel onun himayəsini və göstərişlərini qəbul etməyən ölkələrə nədən demokratiya və söz azadlığının pozulması damğası vurur? Elə bilirəm ki, bu sual ətrafında elə hörmətli həmkarlarımız – Azərbaycan jurnalistləri də ciddi düşünməlidirlər.

*İlqar RÜSTƏMOV*
*XQ*

# Bakı konfransı Sen Martin adasının müstəqillik mübarizəsini dəstəklədi

**Dekabrın 6-da Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Fransa və Niderlandın müstəmləkəçiliyi altındakı Sen Martin adasına həsr edilmiş beynəlxalq konfrans keçirilib.**




“Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi - bir ada, bir xalq, bir tale” adlı konfransda müstəmləkəçiliyə qarşı mübarizə aparan və azad olmağa çalışan Sen Martin xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların, qeyri-hökumət təşkilatlarının rəhbərləri, parlamentin üzvləri, hüquq müdafiəçiləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak ediblər.

Sen Martin parlamentinin üzvü Franklin Meyers bildirib ki, istər Fransanın, istərsə də Niderlandın müstəmləkəçiliyindən qurtularaq müstəqil olmaq xalqlarımızın ən müstəsna hüququdur. O, məhz bu hüququn dünya miqyasında tanınması üçün Bakıda olduqlarını qeyd edib və dəstəyə görə Bakı Təşəbbüs Qrupuna təşəkkürünü bildirib.

Çıxış edən Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib ki, Sen Martin adasının xalqı Fransa və Niderland arasında bağlanmış müqavilənin nəticələrindən hələ də əziyyət çəkir. Bu insanlar qeyri-insani ədalətsizliyə məruz qalıblar ki, bu da insanlıq adına bir utancdır.

Sonra “One Saint Martin” Assosiasiyasının prezidenti xanım Rhoda Arrindell “Sen Martində ikili müstəmləkəçilik irsi” mövzusunda təqdimatla çıxış edib. O, irsin sosial, mədəni və iqtisadi təsirlərinə toxunub. Həmçinin müstəmləkəçiliyin nəticələrinin aradan qaldırılmasının vacibliyini vurğulayaraq, Sen Martin xalqının birliyinə və müstəqilliyinə çağırış edib.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov təşkilatın fəaliyyəti ilə bağlı geniş təqdimat edib. O, Qrupun əsas missiyası və məqsədləri barədə danışaraq, həyata keçirilmiş layihələri və əldə edilən uğurları konfrans iştirakçılarının diqqətinə çatdırıb: “İndiyədək Bakı Təşəbbüs Qrupu kolonializmə aid 22 tədbir keçirib, 3 memorandum imzalanıb. Həmçinin müxtəlif beynəlxalq platformalarda çıxış edib”.

Sonra Sen Martinə həsr olunmuş “Bir adanın səsi” adlı debat təşkil edilib. Sen Martinin təhsil nazirinin keçmiş müşaviri Fabian Badejonun moderatorluğu ilə keçən debatda Sen Martinin təhsil, səhiyyə və sosial inkişaf sahələrindəki vəziyyətə toxunulub, həmçinin iqtisadi müstəqilliyin və vahid bir cəmiyyətin qurulmasının önəmi vurğulanıb.

Digər çıxış edənlər - “One Saint Martin” Assosiasiyasının prezidenti xanım Rhoda Arrindell, Sen Martin parlamentinin üzvü Franklin Meyers, “Nation Opportunity Wealth” (NOW) siyasi partiyasının lideri Kristofer Emanuel, Sen Martinin keçmiş səhiyyə, sosial inkişaf və əmək naziri xanım Pamela Carty, Sen Martinin müstəqilliyi uğrunda mübarizə aparan fəal xanım Cülyen Denis müstəmləkə şəraitində yaşamağın çətinliklərindən danışıblar. İştirakçılar adanın inkişafı üçün həm siyasi, həm də sosial dəstəyin artırılmasının vacibliyini qeyd ediblər. Müzakirələrdə çətinliklərlə yanaşı, Sen Martinin müstəqil bir gələcəyə doğru irəliləməsi üçün güclü bir birlik və davamlı mübarizənin vacibliyi vurğulanıb, bu istiqamətdə yeni strateji yanaşmaların hazırlanmasının əhəmiyyəti diqqətə çatdırılıb. Çıxışçılar Bakı Təşəbbüs Qrupuna müstəmləkəçiliyə qarşı mübarizədə göstərdikləri dəstəyə görə minnətdarlıqlarını bildiriblər.

Konfransda, həmçinin “One Saint Martin” Assosiasiyasının gənc üzvü xanım Yadiska Van Putten, Sen Martinin təhsil nazirinin keçmiş müşaviri Fabian Badejo, Qoşulmama Hərəkatının Gənclər Təşkilatının sədri Leyla Həsənova, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Vasif Hüseynov təqdimatla, Barbados adasının Karib Ölkələri Birliyindəki səfiri David Komissionq isə videomüraciətlə çıxış ediblər. Çıxışlarda Fransanın və Niderlandın əsarəti altında olan və iki hakimiyyətin mövcud olduğu Sen Martin xalqının müstəmləkəçilikdən azad olmaq uğrunda apardığı mübarizə, habelə problemin aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər, beynəlxalq hüquqi mexanizmlər müzakirə olunub.

Daha sonra beynəlxalq konfrans çərçivəsində “Sen Martində - Dünya standartlarına uyğun təhsili necə əldə etmək olar?” adlı kitabın təqdimatı keçirilib.

Sonra Bakı Təşəbbüs Qrupu ilə Vahid Sen Martin Assosiasiyası arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov və “One Saint Martin” Assosiasiyasının prezidenti Rhoda Arrindell imzalayıblar.

Sonda konfransın yekunlarına dair mətbuat konfransı keçirilib.

*XQ*

# “Gürcü Arzusu” radikalların arzusunu puç edir

**(əvvəli 1-ci səhifədə)**

Bir neçə gündür ki, radikal müxalifət və QHT nümayəndələri Gürcüstanda “Maydan” təşkil etməyə çalışırlar. Hökumət binasının qarşısına toplaşan anti-hökumət qüvvələri güclü qarşıdurma görüntüsü yaratmağa çalışsalar da, hüquq-mühafizə orqanlarının peşəkarlığı sayəsində bu məsələdə uğursuzluğa düçar oldular. Qərbin istədiyi kimi radikal müxalifət düşərgəsi Gürcüstana bütün bəlaların mənbəyi olan “Maydan” təşkil edə bilmədilər, onların bütün cəhdləri iflasa uğradı. Son 4 ildə Gürcüstanda “Maydan” təşkil etmək üçün 4 cəhd göstərilsə də, dövlət hər 4 cəhdin qarşısını uğurla alır.

Küçələri işğal etməyə çalışan radikal müxalifət tərəfdarlarının da səsləri son iki gündə gur çıxmır. Etirazların ilk günlərindən fərqli olaraq, parlamentin qarşısına toplaşanlar bu dəfə müxtəlif sloqan atmaqla işlərini yekunlaşdırmağa çalışırlar. Bunun da səbəbləri var. Partiya ofislərində aparılan axtarış zamanı parlament binası yaxınlığında baş verən qarşıdurmalarda fəal şəkildə istifadə edilən külli miqdarda fişəng, atəşfəşanlıq və digər pirotexniki vasitələr aşkarlandı. Təhlükəsizlik qüvvələri ofislərdən qaz maskaları, dəbilqələr, boyalar, “Molotov” kokteylləri müsadirə etdilər.

Kinorejissor Qoqa Xaindravanın sözlərinə görə, partiya ofislərindən pirotexniki vasitələr götürüləndən dərhal sonra mitinqdə hər şey sakitləşdi: “Bu, gənclərin kortəbii icitmai hərəkatı olmadığını, əksinə, xaricdən idarə olunan qondarma müxalifət qüvvələrinin təxribatı olduğunu təsdiqləyir”. Onun fikrincə, məhz Daxili İşlər Nazirliyinin apardığı reydlər sayəsində “parlament binasının yanında az qala yandırılan polisə qarşı vandalizm artıq müşahidə olunmur”. Cənab Xaindrava təhlükəsizlik qüvvələrinin partiya ofislərinə qarşı xüsusi əməliyyatını “arı yuvalarının və süfrələrinin məhv edilməsi” adlandırır. O, müxalifət liderlərinin “mitinqlərdə özlərini meydana çıxarmadıqlarına, öz partiyalarının fəalı olan gənclərin arxasında gizləndiklərinə” diqqət çəkir.



Təbii ki, müxalifətin destruktiv addımlarının gürcü cəmiyyətində qütbləşmə meyillərinin yaranmasına təkan verir. Hökumətə qarşı çıxan qüvvələrin rəhbərləri hakimiyyətlə ictimai müzakirənin mümkünlüyünü “utancverici kompromis” kimi qəbul edirlər. Ancaq müxalifətdən fərqli olaraq iqtidar əks cəbhəni müxalifəti Gürcüstan İctimai Televiziyasında canlı debat keçirməyə dəvət etmişdi. Lakin müxalifət uzadılan əli sıxmağa tələsmir. Gürcüstanda da əmindirlər ki, dinc etirazla ekstremizm arasındakı sərhədi keçən etirazçılar heç bir halda çoxluğun maraqlarını təmsil etmirlər və Qərbin istəklərinə qulluq göstərirlər.

Rəsmi Tbilisi də milli maraqların qorunması istiqamətində qətiyyətli davranacağını bildirir. Gürcüstanın Baş naziri İrakli Kobaxidze gələcəkdə inqilabi prosesləri istisna etmək üçün ölkədə liberal faşizm ideologiyası üzərində tam qələbənin zəruriliyini bəyan etdi. Cümə günü keçirdiyi mətbuat konfransında o, “son illərdə dördüncü dəfə radikal müxalifət Gürcüstanda inqilab təşkil etməyə cəhd etdiyini və güclü Gürcüstan dövlətinin buna cavab verdiyini” dedi. “Müxalifətin əsas zorakılıq mənbələri olan radikallar konstitusiya quruluşunu devirmək istəyirdilər, buna müvafiq cavab aldılar və alacaqlar”, – deyə Gürcüstan hökumətinin başçısı qeyd edib.

İrakli Kobaxidze deyib: “biz bu mübarizədə liberal faşizm üzərində qələbə qazandıq, indi yekun qələbəyə nail olmalıyıq”. O, bir daha bildirib ki, hökumət bu işdə çox prinsipial olacaq, xaricdən maliyyələşən liberal faşizmi ardıcıl olaraq kökündən siləcək. Baş nazirin fikrincə, bu, radikal, ekstremist ideologiyadır: “Bizə vaxt lazımdır və bu ideologiyanı ləğv etmək üçün bütün hüquq mexanizmlərdən istifadə edəcəyik”.

*S.ELAY*
*XQ*

# Şamaxıda biznes-forum

**Şamaxıda Rayon İcra Hakimiyyətinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, eləcə də və Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun təşkilatçılığı ilə "Şamaxı rayonunun özəl investisiyalar üçün cəlbediciliyinin artırılmasına təşviq və dəstək mexanizmlərinin hazırlanması" layihəsi çərçivəsində biznes-forum keçirilib.**



Tədbiri giriş sözü ilə açan İqtisadiyyat İnstitutunun direktoru, professor Nazim Müzəffərli Maliyyə Nazirliyinin sifarişi ilə 2024-cü ildə "Şamaxı rayonunun özəl investisiyalar üçün cəlbediciliyinin artırılmasına təşviq və dəstək mexanizmlərinin hazırlanması" layihəsinin yerinə yetirildiyini diqqətə çatdırıb. Bildirib ki, tədqiqatın məqsədi Şamaxı rayonuna özəl investisiyaların cəlb edilməsi imkanlarının qiymətləndirilməsi, cəlbediciliyin artırılması istiqamətində təşviq və dəstək mexanizminin hazırlanmasıdır. Bunun üçün Şamaxı rayonunun iqtisadi potensialı, demoqrafik xüsusiyyətləri, coğrafi mövqeyi, iqlim şəraiti, istehsal imkanları, insan kapitalı, maliyyə resursları ilə bağlı mövcud durum təhlil edilib. Həmçinin bir sıra xarici ölkələrin təcrübəsi öyrənilib, yerli sahibkarlar arasında sorğular keçirilib. Mövcud resurslardan istifadə səviyyəsi və rayonun investisiya potensialı qiymətləndirilib. Özəl investisiyaların cəlb edilməsi üçün müvafiq təşviq və dəstək mexanizmləri təklif olunub.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov isə tədqiqatın rəsmi statistika, yerli qurumların məlumatları və keçirilən sorğuların nəticələri əsasında aparıldığını diqqətə çatdırıb. Layihənin effektivliyini təmin etmək üçün icra hakimiyyətinin nümayəndələri ilə, yerli sahibkarlarla işgüzar görüşlər keçirildiyini, geniş müzakirələr aparıldığını diqqətə çatdırıb. Layihə çərçivəsində Şamaxı Rayon İcra Hakimiyyəti, dövlət orqanları, ölkənin aparıcı akademik qurumları, ekspertləri, sahibkarlar, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi kimi qurumlarla əməkdaşlıq edildiyini vurğulayıb.

Tədqiqatın nəticə və tövsiyələri, ilk növbədə, Şamaxı rayonu üçün nəzərdə tutulsa da, ölkənin digər regionlarının sosial-iqtisadi inkişafı üçün də istifadə edilə, praktik idarəetmə qərarlarının hazırlanmasında, özəl investisiyaların cəlb olunmasında, yeni iş yerlərinin açılmasında, istehsalın və gəlirlərin artmasında yerli icra hakimiyyəti orqanları üçün faydalı ola bilər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov agentlik tərəfindən ölkəmizin biznes və investisiya qoyuluşu imkanları, sahibkarlara göstərilən dəstək tədbirləri və iş adamları arasında əməkdaşlıq perspektivləri barədə məlumat verib, onları maraqlandıran suallara cavablandırıb.

*İlqar MUSAOĞLU,*
*“Xalq qəzeti”nin bölgə müxbiri*
**Şamaxı**

# Qax: gəlin, görün, valeh olun

## *Təbiətin bu səxavətini insan daha da gözəlləşdirir*




**Bu gün Qaxda rayon həyatının elə bir sahəsi yoxdur ki, orada müasir Azərbaycanın tərəqqi və inkişafına layiq addımlar atılmasın. Hüsnü şairləri, rəssamları cuşa gətirən, tarixi və mədəni abidələri gələnləri heyran edən, sadə, zəhmətkeş insanları bu yerlərin halallıq ünvanı olduğunu dönə-dönə sübuta yetirən bu dağlar diyarı haqqında söz açmaq təkcə vəzifə borcumuz deyil. Bir azərbaycanlı vətəndaş kimi də bu reallıqları qələmə almaq, oxuculara çatdırmaq borcumuzdur. Açığı, yazı masasının arxasına keçib çox düşündüm. Nədən, hardan başlayım? Məni qınamayın, Qax haqqında yazılmalı çox şey var.**

Xeyli fikirləşəndən sonra qərara aldım ki, bu yazıya tamamilə başqa bir arqumentlə başlayım. Belə ki, Prezident İlham Əliyevin tapşırığına əsasən təşkil edilən sakinlərlə səyyar görüşlərin Qaxda necə geniş vüsət almasından danışım. Bunun nə qədər faydalı olduğunu bilmək üçün uzağa getmək lazım deyil. Yəni hansısa problemlə üzləşmiş rayon sakininin icra hakimiyyətinə gəlməsinə ehtiyac qalmır. Çünki rayon rəhbəri özü dövri olaraq sakinlərin görüşünə gedir. Həm də tək yox, müvafiq dövlət qurumlarının rəhbərləri ilə. Həmin görüşlərdə sakinlərin qaldırdığı məsələlər elə yerindəcə həll edilir, konkret tapşırıqlar verilir.





Mən bölgə müxbiri kimi həmin görüşlərin çoxunda iştirak etmişəm. Sakinlərin rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyevi necə mehribanlıqla qarşıladıqlarının şahidi olmuşam. Bu Ləläli, Qıpçaq, Ağyazı, Şotavar, Sarıbaş, Aşağı Malaxda da olub, Amanlı, Qaxbaş, Əmbərçay kəndlərində də...

Həmin görüşlərlə bağlı Musa müəllimlə çox söhbətimiz olub. Bu görüşlərdən həmişə razı qaldığını dilə gətirib. Bildirib ki, onların problemlərini dinləmək, konkret iş görmək bizim borcumuzdur. Ölkə rəhbəri çıxışlarında dəfələrlə vurğulayıb ki, heç kəsin dediyi sözə, qaldırdığı problemə biz biganə qalmamalıyıq.

Son görüşümüzdə isə söhbət ölkəmizdə keçirilən, uğurla başa çatan tədbirdən danışdıq. Mən bu məqamda ölkəmizdə keçirilən COP29-un uğurla başa çatması münasibətilə həmsöhbətimi təbrik etdim. Musa müəllim xatırlatdı ki, o sessiyanın yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu da bir daha nümayiş etdirdi: “Ölkəmiz qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etmişdi. Azərbaycan geniş miqyaslı tədbirin öhdəsindən uğurla gəldi, bu sahədə yüksək səviyyəli təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisi idi”.





Bu məqamda xatırlatmağı özümə borc bildim ki, həmin tədbirə hazırlıq dövründə Qaxda da kifayət qədər layihələr icra olunmuşdu: “Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ilə bağlı Sərəncamına uyğun olaraq rayonda Tədbirlər Planı hazırlanmış və həmin planın icrası çərçivəsində “Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında ulu öndər Heydər Əliyevin rolu” adlı elmi-praktik konfrans, “Gənc iqlim elçiləri” adlı konfrans, “Ekologiya və ətraf mühitin mühafizəsi”, “COP29 Azərbaycanda”, “Təbiəti qoruyaq”, “İqlim dəyişikliyi və COP29”, “Vətənini tanı”, “Dünya bizim evimizdir” və digər mövzularda maarifləndirici tədbirlər, dəyirmi masalar, seminarlar, intellektual yarışlar, rəsm sərgiləri, görüşlər keçirilib. “Təmiz ölkəm” ümumrespublika təmizlik aksiyası çərçivəsində isə rayonun müxtəlif yerlərində təmizlik aksiyaları keçirilib, ərazilər mövcud kol-kos, alaq otları və məişət tullantılarından təmizlənib. Yəni ölkənin ictimai-siyasi həyatında baş verən istənilən hadisə, fakt və ya proses Qaxda da özünəlayiq şəkildə əks-sədasını tapır”.

Qax haqqında nə yazsaq, nə danışsaq da ürəkdən söz açırıq, ürəyəyatan qəzet materialı ərsəyə gətirməyə çalışırıq. Başqa rayonlarımızın sakinləri inciməsinlər, Qaxda hamı təəssübkeşdir. Hamı öz yaşadığı məhəlləni, kəndi, nəticədə rayonu sevir və inkişaf etdirməyə, qorumağa çalışır. Ancaq yenə də xahiş edirəm başqa ziyalılar, çoxsaylı qaxlı dostlarım inciməsinlər, mən Qaxı sevməyin ən ali nümunəsini mərhum doktor Fərman Əhmədzadənin timsalında görmüşdüm. Bu adam həkim idi, ancaq Qaxın tarixini alimlərdən az bilmirdi. Saatlarla oturub söhbət edərdik. Onun həkim olmasına baxmayaraq, rayonun tarixi, mədəni, dini abidələri haqqında bildikləri, xüsusən, söylədikləri heyrətamiz idi.

Yadımdadır, bir dəfə onunla söhbət edən zaman qaxlıların təəssübkeşliyindən söhbət düşmüşdü və xahiş eləmişdi ki, mütləq rayonumuzda yaşayan başqa millətlərin də adını çəkim. Çünki onlar da Qaxı sevir və təəssübünü çəkirlər. Bu, böyük ürək sahibinin dediyi sözlərdir. Ruhu şad olsun!

Qərəz, ölkəmizdə elan olunmuş “Yaşıl dünya naminə həmrəylik ili” hələ başa çatmadığına görə rayonun sosial-iqtisadi göstəricilərindən əvvəl həmin istiqamətdə həyata keçirilən tədbirləri xatırlatmaq istəyirəm. Elə rayon rəhbəri də ilin doqquz ayının yekunlarına həstr olunmuş tədbirdə o məsələlər barədə geniş söz açıb. Belə ki, 2024-cü ilin yaz mövsümündə Qaxda 2736 ağac və 300 kol bitkisi əkilib. Həmçinin payız mövsümündə rayon ərazisindən keçən magistral avtomobil yollarının kənarlarında müxtəlif növ 6350 ədəd ağac tingi əkilib.

Günün tələblərinə cavab verən faktlardan biri də odur ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) təşəbbüsü ilə Qaxda 2 milli parkın, eləcə də, İlisu Dövlət Təbiət Qoruğuna milli park statusunun verilməsi ilə əlaqədar Axar-baxar dağ silsiləsində yeni milli parkın yaradılması nəzərdə tutulub. Bununla bağlı ərazilər müəyyənləşdirilib, sənədləşmə işləri davam etdirilir. ETSN və IDEA İctimai birliyinin təşəbbüsü və təşkilatçılığı ilə rayon dövlət yasaqlığının “Acınohur” çölünə müxtəlif vaxtlarda 18 baş ceyran buraxılıb.

Təbii ki, bütün bunlar həmişə qonaqlı-qaralı olan Qaxı bura gələnlər üçün bundan sonra daha da cazibədar edəcək. Ona görə də daha çox turist, səyyah və ya qonaqların gələcəyini nəzərə alaraq rayon ərazisində yolların əsaslı təmiri və abadlıq işlərinin görülməsi ilə bağlı büdcədə nəzərdə tutulan vəsait hesabına kifayət qədər iş görülüb. Şəhərin Mikayıl Müşfiq, Xəlil Rza Ulutürk, Ziya Bünyadov, Hürü Tağıyeva, Qara Qarayev, Əziz Əliyev, Həmzət bəy Əfəndiyev, Fətəli xan Xoyski, Abdulla İsrafilov, Nicat Mənəfov, İsmayıl Dağıstanlı, Nizami, Üzeyir Hacıbəyov, Molla Pənah Vaqif, Cəfər Cabbarlı, Məmmədəli Məmmədov, Mirzə Fətəli Axundov küçələrində abadlıq və quruculuq işləri aparılıb, yol və səkilər yenilənib.

Yaxşı məlumdur ki, istənilən layihənin, işin arxasında maliyyə dəstəyi dayanır. Ona görə də həmin sahədəki vəziyyətlə də tanış olmaq istədik. Rayon Statistika İdarəsi tərəfindən verilmiş məlumat qarşımızdadır. Açıq-aydın yazılıb ki, 2024-cü ilin 9 ayında rayon üzrə ümumi məhsul buraxılışı 143 milyon 513 min manat təşkil edib. Sənaye sahəsində rayon üzrə məhsul buraxılışı 14 milyon 513 min manat, kənd təsərrüfatı sahəsində 76 milyon 922 min manat, tikinti sahəsində 6 milyon 936 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 2 milyon 948 min manat, informasiya və rabitə sahəsində 1 milyon 842 min manat, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində 40 milyon 37 min manat olub.

Təbii ki, müasir dövrdə iqtisadiyyatın inkişaf etdirilməsində özəl sektorun da rolu böyükdür. Ona görə də təkcə bu il Qaxda Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması məqsədilə 93 sahibkara 2 milyon 242 min manat güzəştli kredit verilib. Eləcə də, rayonda bitkiçilik və heyvandarlıq məhsulları istehsalının dinamik artımının təmin olunması məqsədilə qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində işlər davam etdirilir.

Sahibkarlardan söhbət düşmüşkən qeyd edək ki, iqtisadiyyatının xeyli hissəsini kənd təsərrüfatı təşkil edən Qaxda yola salmaqda olduğumuz ilin məhsulu üçün 3510 hektardan çox sahədə yazlıq bitkilər, o cümlədən 527 hektarda yonca, 308 hektar sahədə tərəvəz, 201 hektar sahədə venəmir, 133 hektar sahədə bostan, 293 hektar sahədə kartof, 1453 hektar sahədə dən qarğıdalı, (həmin göstəricinin 180 hektarı Aqropark ərazisindədir) əkini aparılmışdı. Məhsuldarlıq fermer və sahibkarların arzuladığı səviyyədədir. Ən yüksək göstəricini isə baramaçılar qazanıblar. Belə ki, 193 kümçüyə verilmiş 300 qutu tut ipəkqurdu toxumundan 9 tona yaxın barama istehsal olunub. Bunun da 570 kiloqramını damazlıq barama təşkil edib.

Biz Qaxda geniş vüsət almış tikinti-quruculuq işləri, xidmət qurumlarının zamanın tələblərinə cavab verən fəaliyyəti, səhiyyə, təhsil, mədəniyyət, rabitə, gənclərlə iş sahələrində görülən işlər barədə dönə-dönə yazmışıq. Ona görə də bu gün gənclərin vətənpərvərlik tərbiyəsinin artırılması istiqamətində həyata keçirilən tədbirləri xatırlatmaq yerinə düşər. Çünki təkcə son üç ayda bu istiqamətdə iyirmiyə yaxın tədbir keçirilib. İkinci Qarabağ müharibəsinin başlandığı gün, rayon və şəhərlərimizin düşmən işğalından azad edilməsinin ildönümləri, düşmənin təslim aktına imza atmasının ildönümü, Zəfər Günü, Konstitusiya Günü, Dövlət Bayrağı Günü, Yeni Azərbaycan Partiyasının təsis edildiyi gün və bir çox başqa əlamətdar tarixlər münasibətilə keçirilən tədbirlər rayonun bütün qurumlarını əhatə edib – desəm, yanılmaram. Həmin tədbirlərin əksəriyyətində rayon rəhbərliyi də iştirak edib, biz jurnalistlər də. Daha çox üz tutulan, ziyarət edilən ünvan isə Şəhidlər xiyabanı olub.

Fikrimi həmin vətənpərvərlik tədbirlərindən biri – şəhid Asəf Ağayevin ad günü münasibətilə qələmə aldığım sətirlərlə tamamlamaq istəyirəm. Doğrudur, 1990-cı ildən bəri bütün rayonlarımız kimi, Qax da çoxsaylı şəhidlər verib. Həmin şəhidlərdən ancaq Asəfin adını çəkməyimiz də təsadüfi deyil. Çünki mən bu sətirləri qələmə aldığım gün – onun ad günü idi. Həm də Asəf 44 günlük müharibədə qəhrəmancasına döyüşüb, müharibə başa çatandan bir ay sonra Bakıda keçirilən Zəfər Paradında iştirak edib və həmin paraddan bir həftə sonra Xocavənddə minaya düşərək şəhid olub.

Bu igid oğlanı təqdim edim, siz də tanıyın. Qax şəhərində anadan olub, 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirib və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-cı ildə təhsilini bitirərək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Xüsusi Təyinatlılar bölməsində zabit kimi xidmətə başlayıb. Vətən müharibəsində Cəbrayılın, Xocavəndin, Şuşanın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə, 2020-ci il dekabrın 10-da Bakı şəhərində keçirilən “Zəfər” paradında iştirak edib, 2020-ci il dekabrın 17-də Xocavənddə minaya düşərək şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ölümündən sonra “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”,”Cəbrayılın azad olunmasına görə”, ”Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunub. 2020-ci il dekabrın 18-də də Qax şəhəri Şəhidlər xiyabanında dəfn olunub”.

Onun ad günündə iştirak edə bilmədim. Amma sağlıq olsun, dekabrın 17-də Qaxdakı Şəhidlər xiyabanında keçiriləcək anım gününə mütləq gedəcəm.

Biz bu yazımızda Qaxın gözəlliyindən demək olar ki, danışmadıq. Bunun da səbəbi var. Çünki buranın gözəlliyi, yaraşığı haqqında özü “danışsa” yaxşıdır. Bunun üçün bu yerlərə gəlib, qonaq olmaq lazımdır. Bu qədim diyarın hər daşı sənə tarixdən xəbər verəcək. Uzağa getməyək. Təkcə “İçəri bazar”da olsanız kifayətdir. Ayrılmaq istəməyəcəksiniz. Tikinti və yenidənqurma işlərindən sonra ölkə Prezidenti də burada olub, bu tarixi abidəyə yüksək qiymət verib. XVI əsrdən mövcud olan “İçəri bazar” qala qapıları və divarları maddi-mədəniyyət abidəsinin yenidən qurulması tarixi irsimizin qorunması istiqamətində Qaxda həyata keçirilən böyük işlərin təcrübəsidir.

Gənc sahibkar dostum Elmir Zərifovla birlikdə “İçəri bazar”ı gəzirik. Mənə buranın tarixindən həvəslə danışır. Bildirir ki, görkəmli bəstəkar, ictimai xadim Müslüm Maqomayevin atası usta Məhəmməd kişinin dəmirçi emalatxanası 1880-ci ildə burada yerləşmişdir. 1902-ci ildə Qori seminariyasında təhsil alarkən Müslüm Maqomayevlə atasının vəsiyyətinə əsasən dahi bəstəkar Üzeyir Hacıbəyli ilə burada olmuşlar.

Qaxda çox filmlər çəkilib. Elmirə demədim ki, Arif Babayevin 1977-ci ildə lentə aldığı “Arxadan vurulan zərbə” filminin son səhnəsi məhz elə burada, emalatxananın yanında çəkilib. Bir də Elmirə yenə demədim ki, mən burada çox olmuşam və onun tarixi haqqında hər şeyi bilirəm. Əziz oxucu sənə də demirəm ki, gəlib öz gözlərinlə görəsən. Çünki Qax möcüzələrini görmək üçün bu yerlərə gəlib özün baxmalısan.

... Mən Qaxdan ayrılanda üç ay sərbəsər dağların, dərələrin yaşıl örtüyünü xəzan saraltısına çevirməklə “məşğul olan” payız öz ömrünü qışa təslim etmək məcburiyyətində idi. Köhnə dostum Soltan Camalovun dediyi kimi, fəsillərin dəyişməsinin Qax üçün elə də bir fərqi yoxdur. Çünki bu rayonun istənilən fəsli, ayı, günü gözəldir. Bir azdan dağlara ağ yapıncı geyindirəcək qış isə daha maraqlı, nağılvari olur. Elə bizi “yola salan” küləkdən də “qar iyi gəlirdi”. Qoy yağsın. Qar bərəkətdir...

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

**Qax rayonu**

Mediada peşəkarlıq

# “Xalq qəzeti”nin jurnalistika təhsilinə töhfəsi

**Dünən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ali məktəbin və ölkənin media qurumlarının rəhbərlərinin iştirakı ilə “Xalq qəzeti”nin debat otağının açılışı oldu.**




Qonaqları salamlayan BDU-nun rektoru Elçin Babayev rəhbərlik etdiyi ali məktəbdə kadr hazırlığının günün tələblərini cavablandırılması üçün gerçəkləşdirilən yeniliklər barədə məlumat verdi. O bildirdi ki, çağdaş dünyada informasiya müharibəsi aparıcı trendlərdən birinə çevrildiyindən ölkənin jurnalist kadrları hazırlayan əsas mərkəzi olan BDU-da bu təhsilin forma və məzmunca yeniləşdirilməsi peşəkar media qurumları ilə birgə fəaliyyətdən keçir və bu istiqamətdə növbəti uğurlu addımlar atılıb.

Rektor qeyd etdi ki, bu vaxtadək jurnalistika fakültəsində Azərbaycan Mətbuat Şurasının yaratdığı debat otağı mediada özünüidarəetmə mexanizmi ilə bağlı hüquqi bazanı və mövcud təcrübəni tələbələrə daha dərindən mənimsətmək baxımından üstün imkan yaradır. Azərbaycan Respublikası Media Agentliyinin fakültədəki xüsusi auditoriyası isə dövlətin informaisya siyasətinin məram və məqsədinin, bu mövzunun incəliklərinin yeni nəsil jurnalistlərə çatdırılmasına xidmət edir. Ölkənin canlı çap mediası məktəbi sayılan, 105 yaşlı gündəlik anadilli nəşr olan “Xalq qəzeti”nin debat otağının hədəfi isə sabahın jurnalistlərində yüksək peşəkarlıq vərdişlərinin formalaşdırılmasıdır.



Yaradıcılıq laboratoriyası kimi nəzərdə tutulan debat otağı barədə məlumat verən “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov bildirdi ki, redaksiya ilə fakültə arasında çoxillik sıx əlaqəni məsafəcə qısaldan və keyfiyyətcə yüksəldən bu məxsusi auditoriyada qəzetin təcrübəli əməkdaşları milli mətbuatımızın tarixi təcrübəsi, redaksiya işinin təşkili, jurnalist məharəti, ədəbi redaktə kimi mövzularda praktik məşğələlər keçirəcək. Bundan əlavə, çağdaş mediada gündəm təşkil edən məsələlər ətrafında tanınmış jurnalistlərin tələbələrlə debatları da təşkil ediləcək. İstedadlı tələbələrin qəzetin fəliyyətinə cəld edilməsi ilə onların yaradıcılıq qabiliyyəti inkişaf etdiriləcək. Bilik və bacarığı ilə fərqlənən, ümidverən məzunlar redaksiyada işə qəbul ediləcək.

Mərasimdə “Xalq qəzeti”nin jurnalistika fakültəsi ilə çoxillik fəaliyyət ortaqlığından da söhbət açıldı. Qeyd edildi ki, Azərbaycanda ali jurnalist təhsilinin formalaşdırılmasında qəzetin tanınmış əməkdaşları da fəal iştirak ediblər. Uzun illərdən bəridir ki, redaksiyanın yaradıcı heyətinin əksəriyyətini fakültənin məzunları təşkil edir. Tələbələr davamlı olaraq redaksiyada müxtəlif məzmunlu yaradıcılıq təcrübəsi keçirlər. Jurnalist təhsilinin səviyyəsinin yüksəldilməsi qəzetin də fəaliyyətinə keyfiyyət yenilikləri gətirir. Debat otağı burada keçiriləcək praktik məşğələ, təlim və müzakirələrlə bu əməkdaşlığı daha da zənginləşdirəcək.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, “İki sahil” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Vüqar Rəhimzadə, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyevlə BDU-nun mətbuat xidmətinin rəhbəri Kəmalə Quliyeva çağdaş jurnalist hazırlığında ali təhsillə peşəkar təcrübənin vəhdətinin önəmini vurğuladılar, “Xalq qəzeti”nə və fakültəyə birgə fəaliyyətdə uğurlar arzuladılar.

Debat otağında yaradılmış xüsusi tərtibatla tanış olan iştirakçılar onun işini səmərəli qurmaq üçün rəy və təkliflərini bildirdilər.

**Tahir AYDINOĞLU**
**XQ**

Təqdimat




# “İnsan ürəyi ilə Heydər baba”

**Dünən AMEA Rəyasət Heyətində türkiyəli alim-jurnalist Aysel Sadak İltaşın ulu öndər Heydər Əliyevə həsr olunmuş “İnsan ürəyi ilə Heydər baba” kitabının təqdimatı keçirilib.**

Əvvəlcə foyedə ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətinə dair Azərbaycan Milli Elmlər Akademiyasında nəşr olunmuş kitablardan ibarət sərgiyə baxış olub.

Mərasimi giriş nitqi ilə açan AMEA prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan xalqının xilaskarı, dahi şəxsiyyət və böyük insan, XX əsrin görkəmli dünya siyasətçiləri arasında təkrarsız yeri olan ulu öndər Heydər Əliyevin tarixi obrazının xalqımızın yaddaşında və qəlbində əbədi iz saldığını vurğulayıb. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişafında Heydər Əliyevin misilsiz rolundan danışan akademik Ulu öndərin iki ölkə arasındakı əlaqələri XXI əsrin astanasında yeni körpülər yaratmaqla daha da möhkəmləndirdiyini və Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini bildirib.

Təqdimatı keçirilən “İnsan ürəyi ilə Heydər baba” kitabının böyük tarixi əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayan akademik İsa Həbibbəyli deyib ki, nəşrdə ümummilli lider Heydər Əliyevin böyük irsi, dövlətçilik tariximizdə misilsiz xidmətləri, yüksək insani keyfiyyətləri, zəngin mənəvi dünyası geniş şəkildə əks olunub. Kitabda nüfuzlu alimlərin, ictimai-siyasi xadimlərin Ulu öndər haqqında fikirləri, dahi şəxsiyyətlə bağlı xatirələri yer alıb. Heydər Əliyevə həsr olunan bu kitab, Ulu öndərin şəxsiyyətinə böyük hörmətin və dərin ehtiramın ifadəsidir.

Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ictimaiyyətə təqdim olunan bu nəşrin ulu öndər Heydər Əliyevi gələcək nəsillərə daha yaxından tanıtmaq üçün dəyərli töhfə olduğunu bildirib.

Millət vəkili, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov, Xalq şairi Sabir Rüstəmxanlı, Qazaxıstan Parlamenti Senatının deputatı Darxan Kıdırali, ETN Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru AMEA-nın müxbir üzvü Misir Mərdanov, Xalq yazıçısı Elmira Axundova, Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin deputatı Cantürk Alagöz çıxış edərək kitabın elmi-siyasi dəyərindən danışıblar, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Aysel Sadak İltaş ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

Tədbir boyu ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən slaydlar nümayiş etdirilib.

**Qabil YUSİFOĞLU**
**XQ**

COP29-a sənət dəstəyi

# Təbiətin şeiriyyəti və qüdrəti

**Maraqlı ekspozisiyaları ilə tanınan “Qazelli Art House” rəsm qalereyası “Paralel dünyalar” adlı qrup təqdimatına evsahibliyi edir. Sərgi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri Konfransı (COP29) çərçivəsində təşkil olunub.**



Sərginin kuratoru Nərminə Ramazanova yerli və əcnəbi rəssamların əl işləri barədə maraqlı və dolğun məlumatlar verərək burada nümayiş olunan əsərlərlə bizi yaxından tanış etdi. Bildirdi ki, sərginin məqsədi işıq və səs instalyasiyaları natural və süni yaradıcılıq anlayışlarını bir-birindən fərqləndirmək, mövzuya dair fikir mübadiləsi aparmaqdır.

Qalereyanın 3 mərtəbəsində Azərbaycan və Latviya rəssamlarının orijinal təbiət kompozisiyaları təqdim olunur. Rəssam Elnarə Nəsirlinin ağac gövdəsindən düzəldilmiş “Mənim kimi nəfəs al” adlı heykəltəraşlıq əsəri elektron bitki siqnalları ilə proqramlaşdırılıb. Bu ağacdan eşidilən musiqi səsi sanki insan nəfəsini xatırladır. COP29 ilə əlaqədar olaraq Latviyanın Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq nəticəsində yaranan “Pıçıldayan meşə” adlı tablo da maraq doğurur. Hər iki ölkədən toplanmış quru ağacları bir araya gətirən bu əsərə yaxınlaşdıqca yumşaq pıçıltıya bənzər səslər eşidilir. Bu mənzərə vasitəsilə insanlar bitkilərin gözəlliyini dərindən duyurlar. Xüsusi qulaqcıqlar tablolardan bizə ötürülən musiqi siqnallarını və səsləri dinləməyə imkan verir.

Sərgidə nümayiş olunan digər əsərlərə də baxdıq. Latviyalı Nay Tompsonun “Rəsm səyahətdir”, “Ada haqqında”, Kris Levinin “Narıncı” və “Çəhrayı”, “Həqiqət həndəsəsi” rəsm əsərləri silsiləsindən hazırlanmış, led işıqlar və svarovski qaşlarla bəzədilmiş müxtəlif həndəsi fiqurlar insanların Yer kürəsi ilə vəhdət təşkil etdiyini – qarşılıqlı əlaqədə olduğunu göstərir. Bu rəssamlar əsərlərində insanın təbiətlə təmasını incə şəkildə əks etdirmək üçün müxtəlif texnologiya üsullarından faydalanıblar. Yaradıcı kollektiv, həm də belə layihələrlə ekoloji böhranla aparılan mübarizəyə öz töhfəsini verib. Kollektivin birgə yaratdığı “Torpağın poetikası” adlanan silsilə əsərlər vizual və səs texnikaları vasitəsilə insanların düşüncə hüdudlarını genişləndirir, hissi qavrayışlar yaşadır.

Nay Tompsonun “Ada haqqında” instalyasiyası tamamilə “Google Earth” proqramı vasitəsilə yaradılmış təsvirlərdən ibarətdir. Vizual tabloda Britaniya dəniz sərhədləri canlandırılıb.

Rəssam Kris Levinin əsərlərində isə işığın xassələrini və mexanikasını forma, müstəvi və rəng vasitəsilə görmək mümkündür. Bu üslub tezlik və titrəyiş üzərində qurulub. Çəhrayı və narıncı ultrabənövşəyi rənglərlə boyanmış iri dairələr akustik linzanı xatırladır, yerləşdikləri məkanı fərqli göstərir, kosmosla insan arasında əlaqə yaradır. “Həqiqət həndəsəsi” rəsm əsərləri silsiləsindən ibarət müxtəlif ölçülü fiqurlar isə işıq tezlikli lazerlə kağız üzərinə həkk olunub.



Ekspozisiyada nümayiş olunan əsərlər sırasında “Portal” adlı plastik tordan hazırlanmış fiqurlu heykəllər də yer alır. Ziyarətçilər heykəl ətrafında qoyulmuş kiçik dairəvi stullarda əyləşərək gələcəyə virtual səyahətə çıxa, təxəyyül gücünü inkişaf etdirə bilərlər.

Sərgi gələn il yanvarın 31-dək davam edəcək. Giriş sərbəstdir.

Xatırladaq ki, 2010-cu ildə Mila Əsgərovanın təsis etdiyi “Qazelli Art House” müxtəlif sərgilər, tədbirlər və incəsənət yarmarkaları vasitəsilə öz yaradıcılığının zirvəsində olan yerli və əcnəbi rəssamları dəstəkləyir. Qalereya nümayiş olunan əsərlərlə Azərbaycan və qonşu ölkələri bir-birinə bağlayan zəngin dil, din və tarixi əlaqələri beynəlxalq auditoriyaya daha əhatəli təqdim etməyə çalışır. Qalereyanın piar meneceri və kuratoru isə Vəfa Qədirovadır.

***FH ÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Natiq Rəsulzadə – 75

# Həyat həqiqətlərinin bədii tərcümanı

**Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, Xalq yazıçısı Natiq Rəsulzadənin 75 yaşı tamam olur. Bu münasibətlə Nizami Kino Mərkəzində yubiley mərasimi keçirildi.**



Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu isə yubilyara ürək sözlərini belə çatdırdı: “Nə yaxşı bu dünyada Natiq Rəsulzadə yaradıcılığı var. Onu dərk etmək, ssenariləri əsasında filmlər hazırlamaq asan deyil. Bunun üçün peşəkarlıq və onu duyan ürək olmalıdır”.

Xalq artisti Həmidə Ömərova dedi ki, Natiqin qəlbi elə böyükdür ki, o, kədərli olanda da gülür: “Natiqin sənətkarlıq gücünü kəşf etmək üçün onu dərindən öyrənməlisən. O, fenomen yazıçıdır. Belə şəxsiyyətlər Azərbaycanın qürurudur, fəxridir”.



Məclisi giriş sözü ilə açan Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev Natiq Rəsulzadənin həyat və yaradıcılığı barədə məlumat verdi. O bildirdi ki, yazıçının əsərləri 40 ildən bəri dünyanın bir çox ölkələrində müxtəlif dillərdə nəşr olunur: “Yazıçı Moskvada Maksim Qorki adına Ədəbiyyat institutunda oxuyarkən söz korifeylərindən dərs almış, həyat həqiqətlərinin bədii dəyərə çevrilməsində gərəkli təcrübə qazanmışdır. Bu təhsil onun yaradıcılığı üçün təkan olmuşdur. Ötən illərdə yazıçı 200-dən çox hekayənin, 50-dən artıq kitabın müəllifi kimi zəngin ədəbi irs yaratmışdır”.

Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev Natiq Rəsulzadənin sənət uğurlarından, onunla dostluq əlaqəsindən söz açdı: “Natiq haqqında fəxrlə danışmaqdan yorulmuram, çünki o, qələminin sehri ilə ürəklərə əbədi yol tapıb. Sağ ol, əziz qələmdaşım, mən sənin hər bir əsərini səbirsizliklə gözləyirəm”.

Mərasimdə daha sonra qeyd edildi ki, “İntihar edənin gündəliyi”, Gecə çaparı”, Məhəbbət ili”, ”Yağışlı bayram”, “Kabuslar arasında”, ”Quş çəkirəm”, “Ulduz yollar”, “Tələ”, “Adacıq” və başqa kitabları ilə geniş oxucu auditoriyasının ürəyinə yol tapan, qələmi ilə sözü qüdrətləndirən Natiq Rəsulzadə Azərbaycan ədəbiyyatında özünəxas cığır açıb.

Natiq Rəsulzadə təbrik və xoş sözlərə görə razılığını bildirərək dedi:

Hər yaşın öz gözəlliyi var. İnsan yaşa dolduqca geriyə baxır. Bu gün bir anlıq uşaqlığımı, gəncliyimi, ötən illərimi yada saldım. Bu gün 75 rəqəminə yaxından baxdım. Bundan sonra daha həvəslə yaşamağı, yaratmağı düşündüm. Yaşamağı bacarmaq lazımdır”.

**Kəmalə ABDİNOVA**
**XQ**

Mediada peşəkarlıq

# “Xalq qəzeti”nin jurnalistika təhsilinə töhfəsi

**Dünən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ali məktəbin və ölkənin media qurumlarının rəhbərlərinin iştirakı ilə “Xalq qəzeti”nin debat otağının açılışı oldu.**




Qonaqları salamlayan BDU-nun rektoru Elçin Babayev rəhbərlik etdiyi ali məktəbdə kadr hazırlığının günün tələblərini cavablandırılması üçün gerçəkləşdirilən yeniliklər barədə məlumat verdi. O bildirdi ki, çağdaş dünyada informasiya müharibəsi aparıcı trendlərdən birinə çevrildiyindən ölkənin jurnalist kadrları hazırlayan əsas mərkəzi olan BDU-da bu təhsilin forma və məzmunca yeniləşdirilməsi peşəkar media qurumları ilə birgə fəaliyyətdən keçir və bu istiqamətdə növbəti uğurlu addımlar atılıb.

Rektor qeyd etdi ki, bu vaxtadək jurnalistika fakültəsində Azərbaycan Mətbuat Şurasının yaratdığı debat otağı mediada özünüidarəetmə mexanizmi ilə bağlı hüquqi bazanı və mövcud təcrübəni tələbələrə daha dərindən mənimsətmək baxımından üstün imkan yaradır. Azərbaycan Respublikası Media Agentliyinin fakültədəki xüsusi auditoriyası isə dövlətin informaisya siyasətinin məram və məqsədinin, bu mövzunun incəliklərinin yeni nəsil jurnalistlərə çatdırılmasına xidmət edir. Ölkənin canlı çap mediası məktəbi sayılan, 105 yaşlı gündəlik anadilli nəşr olan “Xalq qəzeti”nin debat otağının hədəfi isə sabahın jurnalistlərində yüksək peşəkarlıq vərdişlərinin formalaşdırılmasıdır.



Yaradıcılıq laboratoriyası kimi nəzərdə tutulan debat otağı barədə məlumat verən “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov bildirdi ki, redaksiya ilə fakültə arasında çoxillik sıx əlaqəni məsafəcə qısaldan və keyfiyyətcə yüksəldən bu məxsusi auditoriyada qəzetin təcrübəli əməkdaşları milli mətbuatımızın tarixi təcrübəsi, redaksiya işinin təşkili, jurnalist məharəti, ədəbi redaktə kimi mövzularda praktik məşğələlər keçirəcək. Bundan əlavə, çağdaş mediada gündəm təşkil edən məsələlər ətrafında tanınmış jurnalistlərin tələbələrlə debatları da təşkil ediləcək. İstedadlı tələbələrin qəzetin fəliyyətinə cəld edilməsi ilə onların yaradıcılıq qabiliyyəti inkişaf etdiriləcək. Bilik və bacarığı ilə fərqlənən, ümidverən məzunlar redaksiyada işə qəbul ediləcək.

Mərasimdə “Xalq qəzeti”nin jurnalistika fakültəsi ilə çoxillik fəaliyyət ortaqlığından da söhbət açıldı. Qeyd edildi ki, Azərbaycanda ali jurnalist təhsilinin formalaşdırılmasında qəzetin tanınmış əməkdaşları da fəal iştirak ediblər. Uzun illərdən bəridir ki, redaksiyanın yaradıcı heyətinin əksəriyyətini fakültənin məzunları təşkil edir. Tələbələr davamlı olaraq redaksiyada müxtəlif məzmunlu yaradıcılıq təcrübəsi keçirlər. Jurnalist təhsilinin səviyyəsinin yüksəldilməsi qəzetin də fəaliyyətinə keyfiyyət yenilikləri gətirir. Debat otağı burada keçiriləcək praktik məşğələ, təlim və müzakirələrlə bu əməkdaşlığı daha da zənginləşdirəcək.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, “İki sahil” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Vüqar Rəhimzadə, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyevlə BDU-nun mətbuat xidmətinin rəhbəri Kəmalə Quliyeva çağdaş jurnalist hazırlığında ali təhsillə peşəkar təcrübənin vəhdətinin önəmini vurğuladılar, “Xalq qəzeti”nə və fakültəyə birgə fəaliyyətdə uğurlar arzuladılar.

Debat otağında yaradılmış xüsusi tərtibatla tanış olan iştirakçılar onun işini səmərəli qurmaq üçün rəy və təkliflərini bildirdilər.

**Tahir AYDINOĞLU**
**XQ**

Təqdimat




# “İnsan ürəyi ilə Heydər baba”

**Dünən AMEA Rəyasət Heyətində türkiyəli alim-jurnalist Aysel Sadak İltaşın ulu öndər Heydər Əliyevə həsr olunmuş “İnsan ürəyi ilə Heydər baba” kitabının təqdimatı keçirilib.**

Əvvəlcə foyedə ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətinə dair Azərbaycan Milli Elmlər Akademiyasında nəşr olunmuş kitablardan ibarət sərgiyə baxış olub.

Mərasimi giriş nitqi ilə açan AMEA prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan xalqının xilaskarı, dahi şəxsiyyət və böyük insan, XX əsrin görkəmli dünya siyasətçiləri arasında təkrarsız yeri olan ulu öndər Heydər Əliyevin tarixi obrazının xalqımızın yaddaşında və qəlbində əbədi iz saldığını vurğulayıb. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişafında Heydər Əliyevin misilsiz rolundan danışan akademik Ulu öndərin iki ölkə arasındakı əlaqələri XXI əsrin astanasında yeni körpülər yaratmaqla daha da möhkəmləndirdiyini və Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini bildirib.

Təqdimatı keçirilən “İnsan ürəyi ilə Heydər baba” kitabının böyük tarixi əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayan akademik İsa Həbibbəyli deyib ki, nəşrdə ümummilli lider Heydər Əliyevin böyük irsi, dövlətçilik tariximizdə misilsiz xidmətləri, yüksək insani keyfiyyətləri, zəngin mənəvi dünyası geniş şəkildə əks olunub. Kitabda nüfuzlu alimlərin, ictimai-siyasi xadimlərin Ulu öndər haqqında fikirləri, dahi şəxsiyyətlə bağlı xatirələri yer alıb. Heydər Əliyevə həsr olunan bu kitab, Ulu öndərin şəxsiyyətinə böyük hörmətin və dərin ehtiramın ifadəsidir.

Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ictimaiyyətə təqdim olunan bu nəşrin ulu öndər Heydər Əliyevi gələcək nəsillərə daha yaxından tanıtmaq üçün dəyərli töhfə olduğunu bildirib.

Millət vəkili, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov, Xalq şairi Sabir Rüstəmxanlı, Qazaxıstan Parlamenti Senatının deputatı Darxan Kıdırali, ETN Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru AMEA-nın müxbir üzvü Misir Mərdanov, Xalq yazıçısı Elmira Axundova, Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin deputatı Cantürk Alagöz çıxış edərək kitabın elmi-siyasi dəyərindən danışıblar, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Aysel Sadak İltaş ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

Tədbir boyu ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən slaydlar nümayiş etdirilib.

**Qabil YUSİFOĞLU**
**XQ**

COP29-a sənət dəstəyi

# Təbiətin şeiriyyəti və qüdrəti

**Maraqlı ekspozisiyaları ilə tanınan “Qazelli Art House” rəsm qalereyası “Paralel dünyalar” adlı qrup təqdimatına evsahibliyi edir. Sərgi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri Konfransı (COP29) çərçivəsində təşkil olunub.**



Sərginin kuratoru Nərminə Ramazanova yerli və əcnəbi rəssamların əl işləri barədə maraqlı və dolğun məlumatlar verərək burada nümayiş olunan əsərlərlə bizi yaxından tanış etdi. Bildirdi ki, sərginin məqsədi işıq və səs instalyasiyaları natural və süni yaradıcılıq anlayışlarını bir-birindən fərqləndirmək, mövzuya dair fikir mübadiləsi aparmaqdır.

Qalereyanın 3 mərtəbəsində Azərbaycan və Latviya rəssamlarının orijinal təbiət kompozisiyaları təqdim olunur. Rəssam Elnarə Nəsirlinin ağac gövdəsindən düzəldilmiş “Mənim kimi nəfəs al” adlı heykəltəraşlıq əsəri elektron bitki siqnalları ilə proqramlaşdırılıb. Bu ağacdan eşidilən musiqi səsi sanki insan nəfəsini xatırladır. COP29 ilə əlaqədar olaraq Latviyanın Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq nəticəsində yaranan “Pıçıldayan meşə” adlı tablo da maraq doğurur. Hər iki ölkədən toplanmış quru ağacları bir araya gətirən bu əsərə yaxınlaşdıqca yumşaq pıçıltıya bənzər səslər eşidilir. Bu mənzərə vasitəsilə insanlar bitkilərin gözəlliyini dərindən duyurlar. Xüsusi qulaqcıqlar tablolardan bizə ötürülən musiqi siqnallarını və səsləri dinləməyə imkan verir.

Sərgidə nümayiş olunan digər əsərlərə də baxdıq. Latviyalı Nay Tompsonun “Rəsm səyahətdir”, “Ada haqqında”, Kris Levinin “Narıncı” və “Çəhrayı”, “Həqiqət həndəsəsi” rəsm əsərləri silsiləsindən hazırlanmış, led işıqlar və svarovski qaşlarla bəzədilmiş müxtəlif həndəsi fiqurlar insanların Yer kürəsi ilə vəhdət təşkil etdiyini – qarşılıqlı əlaqədə olduğunu göstərir. Bu rəssamlar əsərlərində insanın təbiətlə təmasını incə şəkildə əks etdirmək üçün müxtəlif texnologiya üsullarından faydalanıblar. Yaradıcı kollektiv, həm də belə layihələrlə ekoloji böhranla aparılan mübarizəyə öz töhfəsini verib. Kollektivin birgə yaratdığı “Torpağın poetikası” adlanan silsilə əsərlər vizual və səs texnikaları vasitəsilə insanların düşüncə hüdudlarını genişləndirir, hissi qavrayışlar yaşadır.

Nay Tompsonun “Ada haqqında” instalyasiyası tamamilə “Google Earth” proqramı vasitəsilə yaradılmış təsvirlərdən ibarətdir. Vizual tabloda Britaniya dəniz sərhədləri canlandırılıb.

Rəssam Kris Levinin əsərlərində isə işığın xassələrini və mexanikasını forma, müstəvi və rəng vasitəsilə görmək mümkündür. Bu üslub tezlik və titrəyiş üzərində qurulub. Çəhrayı və narıncı ultrabənövşəyi rənglərlə boyanmış iri dairələr akustik linzanı xatırladır, yerləşdikləri məkanı fərqli göstərir, kosmosla insan arasında əlaqə yaradır. “Həqiqət həndəsəsi” rəsm əsərləri silsiləsindən ibarət müxtəlif ölçülü fiqurlar isə işıq tezlikli lazerlə kağız üzərinə həkk olunub.



Ekspozisiyada nümayiş olunan əsərlər sırasında “Portal” adlı plastik tordan hazırlanmış fiqurlu heykəllər də yer alır. Ziyarətçilər heykəl ətrafında qoyulmuş kiçik dairəvi stullarda əyləşərək gələcəyə virtual səyahətə çıxa, təxəyyül gücünü inkişaf etdirə bilərlər.

Sərgi gələn il yanvarın 31-dək davam edəcək. Giriş sərbəstdir.

Xatırladaq ki, 2010-cu ildə Mila Əsgərovanın təsis etdiyi “Qazelli Art House” müxtəlif sərgilər, tədbirlər və incəsənət yarmarkaları vasitəsilə öz yaradıcılığının zirvəsində olan yerli və əcnəbi rəssamları dəstəkləyir. Qalereya nümayiş olunan əsərlərlə Azərbaycan və qonşu ölkələri bir-birinə bağlayan zəngin dil, din və tarixi əlaqələri beynəlxalq auditoriyaya daha əhatəli təqdim etməyə çalışır. Qalereyanın piar meneceri və kuratoru isə Vəfa Qədirovadır.

***F.HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Natiq Rəsulzadə – 75

# Həyat həqiqətlərinin bədii tərcümanı

**Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, Xalq yazıçısı Natiq Rəsulzadənin 75 yaşı tamam olur. Bu münasibətlə Nizami Kino Mərkəzində yubiley mərasimi keçirildi.**



Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu isə yubilyara ürək sözlərini belə çatdırdı: “Nə yaxşı bu dünyada Natiq Rəsulzadə yaradıcılığı var. Onu dərk etmək, ssenariləri əsasında filmlər hazırlamaq asan deyil. Bunun üçün peşəkarlıq və onu duyan ürək olmalıdır”.

Xalq artisti Həmidə Ömərova dedi ki, Natiqin qəlbi elə böyükdür ki, o, kədərli olanda da gülür: “Natiqin sənətkarlıq gücünü kəşf etmək üçün onu dərindən öyrənməlisən. O, fenomen yazıçıdır. Belə şəxsiyyətlər Azərbaycanın qürurudur, fəxridir”.



Məclisi giriş sözü ilə açan Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev Natiq Rəsulzadənin həyat və yaradıcılığı barədə məlumat verdi. O bildirdi ki, yazıçının əsərləri 40 ildən bəri dünyanın bir çox ölkələrində müxtəlif dillərdə nəşr olunur: “Yazıçı Moskvada Maksim Qorki adına Ədəbiyyat institutunda oxuyarkən söz korifeylərindən dərs almış, həyat həqiqətlərinin bədii dəyərə çevrilməsində gərəkli təcrübə qazanmışdır. Bu təhsil onun yaradıcılığı üçün təkan olmuşdur. Ötən illərdə yazıçı 200-dən çox hekayənin, 50-dən artıq kitabın müəllifi kimi zəngin ədəbi irs yaratmışdır”.

Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev Natiq Rəsulzadənin sənət uğurlarından, onunla dostluq əlaqəsindən söz açdı: “Natiq haqqında fəxrlə danışmaqdan yorulmuram, çünki o, qələminin sehri ilə ürəklərə əbədi yol tapıb. Sağ ol, əziz qələmdaşım, mən sənin hər bir əsərini səbirsizliklə gözləyirəm”.

Mərasimdə daha sonra qeyd edildi ki, “İntihar edənin gündəliyi”, Gecə çaparı”, Məhəbbət ili”, ”Yağışlı bayram”, “Kabuslar arasında”, ”Quş çəkirəm”, “Ulduz yollar”, “Tələ”, “Adacıq” və başqa kitabları ilə geniş oxucu auditoriyasının ürəyinə yol tapan, qələmi ilə sözü qüdrətləndirən Natiq Rəsulzadə Azərbaycan ədəbiyyatında özünəxas cığır açıb.

Natiq Rəsulzadə təbrik və xoş sözlərə görə razılığını bildirərək dedi:

Hər yaşın öz gözəlliyi var. İnsan yaşa dolduqca geriyə baxır. Bu gün bir anlıq uşaqlığımı, gəncliyimi, ötən illərimi yada saldım. Bu gün 75 rəqəminə yaxından baxdım. Bundan sonra daha həvəslə yaşamağı, yaratmağı düşündüm. Yaşamağı bacarmaq lazımdır”.

**Kəmalə ABDİNOVA**
**XQ**

Mediada peşəkarlıq

# “Xalq qəzeti”nin jurnalistika təhsilinə töhfəsi

**Dünən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ali məktəbin və ölkənin media qurumlarının rəhbərlərinin iştirakı ilə “Xalq qəzeti”nin debat otağının açılışı oldu.**



Qonaqları salamlayan BDU-nun rektoru Elçin Babayev rəhbərlik etdiyi ali məktəbdə kadr hazırlığının günün tələblərini cavablandırılması üçün gerçəkləşdirilən yeniliklər barədə məlumat verdi. O bildirdi ki, çağdaş dünyada informasiya müharibəsi aparıcı trendlərdən birinə çevrildiyindən ölkənin jurnalist kadrları hazırlayan əsas mərkəzi olan BDU-da bu təhsilin forma və məzmunca yeniləşdirilməsi peşəkar media qurumları ilə birgə fəaliyyətdən keçir və bu istiqamətdə növbəti uğurlu addımlar atılıb.

Rektor qeyd etdi ki, bu vaxtadək jurnalistika fakültəsində Azərbaycan Mətbuat Şurasının yaratdığı debat otağı mediada özünüidarəetmə mexanizmi ilə bağlı hüquqi bazanı və mövcud təcrübəni tələbələrə daha dərindən mənimsətmək baxımından üstün imkan yaradır. Azərbaycan Respublikası Media Agentliyinin fakültədəki xüsusi auditoriyası isə dövlətin informaisya siyasətinin məram və məqsədinin, bu mövzunun incəliklərinin yeni nəsil jurnalistlərə çatdırılmasına xidmət edir. Ölkənin canlı çap mediası məktəbi sayılan, 105 yaşlı gündəlik anadilli nəşr olan “Xalq qəzeti”nin debat otağının hədəfi isə sabahın jurnalistlərində yüksək peşəkarlıq vərdişlərinin formalaşdırılmasıdır.



Yaradıcılıq laboratoriyası kimi nəzərdə tutulan debat otağı barədə məlumat verən “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov bildirdi ki, redaksiya ilə fakültə arasında çoxillik sıx əlaqəni məsafəcə qısaldan və keyfiyyətcə yüksəldən bu məxsusi auditoriyada qəzetin təcrübəli əməkdaşları milli mətbuatımızın tarixi təcrübəsi, redaksiya işinin təşkili, jurnalist məharəti, ədəbi redaktə kimi mövzularda praktik məşğələlər keçirəcək. Bundan əlavə, çağdaş mediada gündəm təşkil edən məsələlər ətrafında tanınmış jurnalistlərin tələbələrlə debatları da təşkil ediləcək. İstedadlı tələbələrin qəzetin fəliyyətinə cəld edilməsi ilə onların yaradıcılıq qabiliyyəti inkişaf etdiriləcək. Bilik və bacarığı ilə fərqlənən, ümidverən məzunlar redaksiyada işə qəbul ediləcək.

Mərasimdə “Xalq qəzeti”nin jurnalistika fakültəsi ilə çoxillik fəaliyyət ortaqlığından da söhbət açıldı. Qeyd edildi ki, Azərbaycanda ali jurnalist təhsilinin formalaşdırılmasında qəzetin tanınmış əməkdaşları da fəal iştirak ediblər. Uzun illərdən bəridir ki, redaksiyanın yaradıcı heyətinin əksəriyyətini fakültənin məzunları təşkil edir. Tələbələr davamlı olaraq redaksiyada müxtəlif məzmunlu yaradıcılıq təcrübəsi keçirlər. Jurnalist təhsilinin səviyyəsinin yüksəldilməsi qəzetin də fəaliyyətinə keyfiyyət yenilikləri gətirir. Debat otağı burada keçiriləcək praktik məşğələ, təlim və müzakirələrlə bu əməkdaşlığı daha da zənginləşdirəcək.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, “İki sahil” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Vüqar Rəhimzadə, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyevlə BDU-nun mətbuat xidmətinin rəhbəri Kəmalə Quliyeva çağdaş jurnalist hazırlığında ali təhsillə peşəkar təcrübənin vəhdətinin önəmini vurğuladılar, “Xalq qəzeti”nə və fakültəyə birgə fəaliyyətdə uğurlar arzuladılar.

Debat otağında yaradılmış xüsusi tərtibatla tanış olan iştirakçılar onun işini səmərəli qurmaq üçün rəy və təkliflərini bildirdilər.

**Tahir AYDINOĞLU**
**XQ**

Təqdimat




# “İnsan ürəyi ilə Heydər baba”

**Dünən AMEA Rəyasət Heyətində türkiyəli alim-jurnalist Aysel Sadak İltaşın ulu öndər Heydər Əliyevə həsr olunmuş “İnsan ürəyi ilə Heydər baba” kitabının təqdimatı keçirilib.**

Əvvəlcə foyedə ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətinə dair Azərbaycan Milli Elmlər Akademiyasında nəşr olunmuş kitablardan ibarət sərgiyə baxış olub.

Mərasimi giriş nitqi ilə açan AMEA prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan xalqının xilaskarı, dahi şəxsiyyət və böyük insan, XX əsrin görkəmli dünya siyasətçiləri arasında təkrarsız yeri olan ulu öndər Heydər Əliyevin tarixi obrazının xalqımızın yaddaşında və qəlbində əbədi iz saldığını vurğulayıb. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişafında Heydər Əliyevin misilsiz rolundan danışan akademik Ulu öndərin iki ölkə arasındakı əlaqələri XXI əsrin astanasında yeni körpülər yaratmaqla daha da möhkəmləndirdiyini və Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini bildirib.

Təqdimatı keçirilən “İnsan ürəyi ilə Heydər baba” kitabının böyük tarixi əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayan akademik İsa Həbibbəyli deyib ki, nəşrdə ümummilli lider Heydər Əliyevin böyük irsi, dövlətçilik tariximizdə misilsiz xidmətləri, yüksək insani keyfiyyətləri, zəngin mənəvi dünyası geniş şəkildə əks olunub. Kitabda nüfuzlu alimlərin, ictimai-siyasi xadimlərin Ulu öndər haqqında fikirləri, dahi şəxsiyyətlə bağlı xatirələri yer alıb. Heydər Əliyevə həsr olunan bu kitab, Ulu öndərin şəxsiyyətinə böyük hörmətin və dərin ehtiramın ifadəsidir.

Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ictimaiyyətə təqdim olunan bu nəşrin ulu öndər Heydər Əliyevi gələcək nəsillərə daha yaxından tanıtmaq üçün dəyərli töhfə olduğunu bildirib.

Millət vəkili, Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov, Xalq şairi Sabir Rüstəmxanlı, Qazaxıstan Parlamenti Senatının deputatı Darxan Kıdırali, ETN Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru AMEA-nın müxbir üzvü Misir Mərdanov, Xalq yazıçısı Elmira Axundova, Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin deputatı Cantürk Alagöz çıxış edərək kitabın elmi-siyasi dəyərindən danışıblar, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Aysel Sadak İltaş ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

Tədbir boyu ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən slaydlar nümayiş etdirilib.

**Qabil YUSİFOĞLU**
**XQ**

COP29-a sənət dəstəyi

# Təbiətin şeiriyyəti və qüdrəti

**Maraqlı ekspozisiyaları ilə tanınan “Qazelli Art House” rəsm qalereyası “Paralel dünyalar” adlı qrup təqdimatına evsahibliyi edir. Sərgi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri Konfransı (COP29) çərçivəsində təşkil olunub.**



Sərginin kuratoru Nərminə Ramazanova yerli və əcnəbi rəssamların əl işləri barədə maraqlı və dolğun məlumatlar verərək burada nümayiş olunan əsərlərlə bizi yaxından tanış etdi. Bildirdi ki, sərginin məqsədi işıq və səs instalyasiyaları natural və süni yaradıcılıq anlayışlarını bir-birindən fərqləndirmək, mövzuya dair fikir mübadiləsi aparmaqdır.

Qalereyanın 3 mərtəbəsində Azərbaycan və Latviya rəssamlarının orijinal təbiət kompozisiyaları təqdim olunur. Rəssam Elnarə Nəsirlinin ağac gövdəsindən düzəldilmiş “Mənim kimi nəfəs al” adlı heykəltəraşlıq əsəri elektron bitki siqnalları ilə proqramlaşdırılıb. Bu ağacdan eşidilən musiqi səsi sanki insan nəfəsini xatırladır. COP29 ilə əlaqədar olaraq Latviyanın Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq nəticəsində yaranan “Pıçıldayan meşə” adlı tablo da maraq doğurur. Hər iki ölkədən toplanmış quru ağacları bir araya gətirən bu əsərə yaxınlaşdıqca yumşaq pıçıltıya bənzər səslər eşidilir. Bu mənzərə vasitəsilə insanlar bitkilərin gözəlliyini dərindən duyurlar. Xüsusi qulaqcıqlar tablolardan bizə ötürülən musiqi siqnallarını və səsləri dinləməyə imkan verir.

Sərgidə nümayiş olunan digər əsərlərə də baxdıq. Latviyalı Nay Tompsonun “Rəsm səyahətdir”, “Ada haqqında”, Kris Levinin “Narıncı” və “Çəhrayı”, “Həqiqət həndəsəsi” rəsm əsərləri silsiləsindən hazırlanmış, led işıqlar və svarovski qaşlarla bəzədilmiş müxtəlif həndəsi fiqurlar insanların Yer kürəsi ilə vəhdət təşkil etdiyini – qarşılıqlı əlaqədə olduğunu göstərir. Bu rəssamlar əsərlərində insanın təbiətlə təmasını incə şəkildə əks etdirmək üçün müxtəlif texnologiya üsullarından faydalanıblar. Yaradıcı kollektiv, həm də belə layihələrlə ekoloji böhranla aparılan mübarizəyə öz töhfəsini verib. Kollektivin birgə yaratdığı “Torpağın poetikası” adlanan silsilə əsərlər vizual və səs texnikaları vasitəsilə insanların düşüncə hüdudlarını genişləndirir, hissi qavrayışlar yaşadır.

Nay Tompsonun “Ada haqqında” instalyasiyası tamamilə “Google Earth” proqramı vasitəsilə yaradılmış təsvirlərdən ibarətdir. Vizual tabloda Britaniya dəniz sərhədləri canlandırılıb.

Rəssam Kris Levinin əsərlərində isə işığın xassələrini və mexanikasını forma, müstəvi və rəng vasitəsilə görmək mümkündür. Bu üslub tezlik və titrəyiş üzərində qurulub. Çəhrayı və narıncı ultrabənövşəyi rənglərlə boyanmış iri dairələr akustik linzanı xatırladır, yerləşdikləri məkanı fərqli göstərir, kosmosla insan arasında əlaqə yaradır. “Həqiqət həndəsəsi” rəsm əsərləri silsiləsindən ibarət müxtəlif ölçülü fiqurlar isə işıq tezlikli lazerlə kağız üzərinə həkk olunub.



Ekspozisiyada nümayiş olunan əsərlər sırasında “Portal” adlı plastik tordan hazırlanmış fiqurlu heykəllər də yer alır. Ziyarətçilər heykəl ətrafında qoyulmuş kiçik dairəvi stullarda əyləşərək gələcəyə virtual səyahətə çıxa, təxəyyül gücünü inkişaf etdirə bilərlər.

Sərgi gələn il yanvarın 31-dək davam edəcək. Giriş sərbəstdir.

Xatırladaq ki, 2010-cu ildə Mila Əsgərovanın təsis etdiyi “Qazelli Art House” müxtəlif sərgilər, tədbirlər və incəsənət yarmarkaları vasitəsilə öz yaradıcılığının zirvəsində olan yerli və əcnəbi rəssamları dəstəkləyir. Qalereya nümayiş olunan əsərlərlə Azərbaycan və qonşu ölkələri bir-birinə bağlayan zəngin dil, din və tarixi əlaqələri beynəlxalq auditoriyaya daha əhatəli təqdim etməyə çalışır. Qalereyanın piar meneceri və kuratoru isə Vəfa Qədirovadır.

***F.HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Natiq Rəsulzadə – 75

# Həyat həqiqətlərinin bədii tərcümanı

**Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, Xalq yazıçısı Natiq Rəsulzadənin 75 yaşı tamam olur. Bu münasibətlə Nizami Kino Mərkəzində yubiley mərasimi keçirildi.**





Məclisi giriş sözü ilə açan Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev Natiq Rəsulzadənin həyat və yaradıcılığı barədə məlumat verdi. O bildirdi ki, yazıçının əsərləri 40 ildən bəri dünyanın bir çox ölkələrində müxtəlif dillərdə nəşr olunur: “Yazıçı Moskvada Maksim Qorki adına Ədəbiyyat institutunda oxuyarkən söz korifeylərindən dərs almış, həyat həqiqətlərinin bədii dəyərə çevrilməsində gərəkli təcrübə qazanmışdır. Bu təhsil onun yaradıcılığı üçün təkan olmuşdur. Ötən illərdə yazıçı 200-dən çox hekayənin, 50-dən artıq kitabın müəllifi kimi zəngin ədəbi irs yaratmışdır”.

Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev Natiq Rəsulzadənin sənət uğurlarından, onunla dostluq əlaqəsindən söz açdı: “Natiq haqqında fəxrlə danışmaqdan yorulmuram, çünki o, qələminin sehri ilə ürəklərə əbədi yol tapıb. Sağ ol, əziz qələmdaşım, mən sənin hər bir əsərini səbirsizliklə gözləyirəm”.

Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu isə yubilyara ürək sözlərini belə çatdırdı: “Nə yaxşı bu dünyada Natiq Rəsulzadə yaradıcılığı var. Onu dərk etmək, ssenariləri əsasında filmlər hazırlamaq asan deyil. Bunun üçün peşəkarlıq və onu duyan ürək olmalıdır”.

Xalq artisti Həmidə Ömərova dedi ki, Natiqin qəlbi elə böyükdür ki, o, kədərli olanda da gülür: “Natiqin sənətkarlıq gücünü kəşf etmək üçün onu dərindən öyrənməlisən. O, fenomen yazıçıdır. Belə şəxsiyyətlər Azərbaycanın qürurudur, fəxridir”.

Mərasimdə daha sonra qeyd edildi ki, “İntihar edənin gündəliyi”, Gecə çaparı”, Məhəbbət ili”, ”Yağışlı bayram”, “Kabuslar arasında”, ”Quş çəkirəm”, “Ulduz yollar”, “Tələ”, “Adacıq” və başqa kitabları ilə geniş oxucu auditoriyasının ürəyinə yol tapan, qələmi ilə sözü qüdrətləndirən Natiq Rəsulzadə Azərbaycan ədəbiyyatında özünəxas cığır açıb.

Natiq Rəsulzadə təbrik və xoş sözlərə görə razılığını bildirərək dedi:

Hər yaşın öz gözəlliyi var. İnsan yaşa dolduqca geriyə baxır. Bu gün bir anlıq uşaqlığımı, gəncliyimi, ötən illərimi yada saldım. Bu gün 75 rəqəminə yaxından baxdım. Bundan sonra daha həvəslə yaşamağı, yaratmağı düşündüm. Yaşamağı bacarmaq lazımdır”.

**Kəmalə ABDİNOVA**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 270 (30674) 7 dekabr 2024-cü il, şənbə

# Şəkidə Teatr Festivalına yekun vuruldu

**Mədəniyyət Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının dəstəyi və birgə təşkilatçılığı ilə keçirilən IV Şəki Beynəlxalq Teatr Festivalı uğurla başa çatıb.**



Şəkidə milli peşəkar teatrın yaranmasının 145 illiyinə həsr olunan festivalda ölkəmizin teatrları ilə yanaşı, Qazaxıstan və Özbəkistan respublikalarından gələn teatr kollektivləri də iştirak ediblər.

Festivalın sonuncu günü – dekabrın 5-də Gəncə Dövlət Milli Dram Teatrı tamaşaçılara türk dramaturqu Əziz Nesinin "Toros canavarı" sosial komediyası əsasında hazırladığı eyniadlı tamaşanı təqdim edib.



Səhnə əsərinin quruluşçu rejissoru İstanbulun Maltəpə Bələdiyyə Teatrının baş rejissoru, Avrasiya Teatrlar Birliyinin (ATB) baş katibi Kubilay Erdelikara, rejissoru ATB-nin Azərbaycan təmsilçisi Yusif Cəfərov, quruluşçu rəssamı isə Mustafa Mustafayevdir.

Tamaşada rolları Əməkdar artistlər İlham Hüseynov, Sevda Orucova, Novruz Cəfərov, Elxan Abbasov, Ramiz Vəliyev, aktyorlar Günay Cabbarova, Emil Salmanov, Samir Abbasov, Akif Səfərov, Həsən Cəfərov və Elmir Məmmədov ifa ediblər.

Sonda Şəki Dövlət Dram Teatrı və Şəki Şəhər İcra Hakimiyyəti adından Gəncə Dövlət Milli Dram Teatrının kollektivinə xatirə hədiyyələri təqdim olunub.

*S.FİDAN*
*XQ*

Hava

## Abşeronda yağış, bölgələrdə yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 7-də Bakıda və Abşeron yarımadasında tutqun hava şəraiti üstünlük təşkil edəcək. Bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gündüz yağıntıda qısa müddətə fasilə olacaq.**



Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 6-8°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 775 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin gündüz bəzi şərq rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, gündüz bəzi şərq rayonlarında küləyin güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 8-13° isti, dağlarda gecə 6-11° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.QASIMOV*
*XQ*

Qulu Məhərrəmli – 70

# BDU-da yubiley sessiyası

**Bakı Dövlət Universitetində multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmlinin 70 illik yubileyinə həsr olunan"Azərbaycan televiziyası müstəqillik illərində: əsas inkişaf tendensiyaları" mövzusunda elmi sessiya keçirilib.**



Elmi məclisi giriş sözü ilə açan Mətbuat Şurasının sədri Rəşad Məcid Qulu Məhərrəmlinin jurnalist fəaliyyətinin Azərbaycan televiziyasında çoxillik səmərəli yaradıcılıqla əlamətdar olduğunu söyləyib. O qeyd edib ki, televiziya nəzəriyyəçisi və təcrübəli media mütəxəssisi kimi tanınan Qulu Məhərrəmli uzun illərdir ki, praktik və elmi yaradıcılığı ilə yanaşı, bilik və təcrübəsini BDU jurnalistika fakültəsinin tələbələrinə öyrədir.

BDU-nun rektoru Elçin Babayev yubilyarı təbrik edərək bildirib ki, Qulu Məhərrəmli istedadlı telejurnalist, geniş elmi biliyi və zəngin təcrübəsi ilə tanınan pedaqoqdur: "Onun nəzəriyyə ilə təcrübəni uğurla birləşdirməsi jurnalistika təhsilini keyfiyyətcə yüksəltməyə layiqli xidmət göstərir. 1991-ci ildən BDU-da çalışan Qulu Məhərrəmli ali məktəbin dəyərli professorudur. O, BDU-nu Azərbaycan Mətbuat Şurasında təmsil edən 2 əməkdaşımızdan biridir".

Elçin Babayev uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə görə və 70 illik yubileyi münasibətilə Qulu Məhərrəmliyə ali məktəbin Fəxri fərmanını təqdim edib.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri, filologiya elmləri doktoru Rövşən Məmmədov qeyd edib ki, Qulu Məhərrəmli Azərbaycan televiziya məkanının tanınmış simalarından biridir: "O, ünsiyyət mədəniyyəti, media etikası və audiovizual nitq kimi sahələrdə dəyərli araşdırmalar aparıb".

Sessiyanın davamında Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, kafedra müdirləri Cahangir Məmmədli və Xatirə Hüseynov Qulu Məhərrəmlinin jurnalist yaradıcılığı, televiziya tənqidi və jurnalistika təhsili sahələrində fəaliyyəti mövzularında məruzələr ediblər.

Sonda yubiliyar elmi-pedaqoji və jurnalist fəaliyyətinə verilən dəyərə görə təşəkkür edib.

**Namiq QƏDİMOĞLU**
**XQ**

# Paytaxtın 65 yaşlı "Moskviç"i




**"Əslində, bu maşın atamın yadigarıdır. Atam 1958-ci il aprelin 12-də növbəlik qaydasında "Moskviç- 407" markalı avtomobil alıb, bir müddət onu idarə edəndən sonra övladlarına bağışlayıb. İndi biz qardaşlar onu ata yadigarı kimi qoruyub saxlayırıq".**

Bakının Suraxanı rayonunun Əmircan qəsəbə sakini Vaqif Quliyev ötən əsrin təxminən ortalarının yadigarı olan köhnə avtomobilin tarixçəsini xatırlayır.

Onun atası Əsəd Quliyev İkinci Dünya müharibəsindən əvvəl Əmircanda fəaliyyət göstərən zavodda tornaçı işləyib. 1942-ci ildə sürücülük məktəbini bitirəndən sonra müharibəyə yola düşüb. 1945-ci ilədək cəbhədə atıcı olub, 1948-ci ilədək isə Xarkovda sürücü kimi fəaliyyət göstərib. Müharibədən geri qayıdandan sonra 3 il Bakıda sürücü işləyib. İkinci Dünya müharibəsi iştirakçısı kimi ona torpaq sahəsi ayrılıb. Həmin ərazidə tikdirdiyi evin birinci mərtəbəsi qaraj, ikinci mərtəbəsi isə stomatoloji kabinet olub. 1952-ci ildə ixtisasca stomatoloq olan Sona ilə ailə həyatı qurandan sonra diş texniki kimi çalışmağa başlayıb.

"Atamın aldığı "Moskviç-407" qəsəbədə ilk nəqliyyat vasitələrindən olub. O vaxt kənddə doğulan uşaqların çoxunu onun avtomobili ilə xəstəxanadan evə gətiriblər. Onlardan biri də 1962-ci ildə dünyaya gələn kiçik qardaşım Həsəndir", – deyə Vaqif məlumat verir: "İndiyədək kənddə keçirilən mühüm tədbirlərdə, xeyir-şər məclislərində maşının xidmətindən istifadə edilir. Elə məclislər olub ki, toy sahibinin arzusu ilə gəlini də atamın maşını ilə aparıblar".

Quliyevlər ailəsində texnikaya, aviasiya peşəsinə böyük maraq var. Vaqif və qardaşı Akif əvvəllər Zabratdakı aviasiya şirkətində helikopter pilotu işləyiblər. Hər ikisi Birinci Qarabağ müharibəsi veteranıdır. Kiçik qardaşı Həsənin qızı Sona gənc alim kimi ötən il Bakıda keçirilən Beynəlxalq Aerokosmonavtika Konqresində iştirak edib. İtaliyanın Turin şəhərində elmi iş müdafiə etməyə hazırlaşır. Akifin oğlu Əsəd hazırda helikopter pilotudur. Vaqifin qızı Kristina "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətində dispetçer işləyir.

Vaqif bu illər ərzində "Moskviç-407"ni o qədər detallarla zənginləşdirib ki, müasir avtomobillərdən geri qalmır. Avtomobilin xarici görkəmi isə göz oxşayır, necə deyərlər, elə bil zavoddan indi çıxıb. O, atasının yadigarı olan avtomobilin çox işlənməməsi üçün 1990-cı ildə özünə "Moskviç-412" markalı avtomobil alıb. Həmin nəqliyyat vasitəsi hər il Azərbaycan Avtomobil Federasiyası və "Zhara Events"in təşkilatçılığı ilə Bakıda keçirilən klassik avtomobillərin sərgisində iştirak edir.

Əmircan qəsəbəsinin küçələrində hamının xüsusi marağına səbəb olan göy rəngli avtomobil şütüyür. Quliyevlər ailəsinin çox sevdiyi və uzun illərdən bəri qoruyub saxladığı "Moskviç-407" markalı avtomobilin ötən il 65 yaşı tamam olub. Görkəmi, yaraşığı ilə göz oxşayan bu "dəmir brilyant"ın təkərləri hələ neçə illər küçələri naxışlayacaq…

*Süleyman QARADAĞLI*

XQ-nin fotoqalereyası

# Bizim Bakı gecələri



İdman

## Əsrin ən yaxşı yarımmüdafiəçiləri

**XXI əsrdə dünya futbolunun ən yaxşı yarımmüdafiəçiləri bəlli olub.**




Böyük Britaniyanın nüfuzlu "GiveMeSport" nəşrinə görə, ilk pillədə "Barselona"nın sabiq oyunçusu Xavi Ernandes qərarlaşıb. Xorvatiya millisinin və İspaniya təmsilçisi "Real"ın üzvü Luka Modriç 2-ci, karyerasını bitirmiş digər ispaniyalı Andres İnyesta 3-cü sırada yer alıb.

## Özbəkistanda 2 mükafat

**Özbəkistanın paytaxtı Daşkənddə fiqurlu konkisürmə üzrə "Interclub Figure Skating" beynəlxalq turniri keçirilib.**




Yarışda iştirak edən "Ocaq Sport"un idmançıları 2 medal qazanıblar.

İlk dəfə beynəlxalq turnirə qatılan Varvara Aleksandrova və Polina Oreşko balacaların mübarizəsində fəxri kürsüyə yüksəliblər. Onların hər ikisi yarışda gümüş medal əldə edib.

*L.QURBANOVA*
*XQ*

# Naxçıvanda onkoloji aksiya

**Dünən Naxçıvan Sağlamlıq Mərkəzində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Milli Onkologiya Mərkəzinin əməkdaşlarının təşəbbüsü ilə pulsuz onkologiya müayinələri və əməliyyatlar həyata keçirilib.**



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Milli Onkologiya Mərkəzinin tanınmış həkim və mütəxəssisləri tərəfindən həyata keçirilən bu aksiya onkoloji xəstəliklərin erkən mərhələdə aşkar edilməsi və müasir tibbi üsullarla müalicəsinin təmin olunması məqsədi daşıyır.

Pulsuz müayinə və əməliyyatlar əhalinin sağlamlığının qorunması, xüsusən bədxassəli şişlərin erkən diaqnostikasına diqqət yetirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Bu tədbir, xüsusilə onkologiya sahəsində yüksək təcrübəyə və müasir texnologiyalara malik olan həkim və mütəxəssislərin birbaşa əhalinin xidmətində olması ilə fərqlənir.

*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini Leyla Məmmədovaya qayınanası

**XALİDƏ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2797
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00